Qurani-kərimdə Həzrət İsa (ə) və Ruhul-Qüds çox böyüklüklə yad olunurlar. İsa (ə) Allahın ən əzəmətli peyğəmbərlərindən biri sayılır. Ruhul-Qüds isə Allahın əmrilə ona qeyb aləmindən köməklər edir. Quranda «Ruhul-Qüds», ya «Ruhul-əmin» İlahi mələyi kimi tanıdılır və bütün peyğəmbərlərə, o cümlədən, Həzrət İsaya (ə) və Həzrəti Məhəmmədə (s) İlahi vəhyi xalqa çatdırmaqda köməklik edir. Quran Allahdan başqa hər nə varsa Allahın məxluqatı və yaratdığı bilib, həzrət İsa və Ruhul-Qüdsü də bu ümumi qaydadan müstəsna etməmişdir. Həmçinin, xristianların əqidə bəslədikləri «üç üqnum əqidəsi»-ni də küfr və batil sanır.

1. Üyuni-Əxbari-Rza (ə), c. 1, səh. 104 -108

Elə buna görə də Qurani-kərim Məhəmməd peyğəmbər (s) və onun Əhli-beyti (ə) həmişə məsihiyyətdə sonradan meydana gəlmiş küfr və şirk fikirlərlə mübarizə aparırdı. Dediyimizə nümunə olaraq İmam Rzanın (ə) yəhudi və xristian alimlərilə bu mövzuda apardığı bəhslərdən bir neçə parçanı (ixtisarla) nəzərinizə çatdırırıq.

İmam Rza (ə) Məmunun sarayında Məsihi alimi Caselikdən soruşur: «İsanın ölüb-dirilməsinin Allahın iznilə olmasına etirazın yoxdur ki?»

Caselik: «Etirazım var! Çünki ölüdiriləndən, anadangəlmə kor və şilə şəfa bəxş edən şəxsin özü Allah sayılmalıdır.»

İmam Rza (ə): «Yuşə peyğəmbər (ə) də İsa (ə) kimi su üzərində batmadan gəzib, ölü dirildib və anadangəlmə korlara şəfa bəxş edirdi. Bəs nəyə görə ümməti onu Allah adlandırmadı? Və heç kəs onu Allah sanaraq ibadət etmədi?

Həmçinin, Hezqil peyğəmbər (ə) də, İsa (ə) kimi möcüzələr yaradırdı. Belə ki, 60 illik 3500 ölünü məhz Hezqil peyğəmbər (ə) (Allahın iznilə) diriltdi!»

Bu zaman İmam (ə) üzünü məclisdə əyləşmiş yəhudi alimi Caluta tutaraq buyurdu: «Sən bilirsənmi «Tövrat» bu 3500 cavanın Bəni-İsrail tayfasından olduğunu söyləyir? Və orada deyilir ki, Boxtun-Nəsr onları Bəni-İsrail əsirlərindən ayıraraq Vabildə öldürdü? Sonralar isə Hezqil peyğəmbər (ə) onları Allahın göstərişilə diriltdi? Bu sözlərin hamısı Tövratda mövcuddur. Sən bunları inkar edə bilməzsən. Çünki bu sözləri ancaq kafirlər inkar edirlər.» Yəhudi alimi Calut dedi: «Biz bu sözləri eşitmişik, bilirik və qəbul edirik!»

İmam Rza (ə) Caselikə üz tutaraq buyurdu: Ey Caselik, bizim Peyğəmbər (s) anadangəlmə kor, şil və dəlilərə şəfa vermək qüdrətinə malik idi. O, heyvanlar, quşlar, cin və şeytanlarla danışmağa qadir idi. Lakin biz onu Allah sanmırıq. Vahid tanrıdan başqa heç kimi özümüzə Allah bilib ona ibadət etmirik. Biz bütün peyğəmbərlərin üstünlüyü və əzəmətinə iman gətirsək də heç bir halda onları ilahiləşdirmirik. Siz isə Yuşə (Yeşeya) peyğəmbər (ə), Hezqil (Hezegil) (ə) və Məhəmməd peyğəmbərin (s) İsa (ə) kimi möcüzəyə qadir olmalarını bilsəniz də təkcə İsanı (ə) Allah sanırsınız!...

Əgər ölü diriltmək, anadangəlmə kor və şilə şəfa vermək bir kəsin Allah olmasına dəlalət edirsə, gərək onda bütün peyğəmbərləri Allah biləsən! »

Bu zaman hər yanı sükut bürüdü. Bütün nəzərlər Caselikə tərəf yönəldi. İmam Rza (ə) buyurdu: «Caselik, nə fikirləşirsən?»

Caselik dedi: «Şəhadət verirəm ki, Allahdan başqa Allah yoxdur.»

Ümumiyyətlə, Qurani kərim Allah-təalanı «Allah birdir», «Onun heç bir şeyə ehtiyacı yoxdur», «O hər bir şeyə qadirdir», «Allahın misli-bərabəri yoxdur», «O sizin qəlblərinizə agahdır» və bu kimi yüzlərlə ayədə ən kamil və əlçatmaz vəsflərlə mədh edir. Və dönə-dönə Uca Tanrının təkliyinə israr edən Quran öz sözünün sübutu üçün buyurur: «Əgər yerdə və göydə Allahdan başqa Allahlar olsaydı, o zaman bütün aləmin nizam-intizamı pozulardı. Ərşin Rəbbi olan Allah ona nisbət verilənlərdən (Ata və ya şərik sahibi olmaqdan) uzaqdır.» *(Ənbiya , 22)*

Qurani kərim yuxarıdakı ayədə kainatın iki və ya çox Allah tərəfindən yaradılmasını, ya idarə edilməsini qeyri-mümkün sayıb və bunun səbəbini kainatda nizam-intizamın pozulması ilə açıqlayır. Qurana görə, əgər dünyanı yaradan iki, ya çox Allah olsaydı, o zaman onların hər biri dünyanı və onun parçalarını istədikləri formada yaradardı. Bu da dünyanın düzgün qurulmaması və nəhayət, onun dağılması ilə nəticələnərdi. Məsələn, günəşi yaradan Allah o qədər istilik verərdi ki, başqa Allahın yaratdığı insanlar günəşin fövqəladə və dözülməz hərarəti nəticəsində məhv olardılar. Həmçinin, küləyi yaradan Allah ona elə bir qüvvə verərdi ki, o biri Allahın yaratdığı bütün varlıqları göyə sovurardı. Deməli, əgər hazırda dünya nəzmlə yaranıb və proqram əsasında idarə olunursa, bu o deməkdir ki, yaradan və idarə edən yalnız qüdrəti tükənməyən vahid bir varlıqdır (Allahdır).

Belə sual meydana gələ bilər ki, dünyanı yaradan və onu idarə edən bir neçə Allahı təsəvvür etmək heç də qeyri-mümkün bir şey deyil. Ona görə ki, təsəvvür etdiyimiz Allahlar dünyanı yaradarkən və onu idarə etdikləri vaxt bir-birilərilə məsləhətləşib nəzm-intizamı qoruya bilərlər. Beləliklə, çox Allahın mövcud olması ağıldan kənar deyil.

Cavab: Əgər Allahlar bir-birilərilə məsləhətləşirlərsə, bu o deməkdir ki, onların heç biri tükənməz elmə və qüdrətə malik deyil. Çünki, məsləhət nəyisə bilməyəndə və ya nədəsə şəkk edəndə və yaxud da hansısa bir mürəkkəb məsələdə ortaya çıxır.

Allah-təala isə bütün dinlərə əsasən hər bir şeyi bilir və onun üçün qaranlıq və mürəkkəb heç bir şey yoxdur. Deməli, Allah-təaladan başqa Allahların mövcud olmaları, hətta təsəvvür olunmaları belə batil və ləğv sayılır.

## Üç üqnum İslam baxımından

Qurani-kərimin ən əsaslı və köklü məsələlərindən olan tövhid anlayışı, İlahi mərifətlərin birincisi olmaqla yanaşı İslam dinində olan bütün məsələlərin istisnasız şəkildə dayaq nöqtəsidir. Həmçinin, Quranda göstərilən peyğəmbərlərin heç birinin vahid Allaha doğru çağırışları bu kitabda zikr olan səmavi dinlərin bir tanrı tərəfindən göndərilmələri, İslam Tövhid inancını ləkələyən və ona şübhə oyadacaq ən kiçik fikirlərlə belə mübarizəsini bir daha açıq şəkildə bəyan edir. Elə buna görə də, Qurani-kərim İlahi Tövhiddən uzaq düşməyi bağışlanmayan bir günah sayaraq buyurur: «Allah-Taala heç vaxt ona şərik qoşmağı bağışlamaz. Lakin əgər bundan başqa günah olarsa (ilahi məsləhəti olduğu halda) istədiyi şəxsi bağışlayır.» *(Nisa, 48)*

Deməli İslamda şirk və tövhiddən uzaq düşmək necə böyük bir günahdırsa, Allah-taala bütün günahları məsləhət bildiyi zaman bağışlayır, lakin şirki heç bir vaxt bağışlamağa hazır deyil. Hətta müqəddəs Quranda müşrik insanın yaxşı əməllərində İlahi yanında puç və dəyərsiz sayılır: «Sənə və səndən qabaqkı bütün peyğəmbərlərə vəhy olunmuşdur ki, əgər müşrik olsanız əməllərinizin hamısı hədər olacaqdır. Və əlbəttə ki, ziyan görənlərdən olacaqsınız.» *(Zümər, 65)*

Müqəddəs Quran həmişə «üç üqnum əqidəsi»ni və Allaha şərik qoşan bütün əqidələri batil sayaraq, belə bir inanc sahiblərini nifrin etmişdir. Buna nümunə olaraq bir necə ayəyə işarə edirik:

1. «Həqiqətən də Allah üçdür deyənlər kafir oldular. Allahdan başqa bir Allah yoxdur. Əgər onlar (Məsihilər) öz dediklərindən əl çəkməsələr o kafirləri böyük əzab gözləyir!» *(Maidə, 73)*
2. «Yəhudilər dedilər: Üzeyir Allahın oğludur. Xristianlar dedilər: Məsih Allahın oğludur. Onlar öz sözlərilə özlərini küfr edənlərə oxşadırlar. Allah onları öldürsün. Yenə Allaha böhtan atırlar.» *(Tövbə, 30)*
3. «Allah, Məryəm (ə) oğlu məsihdir deyəndər kafir oldular. Bir halda ki, Məsih dedi: Ey Bəni İsaril, mənim və sizin rəbbiniz olan Allaha ibadət edin. Allah, ona şərik qoşana Cənnəti haram və Axirətin isə Cəhənnəm etmişdir.» *(Maidə, 78)*

Əsrlər boyu Avropanın ən tanınmış alim, filosof, ilahiyyatçı və tarixçilərinin, bu əqidəyə qarşı çıxmaları, Pavelin İsa (ə) barəsindəki etiqadnaməsinin nə qədər əsassız və uydurma olduğundan xəbər verir. Bu etiqadlar əgər İsanın (ə) həqiqi təlimlərində olsaydı, heç vaxt həvarilərin belə şiddətli ixtilafları ilə üzləşməzdi. Diqqət etmək lazımdır ki, burada söhbət dinin kök və əsl bünövrəsi barəsində yaranmış ixtilafdan gedir, nəinki hər hansı mübahisə törətmiş bir rəvayət və canişinlik iddiasından. Çünki əgər bu mübahisə dində olan hər hansı bir hökm və ya İsadan (ə) sonra olacaq canişin barəsində olsaydı, məsələyə adi yanaşmaq mümkün idi. Amma burada söhbət dinin özündən, özülündən gedir. Yaranmış ixtilaf və pərakəndəlik elə bu səbəbdən də təəccüb doğurur, İsanın (ə) həqiqi dinində belə xurafat dolu əqidənin olmadığını yetirir.

Beləliklə, Volterin «üç üqnum əqidəsi» barəsində söylədiyi fikirlərlə bu bəhsi sona yetiririk:

İnsan, «Allah olan İsanın» necə ana bətnində doğularaq bu dünyaya gəldiyini, sonra isə insanlar tərəfindən dara çəkilərək öldüyünü və yenidən dirildiyini fikirləşdikdə, heyrətə gəlir. Ağıllı insan bu sözün batil , uydurma olduğuna istər-istəməz etiraf edir. Hər nə qədər özündən soruşsan ki, adi bir yəhudi (İsa) necə oldu «Allah» oldu?!» Öz sualına cavab tapa bilməyərək, onun fərziyyə olduğunu anlayır.

Qəribədir ki, məsihilər «üçün bir və birin üç» olduğunu başa düşmədikləri halda, ona necə inanırlar? Bu açıq-aşkar düşüncəsizlik deyilmi? Qədim iranlılar və yunanlar günəşə pərəstiş edirdilər. Saiblilər ulduzları, finlilər küləyi və keçmişdə yəhudilər «mis ilana» ibadət edirdilər. Lakin bəşərin rüsvayçılığı o dərəcəyə çatdı ki, adi bir insanı sonsuz, əbədi-əzəli Xaliq, Yaradan sandırlar! Və bununla kifayətlənməyərək, öz Allahlarının «ətini və qanını «çörək və şərab» şəklində dilləri arasında çeynəyir, onu həzm edərək çirkablığa qərq edirlər.

İlahi, ey Ulu Tanrı, mən sənin varlığına inanıram! Sənsə mənim bu səmimi naləmi eşit və qəbul et. Mənim dinsizliyim (hər hansı bir dinə qulluq etməməyim) Səni alçaltmır. Amma bu camaat səni təhqir edərək, düzgün tanımır. Mən xristian deyiləm! Çünki səni çox sevirəm. Və daim sevmək istəyirəm.» *(«Volterin külliyyatı», c. 26, səh. 292)*

İndi də onun tərəfdarları Untitarianistlər, İtaliya, Rumıniya, İsveç, Hollandiya, İngiltərə, Amerika, Macarıstan və sair ölkələrdə fəaliyyətdədirlər.[1]

1303-cü ildə «Papa» rütbəsinə malik VIII Boniface belə deyir: «Gülməlidir ki, bunlar Allahı həm üç və həm də bir sanırlar... Gülməlidir ki, «Allah insan surətində dünyaya gəlibdir» deyirlər.» *(«Mədəniyyətlər tarixi», c. 4, səh. 1098)* İtaliyalı Qabril Dasalo, Fransalı Kastalyun, Hollandiyalı D. Erasmus, İtaliyalı Cordana Bruno[2] və C. Vanini,[3] rusiyalı L. Tolstoy[4] və digər yüzlərlə alim «üç üqnum əqidəsi»nə qarşı çıxmış və onlardan bəziləri ağır işgəncələr altında canını tapşırmış, amma öz fikrindən əl götürməmişdir.[5]

İndiki azad fikirli xristian mütəfəkkirləri artıq «Allahın oğlu İsaya» yox, nümunəvi isan-peyğəmbər olan İsaya (ə) inanırlar.[6]

Alman alimi Nitsşe (1844-1900) «üç üqnum inancı»na etiraz səsini ucaltmaqla birgə, İsanın (ə) edam olunmadığını da təsdiqləyir. *(Nitsşe, «Yaxşı və pis», səh. 91)*[7]

Alman filosofu və ilahiyyatçısı Şlayxmaxer[8] (1768-1834) XIX əsrdə[9] və onun müasiri D. Kant[10] (1724-1804) bu inancın əleyhinə çıxmış[11] və İsa Məsihin (ə) yalnız ilahi peyğəmbər oluduğunu söyləmişlər. İsveç alimi Svidinbergi (Svedenborg[12]) (1688-1774) də bu cərgəyə aid etmək olar.[13]

---

1. İ. Mulent, «Xristian dünyası», səh. 309-313; F. Devid, M. Suzini, F. P. Suzini, C. Bedel, Milton, Nyuton və başqaları da təkallahlı olmuş, «üç üqnum əqidəsi»ni rədd etmiş və İsanı (ə) yalnız peyğəmbər saymışlar.
2. Cordano Bruno (1548-1600) italyan filosofu, sxolastik fəlsəfə və Roma katolik kilsəsi əleyhinə mübariz; 8 illik həbsdən sonra inkvizisiya tərəfindən Romada yandırılmışdır. («Fəlsəfi terminlər ensiklopediyası», tədqiqatçı qrupu, səh. 66)
3. Culio Cezare Vanini (1585-1619) italyan alimi, kilsəyə qarşı «hörmətsizlikdə, küfr»də müqəssir bilinərək Tuluza şəhərində diri-diri yandırılmışdır.
4. Lev Nikolayeviç Tolstoy (1828-1910) rus yazıçı və mütəfəkkiri.
5. «Mədəniyyətlər tarixi», c. 5, səh. 605; c. 6, səh. 348 və 575; «Elm fəlsəfəsi və tarixi», səh. 171; Keoi Velf «İncillərin mahiyyəti haqda», səh. 104-128
6. «Protestant ilahiyyatı», səh. 58-113«Elm fəlsəfəsi və tarixi», səh. 171; Keoi Velf «İncillərin mahiyyəti haqda», səh. 104-128
7. «Qərb fəlsəfəsi tarixi», c. 1, səh. 462
8. Fridrix Ernest Daniel Şleyermaxer (1768-1834) alman protestant teoloqu və filosofu.
9. «Fəlsəfə və məsihi əqidəsi», səh. 111-112
10. İmmanuil Kant (1724-1804) alman filosofu və alimi, klassik alman idealizminin banisi.
11. Həmin yer, səh. 102
12. Svedenbarq Emmanuel (1688-1772) isveç natrualist alimi.
13. «Xristian dünyası», səh. 290-292

XII əsrdə Fransanın cənubunda Albi vilayətində Albikenses adlı məsihi firqəsi yarandı. Onlar kilsənin ədalətsizliyinə və amansız zülmünə etirazla birgə,[1] «İncil» ləri başqa cür təfsir edir, «Üç üqnum əqidəsini» rədd edir və İsanı (ə) Allahın oğlu saymırdılar. 1208-ci ildən etibarən 20 il ərzində bir vilayət yerlə yeksan edildi. Papanın xüsusi canişini Arnauld uşaqdan tutmuş qocaya qədər hamını öldürməyi əmr etdi. Və amansız təftişlər Albikenses firqəsini yer üzündən sildi.[2]

Amma «üç üqnum əqidəsi» ətrafındakı ixtilaf və münaqişələr nəinki səngimədi, əksinə, daha da gücləndi. Bu hətta orta əsrlərdə də müşahidə olunur.[3]

XVII əsrin birinci yarısı çoxsaylı alimlər və tədqiqatçılar İsanın (ə) «Allahın oğlu» olmasını inkar etdilər.[4]

XVI əsrin sonu, XVII əsrin əvvəllərində Protestant məzhəbinin öz içində italiyalı xristian alim Sosinus (1549-1604) ki, sonradan onun fikirləri «Sosinianism» adı altında inkişaf etdi, «üç üqnum əqidəsini» rədd edərək, onu yunan fəlsəfəsinin qalıqları saydı. Məsihi «Allahın oğlu» yox, adi nümunəvi insan və peyğəmbər adlandırdı.[5]

İspaniyalı S. T. Mixail (1511-1553) 1531-ci ildə «Üç üqnum inancının səhifələri» adlı kitab yazaraq, bu inanca inamı rüsvay etdi. O belə əqidənin incildə öz əksini tapmadığını, İsanı«Allahın oğlu» adlandırmağın küfr və dinsizlik olduğunu yazdı.

Lakin M. Lüterin (1483-1546) davamçıları və Kalvin[6] tez bir zamanda onu kafir adlandıraraq, oda atıb diri-diri yandırdılar.[7]

---

1. «İncillərin mahiyyəti haqda», səh. 127-128
2. Həmin yer, səh. 128-129; «Mədəniyyətlər tarixi», c. 4, səh. 1037
3. Helzi Hal, Levis Vilyam, «Elm fəlsəfəsi və tarixi», səh. 135
4. «Mədəniyyətlər tarixi», c. 7, səh. 220
5. «Protestant ilahiyyatı», 34 səh; K. Braun. «Fəlsəfə və Məsihi əqidəsi», səh. 30; «The New Encyclopedia Britannica», 15 th editian. (32 vols)
6. Jan Kalvin (1509-1564) «Fransada Reformasiya xadimlərindən biri. 1536-ci ildə Cenevrəyə köçmüş və burada diktator olmuş (1541), dünyəvi hakimiyyətin kilsəyə tabe edilməsinə nail olmuşdur. O öz təlimləri ilə burjua sahibkarlığına haqq qazandırmışdır. Barışmaz protestant olan Kalvin öz hakimiyyəti dövründə bir çox alimləri, o cümlədən də, M. Serveti diri-diri oda ataraq, yandırmaq əmri vermişdir (1553). («Fəlsəfi terminlər ensiklopediyası», tədqiqatçı qrupu, səh. 213)
7. «Dinlərin ətraflı tarixi», səh. 680-681; «Mədəniyyətlər tarixi», c. 6, səh. 566; «Dünyanın hazırkı dinləri», səh. 361, Robert Hiyom

Yadda saxlamaq lazımdır ki, ümumiyyətlə «üç başlanğıc» inamı Assuriya və qədim Babilistan dinlərində də var idi. Dünyada yaranmış ilkin «üç başlanğıc» haqqındakı fikir isə günəşpərəstlərə aiddir. Bu əqidə «Hind-Avropa üçlüyü»nün bünövrəsini təşkil edir. «Veda» larda oxuyuruq:

«Günəşə iman bəsləyirik. O, bir Allahdır, hər şeyi idarə edəndir, yerin və göyün yaradanıdır. Onun yeganə, vahid, «oğlu» olan «Atəşə» iman bəsləyirik. O, nurdan bir nurdur. «Qeyri-məxluq»dan doğulmuş və mahiyyətcə «Ata» ya bərabərdir. O, «ruh» dan cəsəd şəkilində yaranmış, bakirə qızın bətinində yerləşmişdir.»

Burada maraqlı bir faktı da qeyd etmək yerinə düşərdi: «Nikeyya şurasında 300-ə yaxın biri-birindən fərqli «incil» əlyazmaları ortaya çıxdı. İncillərin hansının saxta, hansının həqiqət olmasını dəqiqləşdirmək Konstantinə o qədər ağır gəldi ki, olduqca gülünc bir qərar qəbul etdi: «Bütün incillər «mərkəzimizdə» yığılsın. Otağın qapısı kilidlənsin. Bütün gecəni «müqəddəs atalar» Allaha dua etsin ki, həqiqi incil mizin altından çıxıb, onun üstündə  qərar tutsun!» Elə belə də oldu.

Səhər açılanda, Pavelin əqidəsini dəstəkləyən incil - İskəndərin nümayəndəsi Asanasyusun gətirdiyi incil - mizin üzərində müşahidə olundu. Bununla da qalan bütün incillər zorla müsadirə olunaraq çox hissəsi yandırıldı, bəziləri isə arxivdə saxlanıldı. Amma heç kim Konstantinin qorxusundan soruşa bilmədi ki, otağın açarı gecə kimin yanında idi. Çünki əgər açar Konstantinin yanında olmuş olsaydı, sual edən, şübhəsiz padşaha qarşı böhtan və təhqir ittihamı ilə edam olunacaqdı.[1]

Lakin ixtilaflar səngiməd və 381-ci ildə Konstantiniyyə şurası təşkil olundu. Bu şura «Üç üqnum əqidəsi»ni təkmilləşdirərək onu təsdiqlədi. Belə ki, müqəddəs Ruhu da zatən Ata Allah və oğul Allah (İsa) ilə eyni məqamda sayaraq vahid bir zata məxsus olduğunu bəyan etdi.

«Üç üqnum əqidəsi»nin tərəfdarları və müxalifləri arasındakı münaqişələr, bununla sona yetmədi. Bu səbəbdən də, Koldson şurası (451-ci ildə) quruldu. Koldson şurası İsanın (ə) insan olduğuna etiraf etdi, eyni halda isə yenə onu Allahın oğlu saydı. Bu isə müxalifləri razı salmadı. 589-cu ildə Atanasyus şurası da çəkişmələrə son qoya bilmədi. Baxmayaraq ki, müqqəddəs Ruhun Allahla eyni xətadan olmadığını söylədi, amma bu «Üç üqnum əqidəsi»nə etiraz edənləri qane etmədi. *(«Dinlər tarixi», c. 3, səh. 771-768; «Qərb fəlsəfəsi tarixi», c. 1, səh. 471-472; «Protestant ilahiyyatı», səh. 17-20; «Mədəniyyətlər tarixi», səh. 633-636)*

---

1. “İsa (ə) İslam elçisi”, Doktor Əhməd Behişti, səh. 133

Qeyd etmək lazımdır ki, «üç üqnum əqidəsinə» inananlar və inanmayanlar arasındakı ixtilaflar o qədər şiddətli idi ki, din rəhbərlərindən əlavə, xalq, yəni hər qrupun tərəfdarlarının belə bir-birilərini görməyə gözü yox idi. *(«Qərb fəlsəfəsi tarixi», c. 1, səh. 625 və «Protestant[1] ilahiyyatı», c. 2, səh. 729-734)*

Nəhayət, ki, Konstantin həm din xadimlərinin, həm xalqın və həm də öz ailəsi daxilindəki qarşıdurmalardan bezdi.[2] Və çəkişmələrə «son qoymaq niyyəti ilə bir şura yaratdı». Sonradan «nikeyya» adlanan bu şura yaranmış ixtilaflara «vahid qərar»la son qoymalı idi. Konstantin isə özünü bitərəf göstərməyə çalışırdı. Çünki o nüfuzunu saxlamaqla, daha doğrusu, özünə düşmən qazanmamaqla birgə, arvadının və bacısının da tənələrindən qorxurdu.

Tarixi mənbələrə əsasən, Pavelin tərəfdarları Nikeyya şurasında, 325-ci ildə, məğlub olsalar da, şurada iştirak edənlərin əksəriyyəti «üç üqnum əqidə»sini təsdiqləməyə səs verdilər. Onu şuranın vahid əqidəsi kimi tanımağa imza atdılar. Buna səbəb isə, söylənilən əqidənin bütpərəst Konstantinin dininə olan hədsiz oxşarlığı idi. Bəyannaməyə diqqət etdikdə isə hər şey aydın olur: «Nikeyya məclisinin son qərarı:

1. (Roma bütpərəstlərinin müqəddəs saydığı) bazar günü, rəsmi dini tətil elan olunsun.[3]
2. (Günəş Allahının «doğulduğu» gün) 25 dekabr İsanın (ə) ad günü qərar verilsin.[4]
3. Günəş üzərində olan xaç müqəddəs sayılsın.[5]
4. «Üç üqnum əqidəsi» məsihiyyətin ana əqidəsi qərar verilsin.»

---

1. Protestantizm, (latın sözüdür, (protestans) etiraz edən», «açıq şəkildə sübut edən» mənasınadır) Katolisizm və pravoslavlıqdan sonra xristianlığın reformasiya dövründə meydana gəlmiş cərəyan. Protestantlar katolik məşhərini qəbul etmirlər. Bəzi müqəddəsləri, mələkləri və Məryəmi (ə) bir növ rədd edirlər. Protestantların təsəvvürünə görə insana firavanlıq, səadət Allahın köməyilə nəsib olur. Kilsədən yan keçməklə «nicat» yalnız insanın şəxsi etiqadı və Allahın iradəsi sayəsində əldə edilir. Onlar nəinki kilsəyə və ruhanilərə, eyni zamanda dini ayinlərə də ikinci dərəcəli yer ayırırlar. (Şəriət öz əhəmiyyətini itirmiş) ikonalara, quru cəsədlərə, təbərrüklərə sitayiş yoxdur. Skandinaviya ölkələrində Almaniya, İsveçrə, Böyük Britaniya, ABŞ, Kanada, Avstraliya və s. kimi ölkələrdə yayılmışdır.
2. Konstantin bütpərəst idi. Yelena (arvadı) Pavelçi və Konstantina (bacısı) Pavelin əleyhdarı idi.
3. Xristianlar əvvələr «cümə» gününü tətil sayırdılar.
4. Bəzi xristian məzhəbləri bu günün İsaya aid olmadığını söyləyirlər. Məs: Yeqova şahidləri. Onlar ümumiyyətlə üç üqnum əqidəsinə də inanmırlar.
5. Konstantin günəş Allahına ibadət edirdi.

Və birin üç olması və üçün bir olması heç bir ağıla sığmır. Bütün bu söylənilənlərdən məlum olur ki, İslam dininin bəyan etdiyi «tövhid» inancını bəşərin ağıl və təfəkkür sahibləri həmçinin, insanların daxilindən gələn hissləri təsdiqləyərək xristianların kor-koranə əqidə bəslədikləri «Üç Allahlıq» inancını əsassız və məntiqsiz sayır.

## Üç üqnum əqidəsinin qısa tarixi

Diqqət etmək lazımdır ki, Pavelin məktublarında «üç üqnum əqidəsi birbaşabəyan olunmasa da, onun İsanın «Allahın oğlu» sayması, «Fəda-qurtuluş» etiqadlı olması və onu ilahiləşdirməsindən xəbər verən risalələri», bu əqidənin yaranmasında əsaslı rol oynadı. Elə bu səbəbdən də o, üç üqnum əqidəsinin, banisi sayılır. Pavelin tərbiyə etdiyi kilsə rəhbərləri «üç üqnum əqidəsini» Məsihi dininin kökü və bünövrəsi adlandıraraq, buna inanmağı hamıya vacib saydı. «Üç üqnum əqidəsi»-nə inanmayanları isə təqib etməyə və cəzalandırmağa başladı.

İsanın (ə) həqiqi həvariləri onun təlimlərini olduğu kimi öz şagirdlərinə və tərəfdarlarına təbliğ edirdi. Onlar Pavelin uydurmalarına məhəl qoymadan İsanı (ə) «Allahın oğlu» saymır, «Fəda-qurtuluş» əqidəsinin batil olduğunu israrla vurğulayırdılar.

İş o yerə çatdı ki, İranaeyus[1] (130-200) 190-cı ildə şəxsən Papa Viktora məktub yazaraq, «üç üqnum əqidəsinə» inanmayanların qanını tökməyə son qoymasına çağırdı. O özü də bu əqidəyə inanmırdı.

Tertulyant (160-220), İrgen (180-254), Dyodros, Lusyan (312), Aryus[2] (250-336) kimi dövrünün görkəmli şəxsiyyətləri də «üç üqnum əqidəsinə» inanmamış və daim onunla mübarizə aparmış, hətta bu yolda şəhid olmuşlar.

Birinci əsrdə yaşayan çoxsaylı məsihi məzhəbləri, məsələn, Ebionites, Cerinthians, Basilidians, Carporatians, Hypisistarians və sair... «üç üqnum əqidəsinin» tam əleyhinə idilər.

---

1. Layunz məntəqəsinin baş keşişi.
2. Aryus, İskəndəriyyə şəhərindəki kilsənin rəhbəri idi. İsanın (ə) Allahın oğlu yox, peyğəmbər kimi tanıyırdı. Onun tərəfdarları da onun kimi Pavelin fikirlərinin əleyhinə idi. Arianizm firqəsi VI-VII əsrlərə qədər davam tapdı. Sonra isə şiddətli təqiblərə məruz qaldığı üçün məhvə uğradı.

Sədəqən gizli olsa, atan da sənə açıqca əvəzini verəcəkdir.[1] Gizlində atana (Allaha) dua et.[2] Çünki atanız[3] (cəm şəkilçisi)... İsa dedi: Ey göylərdə olan atanız...[4] (cəm şəkilçisi)

Səmavi atanız! (nəinki atam?!) Və həmçinin (*Matta, 6-cı fəs. 18 s, 6-cı fəs. 26 s, 7-ci fəs. 11 s. və s.)*

Gördüyünüz kimi, «Ata» ibarəsi Allaha məcazi mənada aid edilmişdir. İsa özünü də məcazən «Allahın oğlu» adlandırmışdır. Çünki o özünü və digərlərini Allahın yaradılmışı və bəndəsi sayır... Lakin məsihilər bu ibarələri öz həqiqi mənasında «mən», Tolstoy Nikolay oğlu» olduğu kimi işlədirlər! Mən bu müşriklərin sözlərindən Allaha pənah aparıram! Görən, bu azğınlıq və zəlalətin nişanəsi deyildirmi?! Bütün bunlar əbədi, əzəli, sonsuz, bənzərsiz və yeganə olan Allaha şərik qoşmaq deyildirmi?!» *(«L. N. Tolstoy, «İncilə müqəddimə», səh. 25)*

L. N. Tolstoyun sözlərinə diqqət etsək, görərik ki, bu alimin ümdə iradı xristianlığa, onların şirkə və bütpərstliyə (üç Allahlığa) üz gətirmələridir.

Deməli, Tövhiddən başqa əqidəyə inancın batil və əbəs olması təkcə islamın və müsəlman aləminin fikri deyil. Xristianlığı dərk edən və onun iç üzünü bilənlərdə bu məsələyə etiraf edirlər. Necə ki, xristian dünyasının böyük filosofu Volter yazır:

«Dünyada mövcud olan dinlər arasında təkcə İslam dini İlahi dininə bənzəyir. Məhəmmədin (s) yaydığı bu din sözsüz ki, xristianlıqdan olduqca üstündür. Çünki İslam heç bir yəhudi kişin (İsa (ə)) Allah və heç bir yəhudi qadını (Məryəm (ə)) Allahın anası (və həm də Allahın arvadı?!) sanmamışdır...

Məhəmmədin dini heç zaman Allaha küfr etməmiş, bir Allahı eyni halda üç bilməmişdir, onun dini məsihilərin düşündüyü kimi Allahı «Rəbbani gecədə» çeynəyib həzm edərək çirkablığa atmamışdır! *("İslam Volter baxımından", səh. 99)*

Təbiidir ki, üç Allahın bir və birin üç olması insanda ilk baxışda çaşqınlıq yaradır. Lakin azacıq diqqət etdikdən sonra bu əqidənin gülünc olması aydın olur. Ona görə ki, bir fərd yalnız bir və üç fərd yalnız üç olaraq qalır.

1. Matta, 6-cı fəs. 4
2. Matta, 6-cı fəs. 6
3. Matta, 6-cı fəs. 8
4. Matta, 6-cı fəs. səh. 8, 14-15-ci cüm.

M. Miller yazır: «Diqqət etmək lazımdır ki, kilsənin iddia etdiyinin tam əksinə olaraq, İsa (ə) özünü nə cismani, nə də ruhi cəhətdən «Allah» və «Allahın oğlu» adlandırmışdır. O özünü və başqalarını «oğul», Allahı isə «Ata» ona görə adlandırmışdır ki, hamı uca Yaradana bağlı və ona möhtacdır. Hamı Allahın «bəndəsi» olmaq - «Allahın oğlu» olmaq üçün çalışmalıdır.

Dar düşüncəli insanlar isə bunu başa düşməyərək və ya bilərəkdən, məcazi mənanı tullayaraq, onu həqiqi mənada işlətmişlər.» *(«Qədim kilsə tarixi», səh. 68)*

Millerin sözü, məntiqə olduqca uyğun gəlir. Çünki İsa (ə) «İncil»də hamını «Allahın övladı» sayır.

«Görün, Ata (Allah) bizə necə bir məhəbbət göstərmişdir ki, biz hamımız «Allahın övladları» adlanırıq. Sevimlilərim, indi biz Allahın övladlarıyıq.» *(Yəhya, 1-ci məktub, 3-cü fəs. 1-2-ci cüm.)*

«İsanın Məsih olduğuna iman gətirən hər kəs Allahdan doğulmuşdur.» *(Yəhya, 1 məktub, 5-ci fəs. 1-ci cüm.)*

«Allahdan doğulan kimsə günah işlətməz... Kimin Allahın övladı, kimin də şeytanın övladı olduğu bundan bəlli olur.» *(Yəhya, 1-ci məktub, 3-cü fəs. 9-10-cu cüm.)* Yuxarıdakı cümlələrə diqqət etdikdə, «oğul»un məcazi mənada olduğu gün kimi aydınlaşar.

Böyük rus yazıçısı, alim, Tolstoy bu barədə belə yazır: «Məsihilər» Allahın oğlu ibarəsini təkcə İsaya aid edərək, bu ləqəbi fəqət ona məxsus etdilər. Və başqa insanların bu adla çağrılmasına razı deyildilər. Bu ləqəb bütün bəşərə aiddir və təkcə müəyyən bir şəxsə məxsus deyildir! Bu, incildən həqiqi məlumatı olan hər kəsə gün tək aydındır.»

Bəli, incil deyir: «İsa dedi: Qoy sizin nurunuz insanların qarşısında elə parlasın ki, xeyirxah işlər görsünlər və göylərdəki atanıza həmd etsinlər.[1] Siz göylərdə olan atanızın oğulları olasınız.[2] Beləliklə, səmavi atanız (Allah) kamil olduğu kimi siz də kamil olun![3] Ehtiyatlı olun... Yoxsa səmavi atanızdan mükafat almazsınız![4]

---

1. Matta, 5-ci fəs. 16
2. Matta, 5-ci fəs. 45
3. Matta, 5-ci fəs. 48
4. Matta, 6-cı fəs. 1

Bu isə dininin kökünü və təməlini «tövhid»in təşkil verdiyi Quranın, Tanrıya qoyduğu ehtiramdır.[1] Diqqət yetirmək lazımdır ki, Əhdi-ətiqdə və İncildə «Allah», «Rəbb», «Allahın oğlu» kəlmələri də məcazi məna olaraq Musa (ə), Yusif (ə), Süleyman (ə), İsa (ə) və İsrail tayfası haqqında işlədilmişdir:

1. Allah Musaya dedi: «Bax, səni Firona Allah etdim və qardaşın Harunu sənə peyğəmbər qərar verdim.» *(Çıxış, 7-ci fəs. 1-ci cüm.)*
2. «Allah dedi: Süleymanı seçdim ki, mənim oğlum olsun və mən də, onun atası» *(Günlərin tarixi, 28-ci fəs. 6-cı cüm.)*
3. «Allah dedi: İsrail tayfası mənim oğlumdur.» *(Çıxış, 4-cü fəs. 22-ci cüm.)*
4. «Madam ki, mən Rəbb olduğum halda ayaqlarınızı yudum.» *(Yəhya, 13-cü fəs. 14-cü cüm.)*
5. İsa dedi: «Allahın oğluyam» dediyim üçünmü, Atanın təsdiq edib dünyaya göndərdiyi şəxsə, «küfr edirsən» deyirsiniz?» *(Yəhya, 10-cu fəs. 38-ci cüm.)*

Bütün bunlar həqiqi mənada deyil, «Allahın seçilmiş bəndəsi», «elçisi» və «peyğəmbəri» mənasınadır.

İsanın (ə) barəsində« İncil»lərdə işlənmiş «Rəbb», «oğul» sözləri də həqiqi mənada ola bilməz. Lakin dörd incilə artırılmış məktublar isə bəzən bu kəlmələri məcazi mənada deyil, öz həqiqi mənasında işlətmişdir. Elə bu səbəbdən də Yeni-Əhd sonrakı nəsillərin bu sahədəki əqidə inhirafına səbəb olmuşdur.

«İncil»lər İsanı (ə) bizə, yalnız insan övladı, «peyğəmbər» və «bəndə» kimi tanıtdırır və aşkarcasına bizi «tövhidə» səsləyir, «oğul», «rəbb» kəlmələri həqiqi məna ola bilməz. Bir baxın:

1. «Əmrlərin ən birincisi! Dinlə, ey Bəni-İsrail, Allahımız Rəbb, bir olan Rəbbdir!» («Allahımız» kəlməsinə diqqət edin.) *(Matta, 22-ci fəs. 34-40; Mark, 12-ci fəs. 29-30-cu cüm.; Luka, 10-cu fəs. 25-28-ci cüm.)*
2. «Allah dedi: «Budur, Mənim seçdiyim bəndə (İsa).»
3. «Bu, Qalileyanın Nazaret şəhərindən olan İsa peyğəmbərdir.» *(Matta, 21-ci fəs. 11-ci cüm.)*
4. «Kim İnsan oğlu İsaya qarşı...» *(Matta, 12-ci fəs. 32-ci cüm.)*
5. «İnsan oğlu (İsa) qeyb olmuşları axtarıb...» *(Luka, 19-cu fəs. 10-cu cüm.)*
6. «İsa dedi: «İndi insan oğlu (mən) izzətləndi.» *(Yəhya, 13-cü fəs. 31-ci cüm.)*

---

1. Kövsər\1; Qədr\1

Xristianlara gəldikdə isə İsanı «Allah», «Allahın oğlu» müraciətlərilə ilahiləşdirdikləri halda, onu insanlar tərəfindən çarmıxa çəkiləcək qədər acizləşdirirlər. Əslində belə bir əqidənin kökü təhrif olunmuş incillərə qayıdır. Çünki incillərdə həzrət İsanın (ə) özünün istəmədiyi halda və məcburi şəkildə asılıb çarmıxa çəkildiyini ifadə edən yerlər mövcuddur: «Allahım, Allahım! Məni niyə tərk etdin?» - deyə yüksək səslə çığırdı. *(Matta -27, 46)* Mattaya əsasən, İsa (ə) bu sözü çarmıxa çəkilmiş vəziyyətdə, ruhunu təslim etməmişdən bir az öncə söyləmişdir. *(Bax: Mark, 15, 34)*

Xristianların üç üqnum əqidəsini sübut etmək üçün istinad etdikləri başqa bir cümlənin *(Matta, 28, 19)* çox qədim nüsxələrdə olmaması və bu cümlənin sonradan incillərə əlavə edilməsi isə tədqiqatçılar tərəfindən açıq şəkildə bildirilmişdir. Bundan əlavə, belə ibarələr «Ata, Oğlu və Ruhul-Qüds...» Qurani-kərimin bir çox ayələrində «Allah, Onun Rəsulu və İlahi mələkləri...» kimi ibarələrlə zikr olunmuşdur. Halbuki, İslamın tövhidə olan həssasiyyətini və Allahdan başqa bir məbuda etiqadın batil olmasını Quranın səhifələrində açıq görmək olar. Deməli, üç ismin ardıcıl gəlməsi üç üqnum əqidəsini sabit etmir. Belə olsaydı, o zaman dörd, ya beş ismin ardıcıl səslənməsi dördlük, ya beşlik əqidəsini sabit edərdi. Doğrudan da, xristianların köklü inancları olan təslisi sübut etmələri üçün belə bir süst dəlillərə istinad etmələri bu dinin zəifliyini sübuta yetirir.

Xristian dünyasının iki məşhur elmi-dini ensiklopediyası «Üç üqnum əqidəsi»-nin Qədim-əhddə və İncildə mövcud olmadığını yazır. Və məsihilərin hər iki kitabda «üçlüyə» istinad etdiyi cümlələrin hamısının əsassız olduğunu bəyan edir.[1]

Henri Tesin «Məsihi ilahiyyatı» əsərində (88-ci səhifə) iddia edir ki, hətta indiki «üç üqnum əqidəsi»ni Pavelin və Yəhyanın yazılarından da ələ gətirmək qeyri-mümkündür.

Həmçinin, Qədim-Əhddə Allah barəsində danışılarkən cəm əvəzliyindən və cəm şəkilçilərindən istifadə olunması[2] birbaşa «üçlüyə» dəlalət edə bilməz. Çünki bu ədəbi dildə əks olunan ehtiram, hörmət mənasınadır. Biz Qurani-kərimə nəzər yetirdikdə orada da Allah barəsində cəm əvəzliyi və cəm şəkilçilərindən istifadə olunduğunu görürük.

---

1. ER. V. 15, P. 54 və ERE, V. 12, P. 458
2. Varlıq, 1-ci fəs. 26-cı cüm. 3-cü fəs, 22-ci cüm, 11-ci fəs. 7-ci cüm

Bundan əlavə, Allah-taalanın ata və İsanın (ə) onun həqiqi oğlu olmasıheç bir əqli-fəlsəfi və dini mətnlər ilə uyğun deyil. Fəlsəfi baxımdan Allah Məryəmi (ə) özünə qadın etmək nəticəsində İsanın (ə) dünyaya gəlməsi gülünc və məntiqdən çox-çox uzaqdır. Çünki Allah-taalanın maddi və cismani sifətlərdən uzaq və mənəvi kamilliyin tam zirvəsində olması fəlsəfə elminin əsasını təşkil edir. Bu elmdə, dünyanın bütün tanınmış filosofları tərəfindən sübuta yetirilmişdir ki, dünyanı yaradan cismi-maddi xüsusiyyətlərə malik deyildir. O hər şeydən ehtiyacsız, zaman-məkan məhdudiyyətlərindən xaric (zaman-məkan məfhumu təkcə cismani məxluqlara aid olunur. Allah üçün bunların heç birinin mənası yoxdur. Ona görə ki, Allahın Özü zaman-məkanı yaradır və onlara hökm edir) və hər yerə əhatəsi olan bölünməyən bir xaliqdir. Deməli, Allah-taaladan nəsə ayrılıb Məryəmin bətnində yerləşərək Həzrət İsanın dünyaya gəlmə xülyası əqli-fəlsəfi elmlə, əsasən, məhkum olunur.

Beləliklə, əgər «İncil» də gəlmiş «Sevgili oğlum» ibarəsinin həqiqətən də Allah-taala tərəfindən nazil olmasını fərz etsək, bu zaman «oğlum» sözünün məcazi mənada işlənilməsi aydın olur. Necə ki, yaşadığımız həyatda bu cür sözlərin müxtəlif insanlar tərəfindən dəfələrlə işlədilməsinin şahidi oluruq. Məsələn, müəllim öz şagirdini əzizləmək üçün ona «oğlum», «əziz balam» və s. bu kimi sözlərlə müraciət edir.

Dini mətnlərin başında duran və hər bir təhrifdən amanda qalan Qurani-kərim isə buyurur: «(Ey Məhəmməd, xalqa de:) Allah birdir. Allahın heç bir şeyə ehtiyacı yoxdur. Doğmayıb (heç kəsin atası ya anası deyil) və doğulmayıbdır (heç kimin övladı deyildir.) Onun bənzəri yoxdur.» *(«İxlas» surəsi)*

Allah-taala bu qısa surədə özünü xalqa, məxluqata, sözün əsl mənasında desək, Öz yaratdıqlarına belə tanıtdırır: - Allah birdir-vahiddir. Və heç bir şeyə - oğula, ataya və ya başqa bir Allaha ehtiyacı yoxdur. Kiminsə övladı olmaq və ya kiminsə atası, ya anası olmaq kimi sifətlər ona layiq sifətlər deyil. O yalnız tanrı və yaradandır. Onun misli-bərabəri yoxdur və heç kim onun kimi ola bilməz.

Bu surənin mənasından açıq-aydın şəkildə belə başa düşülür ki, İsa (ə) nə Allah, nə də Allahın oğlu ola bilər. Allahdan başqa nə varsa, hamısı Allahın məxluqatları və ona ehtiyaclıdırlar.

Amerikalı Draber «Elm və din» kitabında Roma hökumətinin ikiüzlü hakimiyyətlərinin vasitəsilə təslisin məsihiyyətə daxil olması haqqında belə yazır: «Konstantin məsihi olsa da, əxlaqi və mənəvi rəzilliklərin ucbatından xristianlıq adı altında bütpərəstlik dini meydana çıxartdı.»

Məsihiyyət dini əslində acınacaqlı bir dindir. Təmiz və şərif formada ilahi tərəfindən nazil olmuş məsihiyyətdən indi heç bir əsər-əlamət qalmamışdır. Həzrət Məryəm (ə) və Həzrəti İsanı (ə) heç bir vaxt «Mən Allaham», «mən Allahın oğluyam» (arvadıyam) və yaxud «Ruhul-Qüds Allahdır» deməyib, əksinə, insanları həmişə «vahid Allaha» doğru çağırmalarının qarşısında insanların təslimə yönəlmələri, sizcə, acınacaqlı deyilmi?

V. M. Miller xristianlığın sanki, bütpərəstlərin əlilə oyuncağa çevrilməsini belə açıqlayır: «Dördüncü əsrdə bütpərəstlərin bir çoxu kilsəyə daxil oldu. Mənfəət və şöhrətə görə xristian olan bəziləri öz bütpərəst əqidələrini, Məryəmə (ə) və xristian şəhidlərinin qəbirlərinə ibadət etməklə təcəssüm etdirirdilər. Bütpərəst ideyalarını məsihiyyətdə əks etdirən bir çoxları hətta «xaç asmaqla» bütpərəstliyə aid olan şər ruhlardan amanda qalacaqlarını güman edirdilər.

Əslində xristianların etiqad bəslədiyi təslis inancına, hətta, təhrif olunmuş incillərdə də rast gəlmək olmur. Lakin onlar boyunlarına düşmüş üç üqnum əqidəsini sübuta yetirmək üçün müqəddəs kitabın iki cümləsinə istinad edirlər:

1- «İsa vəftiz[1] olunub o an sudan çıxdı. Və bu zaman göylər açıldı. Allahın ruhunun göyərçin kimi enib üzərinə gəldiyini gördü və bu an göylərdən bir səs gəldi: sevgili oğlum budur, ondan razıyam.» *(Matta, 3, 16-17)*
2- «İndi siz gedib bütün millətləri şagird edin, onları ata, oğul və Ruhul-Qüds ismi (adı) ilə vəftiz edin. Sizə əmr etdiyim hər şeyi onlara öyrədin.» *(Matta, 28, 19*)

Doğurdan da, bu mətnlərdən üç tanrı və ya üç formaya düşmüş bir tanrı mənası çıxarmaq heç bir məntiqə uyğun deyil.
Birinci cümlədəki «sevgili oğlum» ibarəsi İsanın (ə) İlahi məqamına yox, əksinə, onun oğulluq sifətinə dəlalət edir. Kiminsə oğlu olmaq onun kimi olmaq demək deyil. Məsələn, həkimin oğlu olmaq həkim olmaq demək deyil. Həmçinin, müəllimin oğluna müəllim demirlər. Hər kəsi öz ləyaqətinə görə səsləyirlər.

---

1. Özünü Allaha həsr etmək üçün bütün bədənin suya batmasına vəftiz deyilir.

1. -Allah qorxur. O qorxur ki, Adəm (ə) «əbədi yaşayışa» sahib ola bilər və bunu Özü üçün təhlükə sayır.[1]
2. 4-Allah adi insanlar kimi, az elmli və qeyb-aləmindən xəbərsizdir. Belə ki, O bağı gəzərək Adəmi (ə) axtarır, onlardan harada olduqlarını soruşur və yalnız Adəmin (ə) «utandıq» cavabından sonra onun meyvəni yediyini anlayır.[2]
3. 5-Allah sadə insanlar kimi cisim və məhdudiyyətli maddi xüsusiyyətlərə malikdir. O, sübh çağı bağda xumarlı halda gəzirmiş...

Üzləşdiyimiz belə ziddiyyətlər bir vaxtlar ilahi vəhy olmuş «Müqəddəs kitabın» illər keçdikcə təhrif olunaraq, əsaslı dəyişikliklərə uğradığından xəbər verir. Allahın öz yaratdığı bəndəsinə məğlub olması, qorxması, yalan danışması, simiclik etməsi, heç bir məntiq və ağıl çərçivəsinə sığmır. Bütün yaratdıqlarına kamillik, qüdrət və elm bəxş etmiş Uca Tanrının, özünün onlardan aciz olması necə də gülüncdür. Əgər belədirsə, Böyük Xaliq onlara söylənilən kamilliyi hansı «elm və qüdrət» sayəsində bağışlamışdı?

Həmçinin, mütləq kamilliyin, qeyri-məhdud elmin, qüdrətin sahibi əbədi və əzəli Allahı maddi xüsusiyyətlər dairəsində məhdudlaşdırmaq, həqiqətdə, Onu kiçiltmək və alçaltmaq deməkdir. Allah cism deyil, maddi varlıq deyil. O, təsvirəgəlməz bir vücuddur. O, hüdudsuz, nəhayətsiz və sonsuz kamilliyin özüdür. Deməli, Alllahı maddi varlıq kimi təsəvvür etmək böyük səhv olardı. Bibliyadan fərqli olaraq Qurani-kərimin Allah-təala barəsində söylədiyi fikirlərə əsaslanaraq tam qətiyyətlə demək olar ki, bu din monoteizmin ən yüksək zirvəsində durur.

Xristianlığın təməl kitabı olan, əslində tarixi istinadlar, fəlsəfi düşüncələr və Qurani-kərim tərəfindən təhrif edildiyi bildirilən incillərdə belə sağlam və anlaşılan təslis inancına rast gəlmək olmur.

Qurani-kərim isə, Allahı uca sifətlər ilə, heç bir məxluqa bənzəməyən misilsiz bir məbud kimi tanıtdırmışdır. Deməli, bütün səmavi kitablar ilə zidd və heç bir əsası olmayan təslis inancı xristianlığın təhrif olunması, küfr və bütpərəstlik ilə aludələşməsindən xəbər verir.

---

1. Varlıq, 2-ci fəs. 22-ci cüm
2. Varlıq, 3-cü fəs. 9-cu cüm

## ARAŞDIRMA

Birinci dərsdə söylənildiyi kimi, Bibliyaya diqqət yetirdikdə, orada bəzi cümlələrdə Allahı vahid, əzəli, əbədi, qadir, sifət və zatda bənzərsiz, gözəgörünməz, ədalətli, alim, küll-ixtiyar sahibi kimi təsvir etdiyinin şahidi olarıq. Diqqət etmək lazımdır ki, yəhudilərin müqəddəs saydıqları başqa kitablarda da, Allah-təalanın daha uca və ali xüsusiyyətlərlə vəsf edilməsi inkar edilməzdir. Zəbur Allahın insanların hər bir işindən xəbərdar olması, onların oturuşu-duruşlarını bildiyini, fikirlərimi uzaqdan duyurduğunu söyləyir. Bəndələrin yetməyinə, yatmağıma nəzarət etdiyini deyir. Belə ki, Allah onların hansı yollardan keçdiyimi bilir.

Sözlərini dilə gətirməmişdən əvvəl, hamısına tamamilə agahdır. Allah hər tərəfdən bəndələrini əhatə etmişdir. Onun elmi əsrarəngizdir, çox yüksəkdir. Bəndə harada olursa olsun, Allahın hüzurundadır. Onun elm və qüdrəti dairəsindədir. Belə ki Zəburda oxuyuruq: "İlahi, nurun, zülmətin Sənin üçün nə fərqi var? Sən mənim daxili üzvlərimi yaratmısan, Mənə ana bətnində quruluş vermisən. Sən məni ecazkar, əsrarəngiz yolla yaratmısan, Ona görə şükür edirəm... Mən gizli bir yerdə yaranarkən, Dünyanın dərin yerində yaranarkən Bədənim Səndən gizli qalmadı. Dünyaya gəlməzdən əvvəl Sənin gözlərin məni gördü. Ömrüm başlamazdan əvvəl Mənə təyin etdiyin hər bir günü kitabına yazmısan." [1]

Lakin həmin müqəddəs kitablarda Allah-təala insandan da aciz və qüsurli formada təsvir edilir. Bu da, həmin müqəddəs kitabların zaman keçdikcə qismən təhrifə uğramasından xəbər verir. Bibliyada «Allah»ın yalan danışmağı, paxıllıq etməyi, naqis, elmsiz və qorxaq bir varlıq olması, dolayısı yolla da olsa təlqin olunur. Bunun üçün təkcə Adəm və Həvvanın qadağan olunmuş meyvəni yedikləri zaman baş verən əhvalatlara diqqət etməyimiz kifayətdir. Həmin hadisədən aşağıdakı nəticələri almaq olar:

1. 1-Allah yalan danışır. Çünki Adəm (ə) meyvəni yeyəndən sonra ölmədi. Allah ona öləcəyini demişdi.[2]
2. 2-Allah paxıllıq edir. Çünki istəmir Adəm (ə) də elmli, xeyri-şəri başa düşən olsun.[3]

---

1. Məzmur, 139:1-20
2. Varlıq, 2-ci fəs. 17-ci cüm
3. Varlıq, 3-cü fəs. 22-ci cüm

(Həqiqətdə insan öz Allahının cəlal və camal sifətlərindən agah olmaq imkanına malikdir. Hətta, təbiətin özü də, bizə Allahı tanımada gözəl yardımçıdır. Biz təbiətə baxdıqda Allahın qüdrətini, əzəmətini, ədalətini, gözəlliyini və s. dərk edirik.)

Əgər biz Allahı heç bir şəkildə tanıya bilməsək, onun xüsusiyyətlərindən, sifətlərindən xəbərdar olmasaq, ilahi mərifəti yolunda yalnız bir neçə mənasız sözlərə kifayət etməli olacağıq. Bu isə ilahi mərifətinin tətil olması deməkdir. Və qəbul olunası mümkün olmayan bir əqidədir. Çünki Qurani-Kərim və digər səmavi kitablar məhz ilahi mərifətini bəyan etmək üçün (Allahı tanıtmaq məqsədilə) nazil olmuşdur.

Bu barədə çoxlu oxşar misallar gətirmək olar. Məsələn; Biz «ruhun» həqiqətini olduğu kimi anlaya bilmərik. Lakin eyni halda onun xüsusiyyətlərindən xəbərdarıq. Və onun əsərlərini (təsirlərini) müşahidə edərək çox yaxşı anlayırıq İmam Baqir (ə) özünün bir hədisində buyurur:

«Allah barəsində (Onun həqiqəti barəsində) öz fikir və xəyallarınızla ən dəqiq mənada və şəkildə etdiyiniz təsəvvürlər, yalnız sizin ağlınızın yaratdıqlarıdır (Yəni həqiqət deyildir). Və sizin özünüz kimi naqis və məhduddur. (Allah-Taalanın həqiqəti bu xəyallardan daha uca və üstündür («Biharul-ənvar» c- 66, səh 293)

Həzrət Əli (ə)-dan nəql edilən başqa bir hədisdə ilahi mərifəti ən gözəl və aydın təbirlərlə bəyan olunmuşdur: «Allah-Taala ağılları öz sifətlərinin (və zatının) hüdudlarından (həqiqətlərindən) agah etməmişdir. Və amma eyni halda onları lazım olan miqdarda anlayışdan və mərifətdən məhrum da, etməmişdir. (Ğurərul - hikəm)

## 10 – Tətil[1] və təşbihin[2] yanlış olması

İlahi mərifətində ağlın qüvvədən salınması olmadığı kimi, «təşbih» də, düzgün deyildir. Allahı, bəndələrinə oxşatmaq, bəndənin - məxluqatın sifətlərini Ona nisbət vermək doğru deyildir. Eləcə də, Allahı tanıma yolunda insan ağlının tamamilə aciz və tətil olması da, qeyri-səhihdir. Bunların biri təfrit, digəri isə ifrata varmaq deməkdir.

---

1. Ağlın qüvvədən salınması
2. Allahı, Onun bəndəsinə oxşatmaq

## Tövhid və möcüzələr

İlahi peyğəmbərlərin əncam verdikləri bütün xariqüladə işlər və möcüzələr (ölü diriltmək, anadangəlmə koru sağaltmaq və s.) yalnız Allahın icazəsi, iznilə baş tutur. Bu möcüzələrin Tövhidi - əfali ilə heç bir ziddiyyəti yoxdur. Necə ki, Qurani-Kərim İsa (ə)-a buyurur: «Anadangəlmə kora və (əlacı mümkün olmayan) alaca xəstəliyinə tutulmuşa mənim iznimlə şəfa verirdin. Və ölüləri mənim əmrimlə dirildirdin.» (Maidə, 110)

Süleyman (ə)-ın vəzirlərindən biri barəsində Qurani-Kərimdə belə buyurulur: "İlahi kitabından bir az elmi bəhrəsi olan şəxs dedi: Sən gözünü qırpmamışdan öncə mən onu sənin yanına gətirərəm. Süleyman (ə) taxtı öz yanında görcək dedi: Bu, Tanrımın mərhəmətindəndir." (Nəml, 40)

Beləliklə, Quran aşkar şəkildə əlacı mümkün olmayan xəstələrə şəfa vermək, ölüləri diriltmək və s. bu kimi möcüzələri, yalnız Allahın izninə bağlayır. Bu, Tövhidlə ziddiyyət daşımayaraq, əslində onun eynidir.

## Allahın pak zatının həqiqəti hər bir kəsə məxfidir

Allahın vücudunun, varlığının əsərləri bütün dünyanı əhatə etmişdir. Əvvəldə söylədiyimiz kimi, hər bir yaranmışın vücudu, bizə ulu, qadir, və əzəmətli Yaradanın varlığından söz açır. Lakin bununla belə Allahın zatının həqiqəti (Onun necə olduğu) heç bir kəsə məlum deyildir. İnsan Allahın pak zatını dərk edərək, Onu olduğu kimi anlaya, təsəvvür edə bilməz. Çünki O, hər bir cəhətdən naməhdud, intəhasız və hüdudsuzdur. Amma biz insanlar məhdud, sonlu və hüdud çərçivəsində məhdudlaşan məxluqlarıq. Bizim məhdud və müəyyən bir dairədə (zaman və məkan qeydinə bağlı olan) elmimiz, hər bir cəhətdən naməhdud sonsuz olan Uca Yaradanı dərk etmək qüvvəsinə qadir deyildir. (Məhdud bir varlığın naməhdud, sonsuz olan Uca Yaradanı hər hansı bir cəhətdən əhatə etməsi qeyri-mümkündür.)

Qurani-Kərim buyurur: «Agah olun! Onun hər bir şeyə əhatəsi vardır.» (Fussilət, 54) Yaxud: «Allah onların hamısını (hər tərəfdən) əhatə edibdir.» (Buruc, 20)

Məhəmməd Peyğəmbərin (s) tanınmış bir hədisində oxuyuruq: «İlahi, biz Səni pak zatına layiq şəkildə ibadət edə bilmədik. Səni olduğun kimi (həqiqətini) tanıya bilmədik.» (Biharul-ənvar 68 c, səh-23)

Lakin bütün bu söylədiklərimiz, o mənaya deyildir ki, biz Allahı heç bir formada taniya bilmərik.

Azad iradə sahibi olmayan, yalnız vasitə-alət rolunu oynayan insanın icbarən gördüyü işlər onun yaxşı və pis olmasına heç bir şəkildə dəlalət edə bilməz.

Əslində əgər biz insanlar, öz əməllərimizi əncam verməkdə məcbur olsaydıq, peyğəmbərlərin gəlişi, müqəddəs kitabların göndərilməsi və həmçinin dini hökmlər, təlim-tərbiyə və s. puç və mənasız bir iş olardı. Cənnət-Cəhənnəm, cəza və mükafat mənasız bir iş sayılardı. Bu bizim Əhli-Beyt (ə)-dan öyrəndiyimiz bir əqidədir; «İnsanın əməllərində mütləq şəkildə icbar yoxdur. Həmçinin, insanın öz əncam verdiyi işlərdə tam azad olduğu (Allaha heç bir ehtiyacı olmamağı) səhv bir əqidədir. Həqiqətən bu iki əqidənin arasında mötədillik; «Nə icbar, nə sırf azadlıq doğru deyildir. İnsan Allaha ehtiyaclı olaraq öz işlərində azad iradəyə malikdir.»

## 4. Tövhide - ibadi:

İbadətdə Tövhid, yəni ibadət fəqət Allaha məxsusdur. Ondan qeyri bir varlıq ibadət olunmağa layiq deyildir. Yalnız Allaha ibadət edərək, yalnız Onu ibadətə layiq saymaq, Tövhide- ibadi adlanır. Tövhidin bu qismi onun digər bölümlərindən ən əhəmiyyətlisidir. Belə ki, ilahi peyğəmbərlər hamısı daha çox ibadətdə olan Tövhidə təkid etmişlər. Və insanları yalnız və yalnız bir olan Allaha ibadət etməyə səsləmişlər. Qurani-Kərim buyurur: «Onlara, yalnız Allaha ibadət etmək əmr olundu. Və öz dinlərini fəqət Allaha ibadət etməklə xilas etmək (şirkdən Tövhidə qayıtmaq) tapşırıldı. Və budur doğru-düzgün din.» (Bəyyinə, 5)

İnsan övladı ürfan və əxlaqi kamilliyin mərhələlərini keçərək, mənəvi cəhətdən daha uca məqamlara yüksəlmək istədikdə, «Tövhid məsələsi»daha çox mürəkkəbləşir. Elə bir dərəcədə ki, insan Allaha könül bağlayaraq hər bir məkanda onun razılığını düşünür. Onun razılığından qeyri heç bir şeyin barəsində fikirləşmir. Allahdan başqa bir varlıq onun diqqətini cəlb etmir. Başqa bir ibarətlə desək; «Allahdan başqa sənin diqqətini cəlb edən, sənin bütündür.» dərəcəsinə yetişir.

Əziz oxucu, Tövhidin qisimləri bu dörd bölümlə məhdudlaşmır: Bunlardan başqa, digər bölümləri də, qeyd etmək olar: «Malikiyyətdə Tövhid,» yəni; hər bir şeyin həqiqi maliki Allahdır (Bəqərə, 284). Hakimiyyətdə Tövhid: həqiqi hakim və hökm edən yalnız Allahdır. Hökm yalnız ona məxsusdur. (Maidə, 44)

## 2. Tövhide - sifati (sifətlərdə Tövhid):

Tövhide-sifati budur ki, Allah-Taala bütün kamal sifətlərinə malikdir. Allahın elm, qüdrət, əbədiyyət, və s. bu kimi sifətləri (xüsusiyyətləri) hamısı Onun Pak Zatında cəmlənmişdir. Və bu xüsusiyyətlər Onun vahid, bölünməz və bir olan zatının eynidir. Məxluqatın sifətləri isə bir-birindən ayrı olmaqla bərabər, onların zatından da, ayrıdır. Allahın sifətləri isə belə deyildir. Əlbəttə, «Allahın sifətləri ilə Onun zatının eyni olması bəhsini» daha yaxşı anlamaq (üçün bir sıra elmi və fəlsəfi zərifliklərə diqqət etmək lazımdır) xüsusi incəliklə düşünmək və diqqət tələb edir.

## 3. Tövhide - əfali (fellərdə Tövhid):

Dünyada baş verən hər iş, hərəkət və hər bir varlığın təsiredici qüvvəsi Allah-Taalanın iradəsinə bağlıdır. Və Onun iradəsindən çeşmələnir. Qurani-Kərim buyurur: «Allah-Taala hər bir şeyin yaradanıdır və bütün varlıqlara nəzarət edən Odur!» (Zumər, 62) Yaxud başqa bir ayədə buyurulur: «Göylərin və yerin açarları Ona məxsusdur. (Bütün işlər Onun qüdrətinə bağlıdır.)» (Şura, 12)

Bəli, Allahdan qeyri heç bir təsir qoyan qüvvə yoxdur! Lakin bu bizim işlərimizdə, əncam verdiyimiz əməllərimizdə məcbur olmağımız mənasında deyildir. Hər bir insan öz əməllərini əncam verməkdə və qərar qəbul etməkdə azaddır. Necə ki, Qurani-Kərim buyurur: «Biz insana doğru yolu nişan verdik. İstər şükür etsin, istərsə də küfr etsin!» (İnsan, 3) Yaxud; «Və gerçəkdə insan üçün öz səyindən başqa mükafat yoxdur.» (Nəcm, 39)

Qeyd olunan ayələr aşkarcasına bəyan edir ki, insan azad iradəyə malikdir. Lakin bu azad iradəni və qüdrəti ona öz Rəbbi vermişdir. İnsanın bütün işləri Allahın ona bəxş etdiyi iradə və bacarıq vasitəsi ilə baş tutur. Deməli, bizim əməllərimiz Allaha istinad olunaraq bir növ, həqiqətdə ona bağlıdır. Və bu bağlılıq bizim əməllərimizə görə daşıdığımız məsuliyyəti heç də azaltmır.

Əziz oxucu, Allah iradə etmişdir ki, biz öz əməllərimizi azad ixtiyara malik olaraq əncam verək və bu vasitə ilə, Allah-Taala, insanları imtahana çəkərək onları «mənəvi təkamül» yolunda ucaltmaq istəmişdir. Çünki yalnız azad iradəyə malik olan insan, öz ixtiyarı ilə Tanrıya itaət etdikdə, İlahi kamilliyə ucala bilər. Əgər Allah insanı heç bir ixtiyara və azad iradəyə sahib etməsə və onu öz əməllərində məcbur edərsə, insanın əməlləri heç bir dəyərə malik olmayacaqdır.

## Tövhid, bütün İslam təlimlərinin ruhu və əsası kimi

İslam dininin təlimlərinə görə, ilahi mərifəti barəsində olan məsələlərin ən əhəmiyyətlisi və əsası, tövhidi (Allahın hər bir cəhətdən yeganəliyini) olduğu kimi tanımaq və anlamaqdır. Həqiqətdə, Tövhid, yalnız dinin əsaslarının biri kimi deyil, əksinə bütöv islam əqidələrinin bünövrəsi, kökü və dayaq nöqtəsi deməkdir. İslam dininin əsasları və fərləri[1] Tövhidə bağlı olaraq, onunla formalaşır.

Dinimizin hər bir bölməsi bir növ Tövhidlə, Allahın yeganəliyilə sıx bağlıdır. Allahın pak zatının vəhdəti və misilsiz olması, Allahın sifətlərinin və fellərinin bir olması Tövhidə əsaslanır. İlahi peyğəmbərlərinin bir Allaha doğru çağırışları ilahi dininin və ayinlərinin bir olması, müsəlmanların qibləsinin, həmçinin Müqəddəs kitabımızın bir olması, ilahi qanunvericiliyinin və hökmlərin bəşər övladları üçün vəhdəti, Qiyamət gününə olan etiqadın birliyi də, Tövhiddən xəbər verir.

Elə buna görə də, Qurani-Kərim ilahi Tövhiddən uzaq düşmək və şirkə doğru meyl etməyi bağışlanılmayan günah sayaraq buyurur: «Allah-Taala heç vaxt ona şərik qoşmağı bağışlamaz. İstədiyi kimsənin (bundan savayı) başqa günahlarını (əgər layiqli bilsə) bağışlayar. Allaha şərik qoşan şəxs yalan uydurmuş və böyük günah etmişdir.» (Nisa, 48)

Başqa bir ayədə buyurulur: «Sənə və səndən əvvəlki bütün peyğəmbərlərə vəhy olunmuşdur ki, əgər müşrik olsanız, əməllərinizin hamısı hədər olacaqdır. Və əlbəttə, ziyankarlardan olacaqsınız.» (Zumər, 65)

## Tövhid və onun mərtəbələri

Tövhid bir neçə qismə ayrılır ki, sizə təqdim etdiyimiz bu dörd qisim, onların ən əhəmiyyətlisidir.

### 1. Tövhide - zati:

Allahın Pak Zatı tək və yeganədir. Heç bir varlıq Ona oxşamaz. O, şəriksiz və misilsiz bir Allahdır.[2]

---

1. Əməli əsasları.
2. Üsuli- kafi, c. 1, s. 160. (Babul-cəbr vəl-qədər)

Allah-Taala isə öz yaratdığı məxluqların maddi xüsusiyyətlərindən uzaq və pakdır. (Çünki məxluqatın malik olduğu bu sifətlər, birbaşa onların naqis və öz məkan, zaman, forma və rənglərinə ehtiyaclı olduğunu yetirir. Allah-Taala isə hər növ miqyas və ölçüdən uzaqdır, ehtiyacsızdır.)

Deməli, Allah-Taalanı görməyə, müşahidə etməyə olan etiqad, bir növ şirkə düçar olmaq deməkdir. Qurani-Kərim buyurur: «Gözlər Onu görməz. Lakin O, bütün gözləri görür. O, bağışlayan və mehribandır.» (Ənam, 103)

Məhz elə buna görə də, Bəni-İsrail qövminin bəhanə axtaran başbilənləri Musa (ə)-a Allahı görmək istədiklərini bildirdilər. Və ondan Allahı onlara göstərməsini tələb etdilər; «Əgər Allahı aşkar olaraq görməsək, sənə iman gətirməyəcəyik!» (Bəqərə, 55) Musa (ə) onları Tur dağına apardı və onların tələblərini Allaha söylədi.

Allah-Taala isə onlara belə cavab verdi: «Əsla (heç vaxt) məni görə bilməyəcəksən! O dağa bax. Əgər o, yerində salim qalarsa, sən də, məni görəcəksən. Sonra Rəbbi dağa təcəlli edib, onu yerlə-yeksan etdi. Musa bayılıb yerə düşdü. O, özünə gələrkən dedi: «Ey Tanrım, Sən gözlə görülməkdən uzaq və paksan! Sənə tərəf qayıtdım (tövbə etdim). Mən iman gətirənlərin ilkiyəm.» (Əraf, 143).

Bütün bunlar Allahın gözlə görülməsinin qeyri-mümkünlüyünə bir dəlildir. Deməli, əgər bəzi ayələrdə və islami rəvayətlərdə «Allahı görməkdən» söhbət olunursa da, bundan məqsəd Allah-Taalanı batini gözlə görməkdir. Onu qəlbən «görüb» dərk etməkdir.[1]

Belə ki, bir nəfər Həzrət Əli (ə)-dan soruşur: Ey möminlərin ağası, söylə görüm, heç öz Allahını görmüsənmi? İmam Əli (ə) belə cavab verir: Görmədiyim varlığamı ibadət edim? (Yəni mən görmədiyim varlığa ibadət etmərəm.) Sonra isə buyurur: Əsla Onu gözlər görməz, müşahidə edə bilməz. Amma qəlblər Onu iman gücü ilə dərk edər.[2]

Peyğəmbərin (s) Əhli-beytinin (ə) bizə təlim verdiyi kəlamlara əsasən, məxluqatın xüsusiyyətlərini (məkan, zaman, cismilik, gözlə görülmək, forma, quruluş və s.) Allaha nisbət vermək, bir daha Onu düzgün tanımadığımızdan xəbər verir. O, bütün varlıqlardan və onlara nisbət verilən sifətlərdən uca və pakdır. Heç bir varlıq Ona bənzəməyir. O, bənzərsiz bir xaliqdir.

---

1. Çünki Quranın bəzi ayələri digərlərini şərh edərək aydınlaşdırır. Quranı dərk etmək üçün təkcə bir ayəni deyil, onu bütünlüklə nəzərdə alaraq nəticəyə gəlmək lazımdır.
2. Nəhcul-bəlağə, 179-cu xütbə

Elə bu səbəbdən də, zaman və məkan məhdudəsinə sığmazdır. Çünki zaman və məkan Onunla müqayisə olunmaz dərəcədə məhdud, naqis və təsəvvür olunma qabiliyyətinə malik deyildir.

Allah-Taala zaman və məkanı yaradan, ona hökm edəndir. Bununla belə O, eyni halda (zamana və məkana ehtiyacı olmadan) hər bir yerdə və zamanda mövcuddur. Çünki zaman və məkanı əhatə edərək, bunlardan daha uca və yüksəkdir. Qurani-Kərim buyurur: «O, həm yerdə Allahdır, həm də, göydə Allahdır (məbuddur). Hikmətli və bilicidir.» (Zuxruf, 84) Yaxud buyurulur: «Hər bir yerdə olsanız, O, daim sizinlədir. Allah əncam verdiyiniz hər bir işi görür.» (Hədid, 4)

Dinimizə görə, Uca Tanrı bizə bizim özümüzdən də, yaxındır. O, daim bizimlədir. Bizim fitrətimizdədir. O, məkana, zamana ehtiyacı olmadığı halda, hər bir yerdədir. (Ağıllar bu həqiqəti olduğu kimi dərk etməkdən acizdir.) Necə ki, Qurani-Kərim buyurur: «Biz (Allah), insana onun şah damarından da, yaxınıq.» (Qaf, 16)

Beləliklə, əgər biz Qurani-Kərimdə: «Odur şərəfli ərşin sahibi.» və ya; «Mehriban Allah ərşin üzərində qərar tutubdur.» (Buruc, 15, Taha, 5) kimi ayələrə rast gəliriksə də, bu o demək deyildir ki, Allahın ərş adında xüsusi bir məkanı (taxtı) vardır və orada qalır. Əksinə «ərş»-dən məqsəd Allahın sonsuz və naməhdud hakimiyyətidir.

Yəni Allahın nəhayətsiz qüdrət və hakimiyyəti bütün maddi cahanı və mənəvi aləmləri əhatə etmişdir. Əgər biz, Allah-Taalanın xüsusi bir məkanda yerləşdiyini söyləsək, həqiqətdə, Onu məhdud bir varlıq saymış olarıq. Allaha məxluqatın xüsusiyyətlərini nisbət verməklə, Uca Tanrını kiçiltmiş və məhdud etmiş olarıq. Bir halda ki, Qurani-Kərim buyurur: «Hec nə Ona tay ola bilməz.» (Şura, 11) yaxud, İsra surəsində 4-cü ayə; «Heç bir kəs Ona tay ola bilməz.»

## Allah cisim olmaması və gözlə görülməzliyi

Dinimizə görə, Allah-Taala heç bir vaxt gözlə görülməz. Çünki gözlə görülmək cismin xüsusiyyətlərindəndir. Gözlə görülən hər bir varlıq, məkan və zaman hüdudlarında qərarlaşmalı, müəyyən bir rəngə və surətə malik olmalıdır. Bütün bu xüsusiyyətlər Allahın yaratdığı cisimlərə, varlıqlara məxsus olan xüsusiyyətlərdir.

İslam dinində Allah-Taalanın bütün varlıqları yaratdığına və başqa sözlə desək, Onun varlıq dünyasının yaradanı olduğuna inanılır. Onun Əzəməti, Elmi və Qüdrətinin əsərləri dünyanın bütün varlıqlarında aşkar olmuşdur. Uca Yaradanın əzəməti, elmi və qüdrəti bəndələrinin vücudunda (həmçinin fitrətində), canlılar və bitkilər aləmində, səmanın bitib - tükənməyən ulduzlarında və daha yüksək aləmlərdə, bir sözlə hər yerdə aşkardır.

Belə ki, gördüyümüz bu böyük dünyanın varlıqlarının sirləri barəsində daha çox fikirləşsək, Onun Pak Zatının əzəmətinə, elm və qüdrətinin sonsuz olduğuna bir o qədər agah olarıq. Müxtəlif kəşf və ixtiralarla və elmin inkişafı ilə, həqiqətdə Allahın elm və hikmətinin yeni-yeni qapıları bizim üzümüzə açılır. Bəşərin Allah barəsində düşüncəsi və etiqadı artaraq yeni-yeni elmi kəşflər edir. Belə ki, təbiətin bir çox sirlərinə agah olduqda, istər-istəməz onun yaradanı barəsində fikirləşir, Onun pak zatının əzəməti və elminin qüdrətinin, geniş olduğunu heyranlıqla etiraf edirik.

Bu təfəkkür bizim Allaha olan eşqimizi günbəgün artırır, bununla da, Ona daha çox yaxınlaşdıraraq, tükənməz Cəlal və Cəmal sifətlərinin nuruna boyayır. Qurani-Kərim buyurur: «Yer üzərində inam, yəqin axtaran kəslər üçün nişanələr -ibrətlər vardır. Və sizin öz vücudunuzda da, nişanələr mövcuddur. (məgər) Görmürsünüzmü?» (Zariat, 20-21)
Ali-İmran surəsinin 90-91-ci ayələrində buyurulur: "Şübhəsiz, yerin və göylərin yaradılışında və gecə-gündüzün gəlişində ağıl sahibləri üçün nişanələr vardır. Onlar ayaq üstə, oturan halda, böyürləri üstə yatarkən Allahı zikr edib (hər vaxt Onun barəsində fikirləşərlər), göylərin və yerin yaranışını təfəkkür edər və deyərlər: Ey Rəbbimiz, bu dünyanı boş-boşuna yaratmamısan."

## Allahın Cəlal və Camal sifətləri (xüsusiyətləri)

İslam dininə görə, Allahın Pak Zatı hər bir eyib və nöqsandan uzaqdır və O, bütün kamal sifətlərinin sahibidir. Həqiqətdə O, mütləq kamilliyin özü və kainatınyaradanıdır. Başqa bir sözlə desək, dünyada mövcud olan hər bir gözəllik və kamal bulağı Ondan çeşmələnmişdir.

## Allahın Pak Zatının nəhayətsiz, hüdudsuz olması

İslam dini Allah-Taalanın sonsuz və nəhayətsiz bir varlıq olduğuna təkid edir. İstər elm, istər qüdrət, istərsə də, əbədi həyat, əzəliyyət cəhətindən sonsuz və nəhayətsizdir.

Belə qiymətli İlahi kəlamlarının, ayələrin çox olmasına görə, Tanrını vəsf və mədh edən Quran ayələrinin hamısını bu kitabda gətirə bilmərik. Amma o mübarək o ayələrdən bir neçəsini nəzərinizə çatdırmaq imkanından istifadə etmək istərdik:

1. «O Allah elə bir məbuddur ki, ondan başqa heç bir məbud yoxdur. Hər şeyi sahibidir. Müqəddəsdir, sağlamlıq, əmin-amanlıq bəxş edəndir. Qoruyan və nəzarətçidir. İzzət və qüdrətə malikdir. Məğlubedilməzdir. Böyük və əzəmətlidir bütün eyb və nöqsanlardan pakdır. O həmin Allahdır ki, yaradan və surət bəxş edəndir. Gözəl adlar və yalnız ona məxsusdur.» *(Həşr, 23-24)*
2. «Allah etdiyiniz bütün gizlin və aşkar əməllərdən xəbərdardır» *(Bəqərə, 77)* «Həqiqətən Allah eşidən və biləndir» *(Bəqərə, 227)*

Gördüyünüz kimi, Qurani-kərimin ayələrində Allah üçün mədh (tərif) zikr etməklə tanrı barəsində bir necə həqiqəti açıqlayır. O cümlədən; Quran Allahın hər şeyi yaratdığı üçün öz yaratdıqlarına ehtiyacı olmamasını, həmçinin şərik, zövcə, oğul, qız və bu kimi məfhumların Allahdan uzaq olmasını bəyan edir. Quran, bütpərəstləri Tanrının kənarında başqa məbudları ibadət etməkdən çəkindirərək, onları yalnız vahid xaliqə və rəbbə sitayiş etməyə əmr edir.

Ümumiyyətlə, Qurani-kərim tövhid məsələsinin əhəmiyyətinə görə qırxdan çox ayədə tövhidə və təkallahlığa əmr etmişdir. Lətif olduğu üçün gözlərin onu görməyə qadir olmadığını bildirən ayə onun hər bir şeyi, hətta gözlərdə olan xəyanəti, məhəbbəti və nifrəti gördüyünü elan edir. O ki, qaldı Allah-təalanın hər şeyə agah olduğuna, demək olar ki, Qurani-kərim dəfələrlə tanrının hər şeydən xəbərdar olmasına işarə etmişdir. Və bu işarə bəzən Tanrının kainata olan sonsuz elmi şəkildə və bəzən də onun hər şeyi görüb-eşitdiyini bildirən ayələrdən düşünülür.

Quranın məntiqinə əsasən Allah bir olduğu üçün gərək məbud da bir ola. Yəni ibadət yalnız hər şeyin sahibi və maliki olan müqəddəs Tanrının qarşısında olmalıdır. Quran Allah-təalanı həqiqi nemət sahibi kimi tanıtdırır. Quran baxımından sağlamlıq və əmin-amanlıq bəxş edən, kainatı qoruyan və onun nizam-intizamına nəzarət edən Allah sözsüz ki, tükənməz izzətə və qüdrətə malik olmalıdır. Belə bir böyük və əzəmətli Tanrı heç bir qüdrətin qarşısında məğlub olmaz çünki o hər bir nöqsandan pakdır. Quran, nəhayət, hər bir gözəl adı Allaha layiq və ona məxsus bilir.

**2. Ağlın üçlüyü rədd etdiyini, lakin ona iman gətirməyin lazım olduğunu iddia edənlər.**

Keşiş Ətaullah Vəhib, «Həzrət İsanın (ə) mahiyyəti» kitabının, 18-ci səhifəsində belə söyləyir: «Üç üqnum əqidəsi, heç bir ağıl və məntiq çərçivəsilə uzlaşmır. İnsan ağlı onu rədd edir. Biz isə bu etiqadı təsdiqləməli və qəbul etməliyik.»[1]

Rəsmi kilsə etiqad naməsində yazılıb: «Üç üqnum əqidəsi, ilahi sirridir. Onu Tanrıdan bir başa vəhy olmadan başa düşmək olmaz. İnsan ağlı onu anlamaqda acizdir.»[2]

Hətta Tomas Akvinas da, bu əqidənin elmi və fəlsəfi dəlillərlə sübuta yetirilə bilməsinin qeyri-mümkün olduğunu söyləyərək, fəqət iman əhlinin ona etiqadlı olmasını zəruri sayır»[3]

## A. İSLAMDA ALLAH

Qurani-kərim elə bir əsrdə nazil olmuşdur ki, insanlar Allahın kənarında yüzlərlə bütə sitayiş edərək, onların razılıqlarını əldə etmək üçün qurbanlar kəsirdilər. Düşüncə və şüur cəhətdən zəif olan qədim ərəblər Allahı cism sanır, onun üçün oğul, qız və şərik təsəvvür edirdilər. O insanlar hətta cin və şeytanları dünyanın idarə olunmasında Allaha yardımçı sanırdılar.

Belə bir acınacaqlı vəziyyətdə Uca Tanrı bəşəriyyətə sonsuz mərhəmət edərək, ilahi mərifətlərin ən kamili olan Qurani-kərimi Həzrət Məhəmmədin (s) ülvi qəlbinə nazil etdi. Çox yüksək və dərin mənalara malik Qurani-kərimin 1/3 hissəsi Allah-təalanın vəsfinə aid olunur. Quranda ilk növbədə, Allaha qarşı irəli sürülən iddialar, Ona nisbət verilən yanlış xüsusiyyətlər və sifətlərlə mübarizə aparılmışdır. Cinlərin Allaha şərik qoşulmasına etiraz edilərək, onların yaradılmış olmasına, Allahın onları xəlq etməsinə diqqət çəkilmişdir. Allah üçün oğul və qız təsvir edənlər sərt sözlərlə tənqid edilmişdir. Yeri və göyləri yaradanın övlada, zövcəyə ehtiyac duymamasına təkid edilmişdir.

Allahın şəriksiz rəbb olmasına, Ondan başqa heç bir tanrının olmaması dəfələrlə bəyan edilmişdir. Təkcə hər bir şeyi Yaradana ibadət edilməsi tələb olunmuşdur. Gözlərin Onu görmək iqtidarında olmaması, lakin Onun hər bir şeydən agah olması buyurulmuşdur. *(Ənam, 100-102)*.

---

1. Ə. Şibli, «Dinlərin əlaqəsi», səh. 124
2. SSS, R. 56
3. V. Dorant, «Mədəniyyətlər tarixi», c. 4, səh. 1302

V. M. Miller «Kəlmə Allah idi» cümləsi barəsində belə yazır: «Allah birdir və "Allahın kəlməsi"[1] də Allahdır.»

Pravoslavlar[2] da üç üqnum əqidəsinə inamlıdırlar, sadəcə olaraq onlar Müqəddəs ruhun yalnız atadan zühur etdiyinə təkid edirlər.

## Üç üqnum əqidəsi və ağıl (xristianlıq baxımından)

Artıq xristian alimlərinin özlərinə də bəllidir ki, «üç üqnum əqidəsi» ağıl və məntiqlə uzlaşmaq qabilliyətinə malik deyildir.

Nikiyya şurasında, monoteist xristian Aryus öz politeist fikirləri ilə «üç üqnum əqidəsi»ni dəstəkləyən Atotasyusa etiraz etdi və üçlüyün heç bir ağıl və məntiqə sığmadığını ön plana çəkdi. «Maraqlıdır ki, Atotasyus onun fikirləri ilə tam razı idi və üçlüyün ağıla sığmadığını o da təsdiqləyirdi. Amma ağılı kənara qoyaraq, bu əqidəni dərk etmək üçün onun aciz olduğunu əsas tutan Atotasyus yalnız bu əqidəyə iman gətirməyin zəruri olduğunu söyləyirdi.»[3] Ümumiyyətlə, xristian alimləri bu barədə iki dəstəyə bölünmüşlər:

### 1. Ağlın onu rədd etmədiyini və yalnız aciz olduğunu söyləyənlər.

C. Fərəc və D. Xuri «Pavelin romalılara məktubunun şərhi» əsərinin 139-cu səhifəsində yazırlar: «Qəlbində elə fikirləşmə ki, necə ola bilər, Allah «insan» şəklinə düşsün?!» Çünki bu iş Allaha məxsusdur və bəşər ağlı onu dərk edə bilməz.»

Həmçinin livanlı xristian alimi Səlim ibn Cərcis «üçlüyün müqabilində ağlın aciz olduğunu, amma onu rədd etmədiyini yazır. Səlimin fikrincə, İncildə və adi həyatımızda belə şeylər çoxdur. Hətta çürümüş bədənlərin Qiyamət günü, hamılıqla bir zamanda və eynilə dirilməsi də ağıla sığmır. Lakin biz ona inanmağa və qəbul etməyə məcburuq. Çünki ağıl onu rədd etmir, sadəcə olaraq məhdud məlumatlara malik olduğu üçün onu dərk edə bilmir.»[4]

---

1. İsa Məsih (ə)

2. Pravoslavlıq (yunanca ortodoksiya) xristianlığın mühüm cərəyanlarından biri olaraq Şərqi Avropa, Yaxın Şərq və Balkanda yayılmışdır. XI əsrdə Avropanın qərb və şərqində feodalizmin müxtəlif inkişaf yolları nəticəsində müstəqil cərəyana ayrılmışdır. Digər cərəyanlardan fərqi:

1. Ehkam fərqləri: Kilsə qüsursuzluğunun qəbulu (amma papanın yox), Qiyamət gününün inkarı, şəriətin toxunulmazlığı və dəyişməzliyinə inam.

2. Ayin fərqləri: İkonalara sitayiş, ağ ruhanilər üçün nikahın zəruriliyi və s. («Fəlsəfi terminlər ensiklopediyası», tədqiqatçı qrupu, səh. 240).

3. V. Dorant, «Mədəniyyətlər tarixi», c. 3, səh. 770.

4. Səlim ibn Cərcis, «Əzəmətli xəzinə», səh. 109.

Xristianlar da, müsəlmanlar kimi Allahın müxtəlif xüsusiyyətlərə malik olduğuna inanırlar.

Onlar etiqadlıdırlar ki, bu xüsusiyyətlərin arasında üç xüsusiyyət Allahın zatı kimi əbədi, əzəlidir. Bu xüsusiyyətlər aşağıdakılardan ibarətdir:

1. Allahın ali və əzəli zatı.
2. Allahın əzəli kəlməsi ki, İsa Məsihdə (ə) təcəssüm etmişdir.
3. Allahın həyatverici və daim fəaliyyətdə olan vücudu ki, Müqəddəs ruh adlanır.

Bu sifətlər zati və əzəlidir. Çünki ilahi zatında pərakəndəliyin olması qeyri-mümkündür. Onun zatı daim sabitdir. Söylənilən sifətlər həmişə ilahi zatla birgədir və onun xaricində deyildir. İşarə olunan sifətlər ilahi zat üçün zəruri və əsldir. Onların heç birisini inkar etmək olmaz.

Başqa bir xristian alimi «üç üqnum əqidəsi»ni belə izah edir: «Allahın vahid zatı üç üqnumdan ibarətdir. Doğrudur, yaşadığmız dünyada «üçlük» əqidəsinə uyğun olan bir nümunə ilə üzləşmirik, amma insan ağlı ona misal ola bilər. Belə ki, insan ağlı həm özü ilə məsləhətləşir, həm də alınmış nəticə haqqında fikir yürüdə bilir.»[1]

Henri Tesin həmçinin yazır: «Üç üqnum əqidəsinə olan inam, «üç Allaha inanmaq» demək deyildir. Üç allaha inananlar hər üç Allahın vahid hədəfi güddüyünə etiqadlıdırlar. Amma düzgün əqidə budur ki, Allah həm zatda, həm hədəfdə həm də feldə vahiddir. «Sableus vahid Allahın «üçlükdə» təcəlli etdiyini, lakin zatən «üç» olmadığını söyləyir. Yəni bir olan Allah həm İsa (ə) şəklində təcəssüm etmiş, insanlara nicat vermiş və eyni halda müqəddəs ruh şəklində düşərək bəşərin günahlarını bağışlamışdır. Necə ki bir insan eyni zamanda müğənni, müəllim və dost ola bildiyi kimi, həmçinin ata, oğul və qardaş da adlanır.

Allah da həm Ata, həm oğul və həm də müqəddəs ruh kimi zahir olur. Amma həqiqi şəkildə yox. Bu əqidə «üçlüyün» inkar olunması deməkdir. Çünki onu yalnız zahiri görünüşü adlandırır.»[2] «Düzgün nəzər budur ki, Allah üç şəxsiyyətə malikdir. Ata, Oğul, Müqəddəs ruh. Vahid Allah üç fərqli şəxsiyyət.»[3]

---

1. Henri Tesin, «Xristian ilahiyyatı», səh. 96
2. Həmin yer, səh. 88
3. Həmin yer.

Katoliklər[1] «üç üqnum əqidəsi»ni belə açıqlayırlar: «Üçlük tövhid deməkdir. Biz üç müxtəlif allaha inanmırıq. Amma vahid Allaha inanırıq ki, üç üqnum zatən vahiddir.»[2]

*(Konstantiniyyə şurasının qərarı)* Bu üç üqnum bir Allahlıqda şərik olmaq mənasında deyildir. Onların hər biri vahid və kamil Allahdır: «Ata Allah, elə həmin Oğul Allahdır. Oğul Allah da, Ata Allahın özüdür. Ata Allah və Oğul Allah müqəddəs-ruhun eynidir. Zat və təbii cəhətdən Vahid Allahı təşkil verirlər. *(Tolda şurasının qərarı)*

Bu üç Allahın hər biri həqiqətin özüdür; yəni, Tanrının zatı və əslini təşkil edir.» *(Latron şurasının qərarı)*

«Üç üqnum[3]» bir-birindən fərqli xüsusiyyətlərə də malikdir. Allah birdir amma tənha deyil. «Ata, Oğul və Müqəddəs ruh» təkcə adla deyil, vahid Allahın müxtəlif vücud keyfiyyətləridirlər. Onlar beləcə bir-birilərindən fərqlənirlər.» *(Tolda şurasının qərarı)*

«Bəli, onlar müxtəlif mənşə fərqlərinə malikdirlər. Ata Allah, Oğul Allahı yaradır. Müqəddəs-Ruh onlardan sadir olur. Deməli, Vahid Allah eyni halda üçdür.» *(Latron şurasının qərarı[4])*

Tomas Mişel, «Məsihi ilahiyyatı» adlı kitabında yazır: «Bizim üç Allahın vahid təbiəti barəsində olan anlayışımız belədir: «Bir Allaha inanırıq ki, onun təbiəti üç xüsusiyyətə malikdir. Bir olan Allah, özünün qüdrətli yaradan və həyat bağışlayan tanrı kimi tanıtdırır. Xristianlar onu «Ata Allah» adlandırırlar. Ata Allah, öz «əzəli kəlamı»nı insan İsada (ə) təcəlli edib. Müqəddəs ruh isə onun məxluqatında olan həyatverici və daim fəaliyyətdə olan vücududur.»

---

1. Katolisizm yunan sözü olub (catholios) «dünyəvi, ümumi» mənasında və xristianlığın əsas cəryanlarından biridir. «Üç üqnum əqidəsi»nə inam, Qiyamət gününə inam, İsanın (ə) canişini kimi Roma papasının ali hakimiyyətinə tabeçiliyin zəruri olmasına etiqad bəsləmək, papanın isməti haqqında ehkamlar və s. katolik kilsəsinin doqmatik xüsusiyyətlərindəndir. Əsasən Qərbi Avropa və Latın Amerikası ölkələrində yayılmışdır. Katolisizmin pravoslavlıqdan kult və kanonik fərqləri ruhanilərin günahsızlığı, xüsusi inkişaf etmiş marianizm və sairdir. Onlar Müqəddəs-ruhun həm «Atadan», həm də «Oğul»dan nazil olduğuna etiqadlıdırlar. Katolisizmin mərkəzi Vatikan inhisarçı burjuaziya ilə ideoloji, siyasi və iqtisadi cəhətdən əlaqəlidir. Neotolizm Katolisizmin rəsmi fəlsəfəsi elan edilmişdir. («Fəlsəfi terminlər ensiklopediyası», tədqiqatçı qrupu, səh. 220)

2 SSS, R. 60

3 Üqnum siryani kəlməsi olaraq, «şəxs» ya «əsl» mənasınadır.

4 SSS, R. 60

### *1- Mənəvi duyğular dəlili*

Tomasın fikrincə, insanlar doğruluq, xeyirxahlıq, ədalət, sədaqət və sair kimi pak hisslərə malikdir. Bu hisslər maddi deyil, deməli onları bizə bəxş edən ali ülvi hisslərin yaradanı və özüdür. Yəni; xeyirxahlığın, məhəbbətin, doğruluğun özü olan Allahdır.

### *2- Hədəf dəlili*

Dünyaya baxdığımız zaman, aşkar şəkildə orada hədəf və tədbirin olmasını müşahidə edirik. Hər bir məxluq bihudə deyil, müəyyən bi hədəfə qulluq etmək üçün yaradılmışdır. Yəni; hər məxluqun yaradılış aləmində öz rolu vardır. Deməli, tədbir və hədəf varsa, onu tənzimləyən, hədəfləyən bir sonsuz və qüsursuz ağıl və düşüncə sahibi olan varlıq da mövcuddur. Həmin varlıq Allahdır.[1]

Əlbəttə, Tomas Akvinasa qarşı, Duns Skot və onun fransiskan ordeni ətrafında yığışan tələbələri müxtəlif dəlillər gətirərək, onun bu sübutlarının nöqsanlı olduğunu iddia etmişlər. Onların Tomasa ən önəmli iradları bunlardan ibarət idi ki, hər beş dəlildə "hərəkətsiz", "səbəbə ehtiyacı olmayan", "varlığı əzəli və zəruri olan", sırf ali mənəvi duyğuya malik olan və pis xüsusiyyəti olmayan", "özü hədəf məqsədilə yaradılmayan" Allahın varlığını xəyali deyil, həqiqin şəkildə sübut etməkdə acizdir. Həmçinin, Tomas bu dəlillərlə bir-neçə allahın varlığını inkar edə bilməz.[2]

## Xristianlıqda «üç üqnum» əqidəsi

Xristianlar «tövhid»ə etiqadlı olduqlarını iddia etməklə yanaşı, «üç üqnum»a da inamlıdırlar. Məsihi alimləri tarix boyu «üç üqnum əqidəsi»nin izlərini və nişanələrini İncildə axtarmaqla birgə, onun «tövhid»lə heç bir ziddiyyət daşımadığını sübuta yetirmək üçün çalışmışlar. Bu barədə xristian alim və tədqiqatçıları bir-birindən fərqli müxtəlif şəkildə fikirlər yürütmüşlər.

---

1. Məsihi ilahiyyatı ("Christian Theologi An İntroduction"), Alister E. McGrath, (Blackwell, 2002), səh. 471-472.
2. Məsihi ilahiyyatı, səh. 474

O, düşünürdü ki, məhəbbət ən gözəl yol olsa da, Allahı yalnız yaratdıqlarında dərk etmək mümkündür. Necə ki, bir rəssamı çəkdiyi rəsm əsərinindən dərk etmək lazımdır. Yaradan hər bir varlıqda öz imzasını qoymuşdur. Biz Onu imzasına baxaraq tanımalıyıq. Tomas bütpərəstlərin və yunan filosoflarının qarşısında Allahın varlığını sübut etmək üçün beş dəlil-beş yol göstərmişdir:

### 3- Hərəkət dəlili

Dünya bütünlüklə, ən xırda üzvləri ilə birgə hərəkət edir, dəyişilir. Yerin günəş ətrafında fırlanması,[1] yağışın yağması və sair. Deməli, onu hərəkətə etdirən hərəkətsiz bir qüdrət vardır. Həmin qüdrət Allahdır.

Çünki onu hərəkətə gətirən, Allahdan qeyrisidirsə, özü də hərəkət edirsə, bir hərəkətə gətirənə ehtiyac duyacaq. Bununla da, hərəkət etdirən və özü də hərəkət edən qüdrətlər silsiləsi yaranacaq. Deməli, bu silsilə hərəkətsiz bir qüdrətə sonlanmalıdır.

### 4- Səbəb-natica dəlili

Hər bir hadisə, yaranış, varlıq səbəbsiz yerə mövcud ola bilməz. Yəni; hər bir nəticənin səbəbi vardır. Məxluq varsa, onu yaradan və yaradılmağa ehtiyacı olmayan Xaliq də vardır. Çünki yaranmışların səbəbi, özü də yaranmağa və var olmağa ehtiyaclı olsa, onun da bir səbəbə ehtiyacı olacaq. Bu ehtiyaclı səbəblər, yaradanlar silsiləsinə son vermək üçün, özündən var olan, yaradılmağa ehtiyacı olmayan, varlığın səbəbi olan bir qüdrət lazımdır. Bu da Allahdır.

### 5- Zəruri və mümkün varlıqlar dəlili

Dünya başdan başa var olması və yox olması mümkün olan varlıqlardan təşkil tapmışdır. Əvvəllər olmayıb, sonradan yaranan bu varlıqları vücuda gətirən, əbədi-əzəli və varlığı özünə bağlı bir zəruri varlıq olmalıdır. Həmin varlıq Allahdır.

Çünki, bütün varlıqlar sonradan vücuda gəlmiş, olması və olmaması mümkün olan varlıqlardır. Onları yaradan özünə bağlı, varlığı zəruri və ehtiyacsız bir zat olmalıdır ki, bu mümkün varlıqlar silsiləsi sona çata bilsin.

---

1. Kilsə tarix boyu yerin günəş ətrafında fırlanması fikrinin tərəfdarı olmuşdur.

Yəhya Allahın başı və saqqalının yun kimi, qar tək ağ, gözlərinin isə atəş alovu kimi olmasını iddia edir. "Onun" səsinin gur-gur axan suların səsi kimi olduğuna, sağ əlində yeddi ulduz, ağzından iti «iki ağızlı qılınc» çıxdığına təkid edir. Yəhya Allahın üzünün isə bütün qüdrətilə parlayan günəş kimi olmasını söyləyir. Yəhya "Vəhy"də deyir: "Onu görən kimi ayaqlarına ölü kimi yıxıldım. O, sağ əlini mənim üstümə qoyub dedi: Qorxma! Birinci, Axırıncı və Diri olan Mənəm!"[1]

Vəhy, 4-cü fəsil, 2-5-ci cümlələrdə, Allahın taxtda oturduğu, görünüşü yəşəm və qırmızı əqiq daşına bənzədiyi və taxtın ətrafında zümrüdə bənzər göy qurşağı olduğu söylənilir.

Taxtın ətrafında 24 ayrı taxt, taxtlar üzərində oturan ağ paltar geymiş və başlarında qızıl tac olan 24 ağsaqqalların olduğu söylənilir. Taxtdan şimşəklər, göy gurultuları və uğultular çıxır, onun önündə odla yanan yeddi məşəldə Allahın yeddi ruhunun olması deyilir. Yanındakı əcaib məxluqlar dayanmadan Allaha deyirdilər: Var Olmuş, Var Olan, Küll-ixtiyar sahibi Rəbb Allah müqəddəsdir, müqəddəsdir, müqəddəsdir![2]

## Xristianlıqda Allahın varlığına dəlillər

Xristianlıqda iman gətirmək və sorğu-sualsız Allaha itaət edərək, Onu dərk etmək əsasdır. Buna görə də, uzun illər boyu Yaradanın varlığına dəlil-sübut gətirmək haqda fikir ortaya atılmamışdır. Əsl həqiqətdə, Allaha inanıb, İsaya iman gətirib, Onu dərk etmək tələb edilmişdir. Lakin zaman keçdikcə, elm və fəlsəfənin yaratdığı suallar və ağır şübhələr altında, bəzi xristian alimləri Allahın varlığına dəlillər gətirməyə başlamışdır. Onların arasında qədim dövrün alimlərindən ən seçilmişi Tomas Akvinasdır.[3]

---

1 Vəhy, 1-ci fəsil, 10-18-ci cümlələr

2 Vəhy, 4-cü fəsil, 2-5-ci cümlələr

3 Tomas Akvinas (Thomas Aquinas) (1225-1274), onu Foma Akvinat da adlandırırlar, orta əsr filosofu və ilahiyyatçısı, məsihi sxolastikasının sistemləşdiricisi, tomizmin banisi. İtaliyanın Akvino şəhərində, zadəgan ailəsində dünyaya göz açmışdır. Gənc yaşlarında Dominikan ordeninin mənsublarından olmuşdur. İlk təhsilini monastır məktəbində almış, daha sonra Neapol, Paris, Köln şəhərlərində universitetdə oxumuşdur. Əsas əsərləri: "Bütpərəstlər əleyhinə külliyyat" (1261-64), "Teologiya külliyyatı" (1265-73). 1879-cu ildə Tomas Akvinasın sxolastik sistemi katolikliyin yeganə həqiqi fəlsəfəsi elan olunmuşdur.

Ey imanı az olanlar, bu gün olub sabah ocağa atılan çöl otunu Allah belə geyindirirsə, sizi geyindirəcəyi daha da yəqin deyilmi? Beləliklə, "Nə yeyəcəyik?", "Nə içəcəyik?" və yaxud "Nə geyəcəyik?" deyə qayğı çəkməyin. Beləliklə, sabahın qayğısını çəkməyin." -deyir.[1]

## 7- Allahın ədalətli olması

İncildə müxtəlif cümlələrdə Allahın ədalətinə təkid edilərək, inşalara Onun adil hökmranlığına üz gətirmələri tövsiyə olunur. Yəhya Məsihdən eşitdiyini söyləyərək, Allahı nur adlandırır. Allahda zərrə qədər də qaranlıq olmamasına işarə edərək, deyir: "Allah sadiq və ədalətli olduğu üçün günahlarımızı bağışlayacaq və bizi hər haqsızlıqdan təmizləyəcək."[2]

## Əhdi-cədiddə Allahın cismani təsviri

Ümumiyyətlə, ilk növbədə, "Üç üqnum"a olan inam və Ata Allah, Oğul Allah (İsa) və Ruhül-qüdsün "Vahid Allahı" təşkil verməsi və Allahın bəndələrinin günahını yuması üçün oğlunu (özünü) fəda etməsi, çarmıxa çəkilməsi inancı xristianlıqda Allahın cismani təsəvvürünün bariz nümunəsidir. Təəccübləndirici haldır ki, Allahı belə gözəl şəkildə vəsf edən Əhdi-cədidin çoxsaylı digər fəsil və cümlələrində Onu sadə bir insandan da aşağı səviyyəyə endirmişdir. «Vəhy» kitabında çox qəribə və ağlasığmaz fantastika, xəyal aləminə dalan Yəhya, Allahı müxtəlif cismani formalarda təsvir edir.

Yəhya, 8-ci fəsil, 28-ci cümlə, 20-ci fəsil, 31-ci cümlə və 1-ci fəsil, 1-14-cü cümlələrdə İsanı (ə) Allahın yeganə, özündən doğulmuş həqiqi (ayrılmış) oğlu, Allahın özü sayması, Mark, 1-ci fəs, 10-11-ci cümlələrdə, Ruhun (Allahın) göyərçin kimi İsanın üzərinə enməsi də, diqqət mərkəzindən qaçmamalıdır.

"Vəhy", 1-ci fəsil, 10-18-ci cümlələrə diqqət etdikdə isə təəccüblənməmək olmur. Yəhya "Ruhun hakimiyyəti" altına düşdüyünü və arxasında boru səsinə oxşar yüksək tonlu səs eşitdiyini iddia edir. Yüksək tonlu səsin sahibi ona müşahidə edəcəyi hər bir şeyi kitaba yazmasını tələb edir. Yəhya geri çevirildiyi zaman, onunla danışanın kim olduğunu görür. Döndükdə yeddi qızıl çıraqdan (şamdan) və onların arasında, ayağadək uzun paltar geymiş, sinəsinə qızıl qurşaq taxmış, insan oğluna bənzər "Birini" (Allahı) görür.

---

1. Matta, 6:25-30
2. Yəhya incili, (1), 1:5 və 9

### 3- Allahın gözlə görülməməsi

Allahın gözlə görünməzliyi barəsində isə, Əhdi-cədiddə "Onu insanlardan heç kəs görməyib və görə də bilməz."[1] kimi cümlələri misal gətirmək olar.

### 4- Allahın mütləq qüdrətə sahib olması

İncilə görə Allah mütləq qüdrət sahibidir. Heç bir şey onun qüdrəti xaricində deyil. Allah üçün hər şey mümkündür.[2]

### 5- Allahın əbədi və əzəli olması

Əhdi-cədidin bəzi cümlələrində Allahın əbədi və əzəli bir varlıq olmasına diqqət çəkilir. Allahı "Yeganə ölməzliyə malik olan və əlçatmaz nurda yaşayan" adlandırır.[3]

### 6- Allahın ruzi verən olması

Əhdi-cədiddə dəfələrlə Allahın "Rəzzaq" (ruzi bəxş edən) xüsusiyyətinə təkid edilərək, xristianlara bu barədə diqqətli olmaları tövsiyə edilir. İlk növbədə zəngin insanlara təkəbbürlü olmamaları və dünya malına uymamaları tövsiyə edilir. "Bu dövrdə varlı olanlara buyur ki, təkəbbürlü olmasınlar və gəldi-gedər var-dövlətə yox, zövq almağımız üçün bizə hər şeyi bol-bol verən Allaha ümid bəsləsinlər."[4]

İncildə Həzrət İsanın (ə) təlimlərindən biri də, məhz Allahın ruzi bəxş edən və Rəzzaq olmasıdır. İsa (ə) "Nə yeyəcəyik?" və yaxud "Nə içəcəyik?", "Nə geyinəcəyik?" -deyə qayğı çəkməməyə çağırır. Çünki Allah hər kəsin ruzisini bəxş edir. O, göydə uçan quşları misal çəkərək, onların insanlar kimi əkinçiliklə, ticarətlə məşğul olmadıqlarını, lakin Allah tərəfindən ruzi ilə təmin edildiklərini söyləyir. Ardınca, çöl zanbaqlarını misal çəkir. Onların zəhmətsiz böyüyüb boy atdığına baxmalarını istəyir. Ardınca insanlara müraciətlə: "Siz onlardan daha qiymətli deyilsinizmi? Hansı biriniz qayğı çəkməklə ömrünü bir anlıq belə, uzada bilər? Nəyə görə geyim üçün qayğı çəkirsiniz?

---

1. Timoteyə, (1), 6:16
2. Matta, 19-cu fəsil, 25-ci cümlə
3. Timoteyə, (1), 6:17
4. Timoteyə, (1), 6:17

## XRİSTİANLIQDA ALLAH

Xristianlıqda Allah haqqında olan inam müxtəlif çalarlara malikdir. Müqəddəs saydıqları kitablarda Allah bir-birinə zidd olan ibarətlərlə təsvir edilmişdir. Üstəlik, Müqəddəs Üçlüyə olan inam bu məsələni daha da qəliz və çıxılmaz hala salmışdır. Buna görə də, xristianlar sorğu-sualsız iman gətirməyə və inanmağa üz gətirmişlər. Amma bununla belə müxaliflərin çoxsaylı iradlarının və yunan fəlsəfəsinin qarşısında davam gətirməyərək, bir sıra islahat işləri aparmışdlar.

Gəlin birlikdə xristianlığın Allah haqqındakı bəzi baxışlarını araşdıraq:

### 1- Allahın birliyi

İncildə Allahın varlığına təkid edilərək, onu belə vəsf edir: "Var Olmuş, Var olan, Küll-ixtiyar sahibi Rəbb Allah müqəddəsdir."[1]

Əhdi-cədiddə Allahın birliyi haqda bir sıra mətləblər mövcuddur. Orada oxuyuruq: "Ruh bir, iman bir, vəftiz bir, hamının Allahı və Atası birdir."[2] "Qanunverən və Hakim birdir, xilas etməyə və həlak etməyə qadir olan Odur."[3]

Əhdi-cədiddə bütlərə qurban kəsilməsi ilə mübarizə aparılır və bütlərə kəsilən qurban ətlərinin yeyilməməsinə göstəriş verilir. Beləliklə, bütlərə təqdim olunan qurban ətinin yeyilməsi barəsində bildirlir ki, "büt dünyada heç nədir" və "bir olan Allahdan başqası yoxdur". Yerdə və yaxud göydə "allahlar" adlandırılanlara, çoxlu "allahlar" və "sahiblərə" inananlara qarşı, bir Allaha etiqad bəslənilməsinə təkid edilir.[4] Əhdi-cədiddə oxuyuruq: "Əsrlərin Padşahı, ölməz, görünməz və bir olan Allaha əbədi olaraq hörmət və izzət olsun! Amin."[5]

### 2- Allahın mütləq elmə malik olması

Əhdi-cədidin bəzi cümlələrində Allahın mütləq elmə malik olmasına təkid edilir, Onun hər bir şeyə agah olmasına diqqət çəkilir. Belə ki, heç bir yaranış ona gizli deyil. Bütün şeylər onun gözündə açıq və aydındır, onun üçün gizli deyil.[6]

---

1. Yəhya vəhy, 4-cü fəsil, 8-ci cümlə
2. Efeslilərə, 4:5-6
3.Yaqub, 4:12; Yəhya, 5:44
4. Korinflilərə (1) 8:4-6
5. Timoteyə (1), 1:17
6. Matta, 10-cu fəsil, 30-cu cümlə; İbranilərə, 4-cü fəsil, 13-cü cümlə

Təlmudda Allah çox vaxt tam maddi şəkildə və cismi xüsusiyyətlər ilə təsvir edilir: Allah namaz qılır və Tövrat oxuyur.[1] Bəndələrinin çətinliklərinə və əzab-əziyyətlərinə ağlayır.[2] Xəstələrə təsəlli verir və dəfn mərasimlərində iştirak edir.[3]

## Yəhudilikdə səlbi ilahiyyat anlayışı

Yəhudi filosofları və sxolastikləri Filonun[4] (m. ə. 15 – m. s. 50) təsirlənərək, Allahın sifətlərini tanımağın, ona xüsusiyyətlər nisbət verməyin mümkünsüz olmasını ortaya atmışlar.

İbrahim bin Davud (1110-1180) deyirdi ki, Allaha aid olan bütün xüsusiyyətləri, yalnız səlbi şəkildə, yəni; əksinin Onda olmamasını söyləyərək Yaradana nisbət verə bilərik.[5]

Musa bin Məymun "Dəlalətül-hairin" kitabının çox böyük hissəsini bu məsələyə ayırmışdır. O, demək olar ki, yəhudilikdəki səlbi ilahiyyatın ən bariz şəxsiyyətlərindəndir. Onun fikrincə, hətta Allahın bir olduğunu söyləmək də, düzgün deyildir. Tövhid belə, səlbi şəkildə bəyan edilməlidir. Yəni; "Allah birdir" söyləmək əvəzinə, "Allah iki və ya çox deyildir" demək lazımdır. Çünki, zat vahiddirsə, onun sifət və xüsusiyyətləri olmamalıdır. Əks təqdirdə vahid olmayacaqdır.[6]

İbn Məynun fikrincə, tələffüz etdiyimiz bütün kamal xüsusiyyətləri ən ali mənasında belə Allaha nisbət versən yenə də naqisdir.[7]

Allaha müsbət xüsusiyyətləri nisbət verdikdə, onun çoxlu xüsusiyyətlərinin olmasına inanırıq, bu da bir növ şirkə doğru aparır.

Dilimizdə onun bir olmasını söyləsək də, qəlbimiz bu xüsusiyyətləri nəzərə alaraq, Onu çoxaldır. Amma yalnız onda olmayan xüsusiyyətləri dilə gətirsək, buna inansaq, söylədiyimiz problemlər meydana çıxmayacaqdır. Səlbi sifətlər bizə imkan verir ki Allahı daha yaxşı tanıyaq.

Allahı hər nə qədər xüsusiyyətlərdən tənzih edərək vəsf etsək, bir o qədər tanımış olarıq. Bu, qüsursuz bir vəsf yoludur.[1]

---

1. Evudaraza, 3B
2. Həgiga, 5B
3. Barəşit Rabba, 8:13
4. Runia, 1998, p 359
5. Samuelson, 1998, p 606
6. Dəlalətül-hairin, səh. 143, İbn Məymun, Ankara, 1972
7. Dəlalətül-hairin, səh. 135, İbn Məymun

O Şəxs acizanə deyir: Burax, gedim, çünki səhər açılır. Yaqubun (ə) əlinə fürsət düşərək, deyir: Mənə xeyir-dua verməsən, Səni buraxmaram. Şəxs soruşur: Adın nədir? O deyir: Yaqub. O Şəxs "Artıq sənə Yaqub deyil, İsrail deyiləcək, çünki sən Allahla və insanlarla güləşib üstün gəlmisən". Yaqub Allahı üz-üzə görüb və salamat qaldığı üçün Allahla güləşdiyi yerin adını Peniel qoyur.

Bibliyanın müasir tədqiqatçılarından olan Q. Qei deyir: «Müqəddəs kitab çoxallahlıq mifologiyasını dəfələrlə aşkar şəkildə özündə əks etdirir.» Tövratda oxuyuruq: "Ya Rəbb, allahlar arasında Sənin kimisi varmı?"[2] Zəburda deyilir: "Ey Xudavənd, allahlar arasında Sənin kimisi yoxdur!"[3] "Axı Rəbb böyük Allahdır. Bütün allahlar üzərində əzəmətli Padşahdır."[4]

Əlbəttə, bəzi yəhudi tədqiqatçılar, burada "allahlar"dan məqsədin padşahlar olduğunu iddia edir.

Bu məsələ, qismən həqiqətə uyğun olsa da,[5] Zəburdakı bir sıra məsələlərin diqqət xaricində qalması mümkün deyil. Zəburda mövcud olan çoxsaylı nümunələrə görə «Allahın» dünyanın yaranmasından əvvəl bir sıra əjdahalarla mübarizə aparmalı olmuşdur. Məsələn: Zəburda Allaha xitabən deyilir: "Sən dənizi Öz qüdrətinlə böldün, dəniz əjdahalarının başlarını əzdin. Sən Livyatanın başlarını əzdin, onu çöl heyvanlarına yem etdin." [6]

Zəbur Livyatanı bir tərəfdən balıq, bir tərəfdən əjdaha, gah Allahın yaratdığı dərkedilməz bir qüvvə, gah da ki Allahla mübarizəyə başlamış güclü varlıq kimi təsvir edir. Başqa bir yerdə qeyd edilir ki, bu balığın gündəlik yeməyi uzunluğu üç yüz mil olan iri buynuzlu balıqlardır. [7]

Təlmudda isə bu balıq barədə belə yazılır: «Allah gündə 12 saat məşğul olur. Birinci 3 saat oturub tövratı oxuyur. İkinci 3 saatı kainatı mühakimə edir. Əgər o, dünyanı dağıtmaq qərarına gəlirsə, mühakimə taxtından qalxıb mərhəmət taxtına əyləşir. Üçüncü 3 saat isə Tanrı bütün canlıların ruzisini verir. Dördüncü üç saat da isə Livyatan balığı ilə oynayır.»

---

1. Dəlalətül-hairin, səh. 139-140, İbn Məymun
2. Çıxış, 15:11
3. Məzmur, 86:8
4. Məzmur, 95:3
5 Belə nəzərə gəlir ki, həmin tədqiqatçıların sözlərində həqiqət vardır. Çünki, Əhdi-ətiqin bir çox yerlərində padşahlara "allahlar" deyə müraciət edilib. Burada "allah" padşah mənasına işlədilib. Nümunə olaraq, Məzmur, 82:1-8 baxın.
6. Zəbur, 74-cü fəs. 13-14-ci cüm
7. Yeşaya, 27:1; Əyyub, 41:1-34; Məzmur, 104:26

## 1- Allahın kamil olmaması

Xristianların müqəddəs saydıqları bu kitaba əsasən Allah tutduğu səhv əməllərdən peşman olaraq kədərlənir. O guya insanı yaratdığına görə, başqa bir yerdə isə Talutu (Şaulu) padşah etdiyinə peşman olaraq ürəyində kədərlənir. Çünki Talut Allahın əmrlərinə itaət etməyərək sözlərini yerinə yetirməyir.[1] Allah qəzəblənərək deyir ki, yaratdığım insanları yer üzündən siləcəyəm, bunu insanlarla birgə heyvanların, sürünənlərin və quşların da başına gətirəcəyəm, çünki onları yaratmağıma peşman olmuşam.[2]

## 2- Allahın mütləq qüdrətə malik olmaması

Yəhudilərin müqəddəs kitablarının yazdığına görə, Allah mütləq qüdrətə malik deyil. Hətta insanların qarşısında belə acizdir. Tövratda Allahın insanlardan qorxduğu qeyd olunur. Varlıq, 11-ci fəsil, 1-11-ci cümlələrdə uca bir qüllə tikməyə başlayan insanları görən Allah bundan xoflanaraq öz mələklərinə deyir: "Budur, onlar vahid xalqdır, dilləri də eynidir. Bundan sonra fikirlərində tutduqları hər şeyi etməyə qadir olacaqlar. Gəlin aşağı düşək, onların dillərini elə dəyişək ki, bir-birlərini başa düşməsinlər."

Açıq deyilməsə də, Varlıq, 2-ci fəsil, 2-ci cümlələr və 7-ci fəsil, 22-ci cümlədə belə bir fikir hasil olur ki, altı günlük yaradıcılıqdan sonra Allah yorulur və buna görə də «yeddinci günü» (şənbə) özü üçün rahatlıq günü sayır, istirahət etməyə başlayır. "Çünki altı gün ərzində Rəbb göyləri və yeri, dənizi və kainatdakı hər şeyi yaratdı, yeddinci gün isə istirahət etdi."[3]

Allahı kiçildən fəsillərdən biri də Varlıq, 32-ci fəsil, 22-30-cu cümlələrdir. Burada gecədən sübhədək Yaqubla (ə) güləşən Allah, ona məğlub olur və ombasının oynağı yerindən çıxır. Allah Yaquba (ə) yalvararaq Onu buraxmasını xahiş edir. Allaha qələbə çaldığı üçün adını İsrail qoyur.

Tövratda bu hadisə tam şəkildə belə təsvir edilir ki, Yaqub (ə) gecə qalxıb iki arvadını, iki cariyəsini və on bir uşağını götürərək Yabboq çayını keçir. Sonra Yaqub (ə) tək qalır. Dan yeri sökülənə qədər bir Şəxs (Allah) onunla güləşir. Yaquba üstün gələ bilmədiyini görüb onun budunun oynağına zərbə vurur. O Şəxslə güləşərkən Yaqubun (ə) budunun oynağı zədələnir.

---

1. Şamuel (1), 15:11; Şamuel (1), 15:35
2. Varlıq, 6-cı fəs. 6-7-ci cüm
3. Çıxış, 20:11

"Rəbb yenə dedi: Sodom və Homorraya qarşı qalxan fəryad böyük, oranın adamlarının günahı çox ağırdır. Buna görə də aşağı enib baxacağam ki, Mənə çatan fəryadın doğru olub-olmadığını bilim."[1]

Varlıq, 1-ci fəs. 1-26-cı cümlələrə istinadən, Allahın dünyanı yaradarkən, ən adi varlıqların keyfiyyətindən xəbərsiz olduğunu bəyan edir. Yaratdıqdan sonra onun yaxşı olduğuna agah olur. Tövrata görə, başlanğıcda Allah göyləri və yeri yaradır. Yer quruluşsuz və boş, dərin sular üzərində qaranlıq hökm etdiyi zaman, Allahın Ruhu suların üzərində dolaşır. Allah deyir: "Qoy işıq olsun". İşıq olur. Allah görür ki, işıq yaxşıdır. Sonra O, işığı qaranlıqdan ayırır. Allah qurunu "yer", su yığınlarını isə "dənizlər" adlandırdıqdan sonra, görür ki, bu da yaxşıdır. Yalnız ağaclar meyvə gətirdikdən sonra Allah görür ki, bu yaxşıdır. Allah ulduzları göy qübbəsinə qoydurdan sonra yer üzünə işıq saçdığına görə, gündüzü və gecəni idarə etdiyi və işığı qaranlıqdan ayırdığı üçün onun yaxşı olduğunu anlayır. Ümumiyyətlə, Tövrata görə Allah hər növ çöl heyvanlarını, hər növ ev heyvanlarını, yerdə sürünən bütün canlıları, bütün qanadlı quşları, nəhəng su əjdahalarını və suda qaynaşan hər növ bütün sürünən canlı məxluqları yaratdıqdan sonra anlayır ki, bu, yaxşıdır.

Bibliya Allahı elmsizlikdə adi bir insan həddindən də aşağıya endirir. Fironu və onun ətrafındakı zalım şəxsləri «gecə cəzalandırmaq» fikrinə düşən «Allah» (guya) onların evini tanımadığı üçün, Musaya (ə) quzu kəsməyi və onun qanını mömin adamların qapısına vurmağı tapşırır.

Çünki möminlərin evini zalımların evi ilə səhv salacağından qorxur. Quzu qanı isə bir nişanə kimi ona kömək ola bilir. Çıxış, 12-ci fəsil, 12-13-cü cümlələrdə yazılır: "Mən isə o gecə Misir torpağından keçəcəyəm. Misir torpağında olan həm insanların bütün ilk oğullarını, həm də heyvanların bütün ilk balalarını öldürəcəm. Bütün Misir allahlarına da cəza verəcəyəm. Rəbb Mənəm. Sizin olduğunuz evlər üzərindəki qan sizin üçün əlamət olacaq. Qanı görəndə yan keçəcəyəm və Misir ölkəsini cəzalandırdığım zaman sizə məhvedici bəla gəlməyəcək."

1. Varlıq, 18:20-21

"Onlara de: "Varlığıma and olsun, pis adamın ölümündən yox, onun öz yolundan dönüb yaşamasından zövq alıram" Xudavənd Rəbb bəyan edir."[1]

## Müqəddəs mənbələrdə Allahın cismani təsviri

Təəccübləndirici haldır ki, yəhudilərin müqəddəs kitabları Allahı belə gözəl şəkildə vəsf etdiyinə baxmayaraq, çoxsaylı digər fəsil və cümlələrində Onu sadə bir insandan da aşağı səviyyəyə endirmişdir.

### 1- Allahın cisim və insani xüsusiyyətlərə malik olması

Müqəddəs kitaba görə, Allah insan kimidir, saçı, hörükləri və paltarları var. "Nəhayət, mən gördüm ki, Taxtlar quruldu və Əzəldən Var Olan oturdu. Onun əynində qar kimi bəyaz paltar var idi, Saçları yun kimi ağappaq idi. Taxtı alov dilləri tək, çarxları yanar od kimi idi."[2]

Allah gözlə görülə bilər, qeyb olur və iki ayağı üstə yol gedir. Tövrata görə, Musa Harun, Nadav, Avihu və İsrail ağsaqqallarından yetmiş nəfərlə birgə çıxıb, İsrailin Allahını görürlər. Onun ayaqları altında göy yaqutdan döşəməyə bənzər, səmanın özü kimi aydın bir şey olduğunu müşahidə edirlər.[3] Tövratda deyilir: "Rəbb Musa ilə üz-üzə, dostu ilə söhbət etdiyi kimi danışardı."[4]

Tövratda yazılana əsasən, Adəm və Həvva günün sərinliyində bağda gəzişən Allahın (ayaq) səsini eşidirlər.[5] Həmçinin oxuyuruq ki, Allah Yaqubla danışdığı yerdə onun yanından yuxarı çəkilir. Göylərə ucalır.[6] Tövrata görə, Allah İbrahimlə bir süfrədə əyləşərək yemək yeyir. İbrahim (ə) Onun ayağını yuyur və xəmirdən hazırlanmış çörəyə, yağa, südə, qızardılmış dana ətinə qonaq edir.[7]

### 2- Allahın elminin məhdud olması

Tövratın müxtəlif yerlərində Allahın elminin məhdud olması, ən adi məsələlərə belə agah olmaması qeyd edilir.

---

1. Hezegel, 33:11; Mişna Avuut, 3:15
2. Daniel, 7 fəs. 8-ci cüm
3. Çıxış, 24:9-10
4. Çıxış, 33:11
5. Varlıq, 3:8
6. Varlıq, 35:13
7. Varlıq, 18-ci fəs. 1-16-cı cüm.

Yaxud Əhdi-ətiqdə Allah-təala Musaya deyir ki; "Bütün İsrail övladlarının icmasına bəyan edib de: Müqəddəs olun, çünki Mən Allahınız Rəbb müqəddəsəm."[1]

Tövratın başqa bir yerində isə deyilir: "Allah insan deyil ki, yalan söyləsin, bəşər oğlu deyil ki, fikrini dəyişdirsin. Dediyini həyata keçirməzmi? Verdiyi sözü yerinə yetirməzmi?"[2]

## 1- Allahın ədalətli olması

Əhdi-ətiqin, Təlmudun və sair müqəddəs kitabların təfsirçiləri daim Allahın ədalətinə təkid edir və buna iman gətirməyin zərurətinə diqqət çəkirlər. Onlar Tövratdan və sair müqəddəs kitablardan nümunələr gətirirlər: "Sadiq Allahdır, heç zaman haqsızlıq etməz, Adil və doğru olan Odur."[3]

Tövrat Allahı "İşləri kamil Qaya" adlandırır. Bundan məqsəd, Allahın bütün işlərinin haqq-ədalət üzərində qurulmasına və möhkəm, nöqsansız olmasına diqqət çəkməkdir.[4] Yaxud Tövratda Allahın hökmran, tərəfkeşlik etməyən, rüşvət almayan, böyük, qüdrətli, zəhmli Allah olduğu söylənilir.[5]

Bundan əlavə, Tövratda Həzrət İbrahimin Allaha belə müraciət etdiyini görürük: "Axı Sən bunu etməzsən, saleh adamı günahkarla birgə öldürməzsən. Saleh adamın aqibətini günahkarınkı kimi etməzsən, Sən bunu eləməzsən. Bütün dünyanın Hakimi belə ədalətsizlik etməz."[6]

## 2- Allahın rəhimli olması

Allahın rəhimli olması haqda, yəhudi alimləri ortaq fikirdədirlər. Lakin diqqət etmək lazımdır ki, yəhudilikdə Allahın feli sifərlərinin yəhudi xalqına xas olmasına etiqad bəslənilir. O cümlədən də, Allahın yəhudilərə xüsusi olaraq rəhimli olması qeyd edilir. Lakin yəhudi alimlərinin şəxsi fikirlərinə və müqəddəs kitablarında Allahı yəhudin tayfasına məxsus etmələrinə baxmayaraq, Əhdi-ətiqi araşdırdıqda, daha ülvi və ali mənaların şahidi oluruq.

---

1. Levililər 19:1-2
2. Saylar, 23: 19
3. Qanunun təkrarı, 32:4: Bəraxut, 10 A
4. Qanunun təkrarı, 32:4
5. Qanunun təkrarı, 10:17
6. Varlıq, 18:25

Yəhudilərin müqəddəs kitabı Allahın elmində şəkk edənləri ağılsız sayır. Təəccüblə, "necə ola bilər ki, Yaradan yaratdığı şeyin hər bir zərrəsinə və davamiyyətindəki həyatının hər bit nöqtəsinə agah olmasın?"

deyə sual verir. Necə ki deyilir: "Öz niyyətlərini Rəbdən gizlətməyə çalışanların vay halına! Qaranlıqda iş görən bu adamlar «Bizi kim görür, kim tanıyır?- deyirlər. Bu nə cür ağılsız düşüncədir! Heç dulusçunu gil ilə bir tutmaq olarmı? Düzəldilən əşya onu düzəldən barədə O məni düzəltmədi- deyərmi? Qab onu yaradan barədə O heç nə anlamır- deyərmi?"[1]

### 3- Allahın əbədi və əzəli olması

Yəhudi alimləri Allah-təalanın əbədi və əzəli olmasına etiqad bəsləyirlər. Bu haqda onlar müxtəlif mənbələrdə təkidlə Allahın əbədi və əzəli olmasına bəyan etmişlər.[2]

Tövratda da bu haqda çox saylı məlumatlar mövcuddur. Orada deyilir: "Çünki əlimi göylərə qaldırıb belə bəyan edirəm: "Əbədi Varlığıma and olsun!"[3] Yaxud yazılır: "Pənahgahın əzəli əbədi Allahdır."[4]

### 4- Allahın pak, kamil və nöqsansız olması

Yəhudi alimləri daim Allah-təalanın paklığına, kamilliyinə və nöqsansızlığına təkid edirlər. Bu paklıq və kamillik, hər bir mənaya şamildir. İstər qüdrət və ehtiyacsızlığı, istərsə də, pis əməllərdən uzaqlığına şamildir. "Yeşua xalqa dedi: Rəbbə qulluq edə bilməzsiniz, çünki O, müqəddəs Allahdır."[5]

Həmçinin deyilir: "Allahınız Rəbb Mənəm. Özünüzü təqdis edin və müqəddəs olun, çünki Mən müqəddəsəm; Çünki Allahınız olmaq üçün sizi Misir torpağından çıxaran Rəbb Mənəm. Müqəddəs olun, çünki Mən müqəddəsəm."[6]

---

1. Yeşaya, 29:15-16; Berşit Rabba, 1:24
2. Baraxut, 28B
3. Qanunun təkrarı, 32:40
4. Qanunun təkrarı, 33:27
5. Yeşua, 24:19
6. Levililər, 11:44-45

Onun üçün qeyri-mümkün heç bir şey yoxdur. Müqəddəs kitabda Həzrət Daniel bu haqda deyir: "Allahın adı əbədi olaraq izzətlənsin! Çünki hikmət və qüdrət Ona məxsusdur. Vaxtı və dövrü dəyişdirən Odur. Dərin və gizli sirləri O açar, Qaranlıqda qalanı O bilər. İşıqla əhatə olunan Odur."[1]

Diqqət etmək lazımdır ki, yəhudi dinində ən əsas və bünövrə olaraq, Allahın mütləq qüdrəti göz önünə çəkilir. Xristianlıqda "məhəbbət dini" şüarı və islamda "rəhmət" prinsipi qabardıldığı və bununla tanındığı kimi, yəhudilik demək olar ki, qüdrət dinidir. Mütləq qüdrətə sahib olan Allahın yeganə tayfasının dini kimi tanıtdırılır.

Əhdi-ətiqdə dəfələrlə Allahın mütləq qüdrətinə təkid edilir. Deyilir ki, ancaq Rəbb həqiqi Allahdır. Var olan Allahdır, Əbədi Padşah Odur. Qəzəbindən dünya titrəyər, hiddətinin qarşısında millətlər dura bilməz.[2]

Salnamələrdə deyilir: "Ya Rəbb, əzəmət, qüdrət, cəlal, zəfər və şöhrət Sənə məxsusdur, çünki göydə və yerdə olan hər şey Sənindir. Ya Rəbb, padşahlıq Sənindir və Hökmdar olaraq hər şeydən ucasan. Var-dövlətlə şöhrət Səndən gəlir və Sən hər şeyə hökmranlıq edirsən. Hər kəsi yüksəltmək və gücləndirmək üçün qüdrət və güc Sənin əlindədir. İndi, ey Allahımız, biz Sənə şükür edirik və izzətli adına həmd edirik."[3]

Yaxud yazılır: "Qüdrətlə qüvvət Sənin əlindədir və heç kim Sənə qarşı dura bilməz."[4]

## 5- Allahın sonsuz elmi

Yəhudi alimlərinin fikrincə, Allah-təala mütləq elmə malikdir və gələcəkdə baş verən hər bir şeyə agahdır. [5]

Çünki Rəbb hər şeyi bilən Allahdır, [6] Allah üçün məxfi olan heç bir şey yoxdur. "Allahın adı əbədi olaraq izzətlənsin!... Dərin və gizli sirləri O açar, Qaranlıqda qalanı O bilər. İşıqla əhatə olunan Odur."[7]

---

1. Daniel, 2:20-22
2. Yeremya,10:10
3. Salnamələr (1), 29:11-13
4. Salnamələr (2) 20:6
5. Sanhedrin, 90B
6. Şamuel, 2:3
7. Daniel, 2:20-22

## 6- Allahın gözlə görülməməsi

Təlmud və Tövrata əsasən Allah gözlə görülməz. Çıxış bölümündə yazılır: "Sonra O davam etdi: Üzümü isə görə bilməzsən"[1]

Təlmudda yəhudi aliminin imperatorla maraqlı mübahisəsi mövcuddur. Roma İmperatoru Hadriat, Rabbi Yahuşu bin Həninaya dedi: Sizin Allahınızı görmək istəyirəm. Rabbi Yahuşu bin Həninaya ona belə cavab verir: Bu qızmar günəşə bax.

İmperator deyir: Baxa bilmirəm.

Rabbi Yahuşu bin Həninaya deyir: Allahın yaratdığına baxmaq, müşahidə etmək bacarığın yoxdursa, necə ola bilər ki, Yaradanı görəsən?[2]

## 7- Allahın məkansızlığı

Yəhudi alimləri müqəddəs kitablardakı bəzi cümlələri misal gətirərək, Allahın zaman və məkanın fövqündə dayandığını söyləyirlər: ""Hamınız Rəbbin isminə həmd edin! Çünki yalnız Onun ismi ucadır. Əzəməti göylərin, yerin üstündədir."[3] "Kimsə gizli yerlərdə saxlana bilər ki, Mən onu görə bilməyim? Rəbb belə bəyan edir: Yeri, göyü Mən doldurmamışammı?"[4] Bir padşah yatdığı yerdə olarkən, sarayının başqa hissəsində var ola bilməz. Yaxud əksinə. Amma Allah-təalanın pak zatı həm yuxarıları, həm də aşağıları əhatə edib."[5]

Ümumiyyətlə, çox vaxt yəhudi alimləri Allahı "Məkan" adlandırır. Bunun səbəbi isə Allahın məkanı əhatə etməsi, onun fövqündə dayanması, amma dünyanın Onun məkanı olmamasıdır. "Allahın pak zatı dünyanın məkanıdır. Lakin dünya Allahın məkanı deyil."[6]

Bunun yəhudilərin baxışında əxlaqi görüşü ondan ibarətdir ki, insanlar Allahın daim onlara nəzarət etdiyini bilməlidirlər.

## 8- Allahın mütləq qüdrəti

Yəhudi alimlərinin fikrincə, Allah-təala mütləq qüdrət sahibidir. Heç bir şey onun qüdrəti xaricində deyil.

---

1. Çıxış 33:20
2. Şamuel, 2: 2
3. Məzmur, 148:13.
4. Yeremya, 23:24.
5. Midraş Tahilim, 103 A.
6. Berşit Rabba, 68:10.

### 1- Allahın ruzi verən olması

Təlmuda görə Allah "Rəzzaq" (Ruzi verən) və Rəbb (İdarə edən) dir. Bütün varlıq dünyası Onun meyl və iradəsinə, ruzi bəxş etməyinə möhtacdır. "Allah daim dünyada var olan bütün varlıqlar üçün, ehtiyacları qədər ruzi bəxş edir. İman əhlinə və bütpərəstlərə də ruzisini əsirgəmir."[1]

### 2- Allahın cisim olmaması və bənzərsizliyi

Təlmudun müasir təfsirçiləri yəhudi dinində Allahın cisim olmamasına inandıqlarına israr edirlər. Onlar Allahın Əhdi-ətiqdə və Təlmudda çisimi xüsusiyyətlər ilə təsvir edilməsinə belə aydınlıq gətirirlər ki, Allah insanların öz dili ilə, başa düşdükləri tərzdə onlarla danışır. "Biz Allahın maddi varlığa olşadıldığını, insanların ilahi kəlamı və Allahı daha yaxşı dərk etmələri üçün olduğunu düşünürük."[2]

Təlmuda görə, ruh bədəni əhatə edərək, onu gördüyü kimi, Allah da cahanı əhatə edir və hər şeydən xəbərdardır. Amma onu gözlər görə bilmir. Ruhun harada olduğunu dərk edə bilmədiymiz kimi, Allahın da harada olmasını dərk edə bilmərik. Bir halda ki, O, dünyanı əhatə edib.[3]

Tövratda olduqca maraqlı bir şəkildə Allahın dili ilə onun bənzərsiz və misilsiz olmasl qeyd edilir: "Mənə bənzəyən varmı? Xəbər versin."[4]

Yenə həmin Tövratda Allahın göylərə və buludlara hökm etməsi təbiri ilə Onun qüdrətinə işarə edilərək, bənzərsizliyinə təkid edilir: "Ey Yeşurun, bax sənə kömək etmək üçün göylər və buludlara əzəməti ilə minən Allahın bənzəri yoxdur."[5]

Əhdi-ətiqə görə, Rəbbə oxşar ikinci müqəddəs yoxdur. Orada deyilir: "Ey Rəbb, yeganəsən Sən! Allahımız kimi sığınacaq qaya yoxdur!"[6] Yaxud yazılır: "Məni kimə bənzədəcəksiniz, kimə oxşadacaqsınız, kiminlə müqayisə edəcəksiniz ki, biz oxşar olaq?"[7]

---

1. Məxilya, Tövratın Çıxış bölümünün 18-ci ayəsinin təfsirində.
2. Bəraxut, 31 B; Məxilya, Tövratın Çıxış bölümünün 18-ci ayəsinin təfsirində, 65 A.
3. Bəraxut, 10 A.
4. Yeşaya, 44:7
5. Qanunun tekrari 33:26
6. Şamuel, 2: 2
7. Yeşaya, 46:5

Mən onun səsini eşitmək varlığını duymaq istəyirəm. Musa cavabında deyir: Dünya bizim Allahımızın iqtidarı ilə doludur. O kainatın yaranmasından öncə də var idi. Dünya sona çatdıqdan sonra da var olacaq. O səni yaradıb və bədəninə ruh ilə həyat verib. O səmaları yaradıb, yer üzünü (xalça kimi) döşəyib.[1]

Yəhudi dininə əsasən, dünya və təbiət özü Allahın var olmasını hayqırır. İnsan öz düşüncəsi, fərasəti və ağlı ilə Allahın var olmasını dərk etməyə qadirdir. Təlmuda görə, İbrahim (ə), Əyyub (ə), Hezegel və Məsih ağıl və düşüncələrinin gücü ilə Allahın var olmasına yəqin tapıblar.[2]

Gəlin birlikdə bu qarışıq və ziddiyyətli bəyanlara qısa bir nəzər salaq:

### 1- Allahın birliyi

Yəhudi dinində tövhid əqidəsinin böyük əhəmiyyəti vardır. Yəhudilik daim bütpərəstliklə mübarizə aparmışdır. Əhdi-ətiqdə deyilir: "Rəbb, İsrailin Padşahı, Ordular Rəbbi belə deyir: "Mən birinciyəm, Mən sonuncuyam, Məndən başqa Allah yoxdur."[3] Yaxud oxuyuruq: "Məndən başqa Allah varmı? Başqa Qaya yoxdur."[4]

Təlmudda yazılır: "Allah Adəmi yaratdığı zaman bir surətdə xəlq etdi ki, kafirlər səmalarda başqa tanrıların olmasını iddia etməsinlər."[5]

Ümumiyyətlə, bir Allaha olan inam, yəhudi dininin mühüm etiqadlarından sayılırdı. Belə ki, təkallahlılıq, bu dini zamanındakı başqa inanclardan fərqləndirən əsas xüsusiyyət idi. Necə ki, deyilir: "Hər kəs bütpərəstliyi inkar etsə, yəhudi adlanırdı."[6]

Tövratda deyilir: "İndi görün ki, Allah yalnız Mənəm. Başqası yoxdur. Mənəm öldürən və həyat verən, Mənəm yaralayan və şəfa verən, Heç kim əlimdən qurtara bilməz."[7]

Yaxud yenə Tövratda oxuyuruq: "Allahın Rəbb Mənəm. Məndən başqa allahların olmasın."[8]

---

1. Şəmut Rəbba, 5:14.
2. Bemidbar Rəbba, 14:2.
3. Yeşaya, 44:7
4. Yeşaya, 44:8
5. Sanhedrin, 18 A.
6. Megila, 13 A.
7. Qanunun təkrarı, 32:8
8. Qanunun təkrarı, 5:6-7

# İBRAHİMİ DİNLƏRDƏ ALLAH

**Müəllif:** Dr. Tofiq Əsədov (Azərbaycan)[1]

Bu məqalədə İbrahimi dinlərdə; yəni yəhudilik, məsihilik və islamda Allah-taalanın həqiqəti haqda olan fikirlər sizlər üçün açıqlanacaq və sonda müqayisə olacaq:

## A. YƏHUDİLİKDƏ ALLAH

Yəhudiliyin müqəddəs kitabı olan Əhdi-ətiqin və Təlmudun, həmçinin bu kitabları təfsir edən alimlərin Allah barəsində söylədikləri, demək olar ki, olduqca ziddiyyətli və bir-birinə uyğun olmayan sözlərdir. Yəhudilərin müqəddəs kitabları Allah-təalanı tam şəkildə cismi və insani xüsusiyyətlərə malik, maddi varlıq kimi, bəzən insandan daha aşağı şəkildə vəsf edir. Lakin bununla bərabər, həmin kitablarda Allah-təala ali və kamil xüsusiyyətlərlə də vəsf edilmişdir. Çox saylı müasir yəhudi alimləri məhz qeyd etdiyimiz sonuncu xüsusiyyətlərlə Allahı vəsf edirlər.

İlk olaraq bunu söyləmək lazımdır ki, yəhudi dini Allaha və tövhid əqidəsinə inam bəsləyən dinlərdən biridir. Yəhudi alimlərinin bütün əsərlərində Allah-təalanın varlığı aydın, şübhəsiz və sübuta ehtiyacı olmayan bir həqiqətdir. Buna görə də, onların əsərlərində Allahın varlığının sübutuna aid dəlillər gözə çarpmır.[2] Yəhudilikdə Allahın adı "Yəhvə" o qədər müqəddəs sayılır ki, bu adı dilə gətirməkdə çətinlik çəkirlər və ona hörmətsizlik edəcəklərindən ehtiyat edirlər. Bu adın hörməti olduqca çoxdur və onu Tövrat tilavət edərkən belə dilə gətirmək haram bilinir. Yalnız xüsusi dualar zamanı məxsus din xadimləri Yəhvənin adını dilə gətirir. Onun əvəzində "Yaradan", "O", "Mənim ağam" və sair kimi kəlmələrdən istifadə edilir.

Təlmudun yazdığına əsasən, Musa Fironla mübahisə etdiyi zaman, Firan ona deyir: Sənin Allahın kimdir?

---

1. Əsas Elmi-heyətinin üzvü, Əl-Mustafa BeynəlxalqVirtual Universiteti, Qum, İran, tofiq.asadov@inbox.ru

2. Allah, dünya, insan və Məsih Təlmudun təlimləri əsasında", Dr. Rabb, Abaraam Kohen, birinci çap, əl-Məi nəşriyyatı, 1382 h. ş.

Çünki artıq insan ağlı yetərincə inkişaf etmiş və yaxşı-pisi dərk etməyə, seçməyə tam qüdrət və elm sahibidir. Həmçinin yeni təlimlərin gəlməsinə də ehtiyac yoxdur, çünki İslam dini bütün zamanlara və şəraitlərə cavab verəcək qüdrətə malikdir.

**İstifadə olunmuş mənbələr**

Quran
Əhdi-ətiq
Əhdi-cədid
«Təlxisul-mühəssəl» Xacə Nəsrəddin Tusi
«Quranın mövzularla təfsiri», Cavadi Amuli
«Məcməül-bəyan», Fəzl ibn Həsən Təbərsi
«Hz. Məhəmməd Bibliyada», Professor Əbdül-Əhəd Dadud
«Bibliya başarətləri», Məhəmməd Sadiqi
«Bibliya Məhəmməd (s) haqqda nə deyir?», Əhməd Didad
«Ənisül-Əlam fi nüsrətil-İslam», Məhəmməd Sadiq Fəxrül-islam
«Biharul-ənvar», Əllamə Məclisi
«Din fəlsəfəsi», Can Hik
«Katolik məzhəbi», Corc Brentel
«İman Yolu», Yusif Miller,
«Musa ibn Məymun və əhvalihi», Dr. İsrail
«Təlmuddan seçmələr», Əmir Firuddin Qorqani
«Elm və din», Barbur Ayen
«Məsihi əqidəsi», K. Braun
«Əhdi-ətiqin başarətləri», Məhəmməd Sadiqi
«İlahiyyat», Cəfər Subhani

İslam Peyğəmbəri Həzrət Məhəmməd (s) də, Allahın iznilə bir çox qeybi xəbərlərdən agah edirdi. Qurani-Kərim ona müraciətlə buyurur: «Bunlar qeyb xəbərləridir ki, sənə vəhy etdik.» (Yusif, 102)

## 4. Bütün peyğəmbərlər Allaha doğru dəvət etmişlər

Bizim əqidəmizə əsasən, bütün İlahi peyğəmbərlər öz çağırışlarında vahid bir hədəfə, məqsədə qulluq etmişlər. Onların hədəfi, insanları Allaha və Qiyamət gününə olan inamla, ilahi dininin düzgün qavranılması və əxlaqi məsələlərin riayət olunması ilə əbədi səadətə yönəltmək idi. Elə bu səbəbdən də, bütün peyğəmbərlər biz müsəlmanlar üçün əziz və möhtərəmdir. Qurani-Kərim bu əqidəni bizə öyrətmişdir: «Biz İlahi peyğəmbərlərin arasında heç bir ayrı-seçkilik (fərq) qoymuruq.» (Bəqərə, 285)

Lakin dövran keçdikcə, zaman ötdükcə, insan elm və maddi imkanlar cəhətindən inkişaf edərək, daha üstün və dərin mənalı təlimləri qavramaq qabiliyyətinə malik oldu. Allah-Taala da, öz sonuncu və ən kamil dini olan İslamı insanlara bəxş etdi. Qurani-Kərimin Maidə surəsinin 3-cü ayəsində buyurulur: «Bu gün sizin dininizi kamil etdim, və nemətimi sizə tamamladım, və İslam dinini sizin üçün əbədi din seçdim!».

## 5. Xatəmiyyət

Dinimizin buyruğuna görə Allah-Taala bəşəriyyətin hidayəti və insanları tələb olunmuş (nəzərdə tutulmuş) kamilliyə və əbədi səadətə yetirmək üçün peyğəmbərlər göndərmişdir. Əgər Allah öz peyğəmbərlərini bəşəriyyətin hidayəti üçün göndərməsəydi, bəşər və dünya öz yaranış hədəfinə yetişməz, uca kamilliyə çatmaq hədəfilə yaradılan insan, azğınlıq yollarında sərgərdan olaraq, nəfsinin yaratdığı çirkab bataqlıqlarında boğulardı, nəticədə Tanrının insanı yaratmaqda olan məqsədinin, hədəfinin mənasız olması lazım gələrdi.

Beləliklə, bəşəriyyətə göndərilmiş sonuncu və eyni zamanda kamil din, islam dini olduğu üçün, Peyğəmbərimiz də sonuncu peyğəmbərdir. Dinimizin buyuruğuna əsasən, Həzrət Məhəmməddən sonra bəşər övladlarına heç bir peyğəmbər göndərilməyəcəkdir.

Deməli o, həm nəbilərin və həm də rəsulların sonuncusudur. Necə ki Qurani-Kərimin Əhzab surəsinin 40-cı ayəsində buyurulur: Məhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Rəsulu (elçisi) və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir!

## 2. Peyğəmbərlər Allahın itaətkar bəndələridirlər

İlahi peyğəmbərlərin ən böyük iftixarı, onların Allah-Taalaya itaətkar, müti bir bəndə olmalarıdır. Elə bu səbəbdən də, hər gün öz namazlarımızda İslam peyğəmbərinə xitab olaraq, belə söyləyirik: «Şəhadət verirəm ki, Məhəmməd Allahın bəndəsi və elçisidir!»[1] Biz etiqad bəsləyirik ki, ilahi peyğəmbərlərdən heç biri Allahlıq iddiası etməmiş, peyğəmbərlərin heç biri xalqı onlara ibadət etməyə çağırmamışdır. Qurani-Kərim buyurur: «Heç bir bəşər övladına layiq deyildir (ixtiyarı yoxdur) ki, Allah ona kitab, hikmət və peyğəmbərlik verəndən sonra desin: «Allahın bəndələri deyil, mənim bəndələrim olun! (Mənə ibadət edin)»Halbuki, peyğəmbərlər Allahın kitabı Qurandan öyrəndiyiniz və ondan oxuduğunuz kimi; «Yalnız Allaha pərəstiş edin!» deyirlər. (Ali -İmran, 79)

Hətta Həzrət İsa (ə) da, heç vaxt insanları ona bəndə olmağa, ona pərəstiş etməyə çağırmamış, həmişə özünü Allahın məxluqu, bəndəsi və elçisi saymışdır. Nisa surəsinin 172-ci ayəsində buyurulur: «Əsla Məsih, Allahın bəndəsi olmaqdan çəkinməyirdi (imtina etmirdi) və (Allaha) yaxın olan mələklər də, Allah bəndəsi olmaqdan imtina etmirlər.»

Hazırkı xristianlığın tarixinə nəzər salsaq, «Təslis - müqəddəs üçlük əqidəsi»nin[2] birinci əsrdə mövcud olmadığını, sonradan meydana gəldiyini görərik.

## i. 3. Möcüzələr və elmi-qeybə olan agahlıq

Peyğəmbərlər Allahın bəndələri və Onun qullarıdır. Lakin onların Allaha bəndə olmaqları, «Allah-Taalanın icazəsilə keçmişə, indi və gələcəyə aid olan bir sıra sirli (məxfi) işlərdən xəbərdar olmalarına mane deyildir (Allah sadiq bəndələrinə həmişə öz elmindən istədiyi qədər pay verir). Qurani-Kərim buyurur: «Allah-Taala qeybə agahdır və öz qeybinin sirlərini seçilmiş (razı olduğu) peyğəmbərlərdən savayı heç kəsə açmaz.» (Cin, 26-27)

Həzrət Məsihin (İsa) möcüzələrindən biri də, insanlara qeybdən, gizli sirlərdən xəbər vermək idi. Ali-İmran surəsinin 49-cu ayəsində deyilir: «Allahın iznilə xalqı sizə nə yediyinizi və evlərinizdə nə saxladığınızı (gizli əşyalarınızı) deyərəm.»

---

1. Diqqət etmək lazımdır ki, Peyğəmbər (s)- ın bəndəlik məqamı elçilik məqamından əvvəl zikr olunmuşdur.
2. «Ata Allah - İsa (ogul allah) və Ruhul - Qüdüs»

2. Keçmiş peyğəmbərlərin onun haqqında xəbər verməsi, peyğəmbəri tanıma yollarından biridir.
3. Peyğəmbər yüksək əxlaqı keyfiyyətləri və mənəvi üstünlükləri ilə də tanınır. Onun insanları dəvət etdiyi məsələlər də, elə ali mənəvi keyfiyyətə malik olmalı, ağıl, vicdan və məntiqə zidd olmamalıdır.

## Peyğəmbərlik və məsumluq

### ii. 1. Ənbiya (ə) həyatları boyu məsumdurlar

Bizim əqidəmizə əsasən bütün Peyğəmbərlər məsumdurlar. Bu o deməkdir ki, onlar öz ömürləri boyu (istər peyğəmbər olmazdan əvvəl, istərsə də sonra) Allahın yardımı ilə xəta, günah və səhvdən uzaq olmuşlar. Əgər xalqı doğru yola çağıran bu insanlar, özləri də günah və xəta sahibləri olsaydılar, peyğəmbərlik üçün lazım olan etimadı (Allah və xalq tərəfindən) qazana bilməzdilər. Və xalq onları özləri ilə Allah arasında etimadlı bir vasitə saymaz, onları bütün əməllərində özlərinə nümunə seçməzdi.[1]

Elə buna görə də, diqqət etmək lazımdır ki, Quranın bəzi ayələrində müəyyən peyğəmbərlərə zahirdə bir sıra günahlar nisbət verilibdirsə də, günahın öz həqiqi mənasında deyil, başqa bir məna nəzərdə tutulmuşdur. Həqiqətdə bu ayələrdə, günah «tərki-ovla» mənasındadır. «Tərki-ovla» yaxşı və daha yaxşı (əməl, ibadət) iş arasında yol verilən səhvə deyilir. Yəni bu peyğəmbərlər bəzən daha yaxşı işi təxirə salaraq, əvəzində «yaxşı işi»əncam vermişlər. Onlar bu işi özləri üçün günah sayaraq ondan tövbə etmişlər. Bu da, bir növ onların uca əzəmətini, böyük şəxsiyyətini və Allah qarşısında həqiqi bəndə olduqlarını yetirir. Başqa bir ibarətlə desək; «Yaxşıların əncam verdiyi (yaxşı) işlər, Allaha daha yaxın olan gözəl insanlara nisbətən isə «günah» sayılır (həqiqətdə isə bu, günah deyildir).

Çünki bu insanlara olan tələb və istək, (onların məqam və şəxsiyyətlərinə uyğun olaraq) daha üstündür.[2] Onlar artıq ən ali mənəvi məqama «Allahdan başqa sənin diqqətini cəlb edən, sənin bütündür» dərəcəsinə yetişmişdir.

---

1. Günahkar və xalq arasında etimadı olmayan bir şəxsin Allah tərəfindən peyğəmbər seçilməsi qeyri-mümkündür.
2. Deməli Peyğəmbərlərə nisbət verilmiş günah öz həqiqi mənasında deyildir.

7. Allah-təala öz dinini və tövsiyələrini peyğəmbərlərin vasitəsilə bəyan etməklə onların həyatına məna bəxş edir və dəyər qazandırır. Ümid və həyat eşqi verir. Əsl həyatın nə olduğunu anladır.
8. Allah-təala öz dinini və tövsiyələrini peyğəmbərlərin vasitəsilə bəyan etməklə onların həyatına aramlıq, rahatlıq, əmin-amanlıq əta edir.
9. İlahi peyğəmbərlər bəşəriyyətə mədəniyyət, sivilizasiya, incəsənət bəxş edir.
10. İlahi peyğəmbərlər kamil insan yetişdirmək, ali ilahi tərbiyəni anlatmaq üçün göndərilir.
11. İlahi peyğəmbərlər ictimai birliyə təkan verir.

## iii. E. Peyğəmbərləri tanımağın yolu

1. Möcüzə. Peyğəmbərləri tanımağın ilkin yolu möcüzə göstərmələridir. Əlbəttə, dinimizdə möcüzənin xüsusi şəraiti və əlamətləri vardır ki onu başqa əməllərdən fərqləndirir.

- Möcüzə xariqüladə bir əməldir. Maddi dünyanın və təbiətin adi qanunları ilə uyğunlaşmır. Amma ilahi əzəməti və qüdrətinin əhatə dairəsi daxilindədir. Əlbəttə bu, o demək deyildir ki, möcüzə qeyri-mümkün və olması heç bir şəkildə baş tutmayan əməldir. Xeyir, sadəcə olaraq maddi aləmin adi qanunları ilə uzlaşmayan bir əməldir. Yaxud səbəbi bizə məlum olmayan xariqüladə əməldir. Məsələn; çarəsiz xəstəliyə tutulmuş bir şəxsin dərmansız sağalması və ölmüş şəxsin dirilməsi kimi.
- Möcüzə peyğəmbərlik iddiası ilə birgə olmalıdır.
- Möcüzə başqasının onu təkrar etməsi tələbi və bunun mümkün olmayacağını iddia etməklə birgə olmalıdır.
- Möcüzə məğlub edilməməlidir.
- Möcüzə iddia ilə uyğun olmalıdır. Məsələn; yarısı su olan quyunun suyunu doldurmaq iddiası ilə olub, amma suyun qurumasına səbəb olan əməl artıq möcüzə deyil. Hətta qeyri-adi
- bir əməl sayılsa da.
- Möcüzə təlim və tədrislə əncam verilməli bir əməl olmamalıdır.

Qurani-Kərim buyurur: «Məhəmməd, siz kişilərdən heç birisinin atası deyildir. O, Allahın elçisi və peyğəmbərlərin axırıncısıdır. Və Allah hər bir şeydən xəbərdardır.» (Əhzab, 40)

## D. Peyğəmbərlərin (ə) göndərilməsinin faydaları

İlahi peyğəmbərlərin (ə) göndərilməsinin faydaları haqda danışdığımız zaman bir çox məsələlərə diqqət etmək məqsədə uyğundur. Necə ki, dəyərli islam alimləri[1] öz qiymətli kitablarında bu məsələyə müxtəlif aspektlərdən yanaşmışlar:

1. İnsan ağlı bəzi məsələləri düzgün anlayır, amma bəzi məsələləri anlamaqda acizdir. Din və peyğəmbərlər ilahi tövsiyələrlə ağlın anladığı məsələləri təsdiqləyir, anlaya bilmədiklərini isə açıqlayır.
2. Peyğəmbərlər insan qəlbindəki qorxunu aradan aparır. Çünki insan ondan nə tələb olunduğunu bilmir. Allah haqqında araşdırma aparmağa, Ona ibadət etməyə icazəsi varmı, yoxsa buna icazə verilmemişdir. Peyğəmbərlər Allah tərəfindən bəndənin Ona ibadət etməsinə və sair məsələlərə icazə verildiyini bəyan edir.
3. İnsan nəyin yaxşını və nəyin pis olmasını həmişə və hər bir sahədə dərk edə bilmir. Bəzisini dərk edir, bəzisini dərk etməkdə isə acizdir. Peyğəmbərlər göndərildiyi zaman onun dərk etdiklərinin düzgünlüyünü təsdiq edir, dərk etmədiklərini və yanlış anladıqlarını isə bəyan edir.
4. İnsan nəyin ona xeyir və nəyin ziyan olmasını bəzi məqamlarda tam dəqiqliyi ilə anlaya bilmir. Peyğəmbərlər insanını bunu anladığı məqamlarda təsdiq edir, anlamadığı məqamları isə bəyan edir. Həmçinin insan zaman keçdikcə xeyir və ziyanını anlayır. Amma bunun üçün uzun bir sürə və zaman keçməsi tələb olunur. Peyğəmbərlər öz ilahi kəlamları ilə insanlara bu haqda yardım edir.
5. Peyğəmbərlər (ə) ilahi qanunu bəyan edir, ictimai-sosioloji nizam-intizamın təməlini qoyur.
6. Peyğəmbərlər əməllərin hansı savab-mükafata, əzab-cəzalandırmağa malik olmasını bəyan edir ki, insanlar öz yolunu daha düzgün seçə bilsin.

---

1. Xacə Nəsrəddin Tusi, "Təlxisul-mühəssəl", səh 44

Burada peyğəmbərlərə Allahın birbaşa vəhyi, hansısa əşyanın üzərində səsləndirdiyi vəhy və yaxud da mələk vasitəsilə göndərdiyi vəhy qeyd edilir. Dördüncü qisim vəhyin çatdırılma növü isə, yuxuda peyğəmbərə bəyan edilən vəhydir. Belə ki, Quranın Saffat surəsində, 102-ci ayədə Həzrət İbrahimə (ə) yuxuda övladı İsmayılı (ə) qurban etməyin vəhy edilməsi yazılır.

### iv. C. Peyğəmbərlərin göndərilməsinin fəlsəfəsi

Biz inanırıq ki, Allah-Taala bəşəriyyətin hidayəti və insanları tələb olunmuş (nəzərdə tutulmuş) kamilliyə və əbədi səadətə yetirmək üçün peyğəmbərlər göndərmişdir. Əgər Allah öz peyğəmbərlərini bəşəriyyətin hidayəti üçün göndərməsəydi, bəşər və dünya öz yaranış hədəfinə yetişməz, uca kamilliyə çatmaq hədəfilə yaradılan insan, azğınlıq yollarında sərgərdan olaraq, nəfsinin yaratdığı çirkab bataqlıqlarında boğulardı, nəticədə Tanrının insanı yaratmaqda olan məqsədinin, hədəfinin mənasız olması lazım gələrdi. Qurani-Kərim buyurur: «(Allah) Müjdə verən və qorxuzan peyğəmbərləri göndərdi ki, ondan sonra insanların Allaha qarşı dəlilləri olmasın. (Səadət yolunu insanlara göstərərək, onlar üçün bir üzr yeri qoymasın). Allah güclü və hikmət sahibidir!»

Bizim etiqadımız budur ki, Peyğəmbərlərdən beş nəfəri «Ulul-Əzm» yəni şəriət-din sahibi və Allah tərəfindən verilmiş «müqəddəs kitaba» malikdirlər. Onların əvvəlincisi həzrət Nuh (ə), sonra İbrahim (ə), Musa (ə), İsa (ə) və sonuncusu isə həzrət Məhəmməd (s)-dir.

«Əhzab» surəsinin 7-ci ayəsində buyurulur: «Xatırla o zamanı ki, peyğəmbərlərdən əhdi-peyman aldıq. Səndən, Nuhdan, İbrahimdən, Musa və Məryəm oğlu İsadan əhdi-peyman aldıq!» Digər ayədə isə buyurulur: «Ulul-Əzm peyğəmbərlər kimi, səbirli və dözümlü olun!» (Əhqaf 35)

Biz inanırıq ki, İslam Peyğəmbəri Həzrət Məhəmməd (s) Ənbiyanın axırıncısı və ilahi peyğəmbərlərin sonuncusudur. Onun şəriəti bütün dünya üçündür və dünyanın sonuna qədər mövcud olacaq yeganə dindir.

Yəni İslam təlimlərinin, hökmlərinin və İslam maarifinin hərtərəfli və universal olması, bir formada ki, dünyanın sonunadək bəşər övladlarının maddi və mənəvi cəhətlərdən olan bütün ehtiyaclarını təmin edəcək formada olması, bizə bu sözü söyləməyə haqq verir ki, İslam dini sonuncu din və İslam Peyğəmbəri (s) axırıncı peyğəmbərdir! Və o Həzrətdən sonra hər hansı bir kəsin etdiyi «peyğəmbərlik iddiası» puç və əsassızdır.

- Yerlərə və göylərə vəyh, yəni; yaradılış əmri vermək: Allah onları (səmaları) yeddi (qat) göy olaraq iki gündə əmələ gətirdi. O, hər bir göyün işini özünə vəhy edib bildirdi. Fussilət\12
- İnsana mənəvi ilham bildirişi: Biz Musanın anasına (ilham yolu ilə): “Onu (Musanı) əmizdir; elə ki ondan ötrü qorxdun, onu dəryaya (Nil çayına) at. (Uşağın suda boğulacağından) qorxma və (ayrılığına da) kədərlənmə. Biz onu sənə qaytaracaq, özünü də (şəriət sahibi olan) peyğəmbərlərdən edəcəyik!” -deyə bildirdik. Qəsəs\7
- Mələklərə mənəvi ilham bildirişi: (Ya Peyğəmbərim!) Xatırla ki, o zaman Rəbbin mələklərə belə vəhy edirdi: “Mən də sizinləyəm. Möminlərə qüvvət (mətanət) verin. Mən kafirlərin ürəklərinə qorxu salacağam.” Qəsəs\7
- Şeytanın vəsvəsəsi mənasına işlədilir: Həqiqətən, şeytanlar öz dostlarına sizinlə mücadilə etmək üçün (çirkin fikirlər və yaramaz əqidələr) təlqin edirlər. Ənam\121
- Peyğəmbərlərə ilahi vəyh: (Ya Rəsulum!) Yenilməz qüvvət sahibi, hikmət sahibi olan Allah sənə və səndən əvvəlkilərə (keçmiş peyğəmbərlərə) belə vəhy edir! Şura\173

Peyğəmbərlərə nazil edilən vəhy, birbaşa ilahi kəlamı olaraq, xüsusi şüur və idrak tələb edir ki, Allah-təala da bunu seçdiyi peyğəmbərlərində qərar verir. Bununla da, onlar vəhyi almaqda və dərk etməkdə səhvə düçar olmurlar.[1]

## B. Qurani-kərimdə peyğəmbərlərə nazil olan vəhyin növləri

v. Quranda Allahın peyğəmbərlərinə dörd yolla vəyh etdiyi yazılmışdır. Şura surəsinin 51-ci ayəsində onların üçünə işarə edilir: "Allah bəşər övladı ilə ancaq vəhylə, yaxud pərdə arxasından danışar. Və ya bir elçi (mələk) göndərər ki, o da Allahın izni ilə (göndərildiyi kimsəyə) Onun istədiyini vəhy edər."

1. İlahiyyat, Cəfər Subhani, c. 3, səh. 28

Yalnız bütə sitayişə dəvət edən şəxsin yalançı peyğəmbər olmasına təkid edilmişdir. Bir halda ki, Əhdi-ətiqin söylədiyinə görə, Süleyman (ə), Harun (ə) kimi peyğəmbərlər hətta peyğəmbərlikdən sonra da bütə sitayiş etmiş və onlara məbəd düzətmişlər. Belə olduğu halda, biz hansı şərtlərə əsaslanaraq, anlamalıyıq ki, peyğəmbərlik iddiası edən şəxs həqiqətən də, peyğəmbərdir və söylədikləri ilahi vəhyidir? Əhdi-ətiqə görə bunu peyğəmbərlərin qeybdən verdiyi xəbərlərə əsasən söyləmək olar. Bir halda ki, bu kitabın əvvəlindən axırına kimi yalançı peyğəmbərlik edən kahinlərin gələcəkdən doğru xəbər verdiklərinin şahidi olmaq olar.

Yəhudilikdə bir insanın məsum olmasının mümkünlüyü haqda fikir ayrılıqları mövcuddur. Bəzilərinin fikrincə bu ola bilər. Hətta onlar düşünürlər ki, İlk əcdadlar; İbrahim, İshaq, Yaqub məsum olmuşlar.[1]

Təlmuda görə dörd şəxs; Yaqubun oğlu Binyamin, Musanın atası Omram, Davudun atası Yişa, Davudun oğlu Kil Av günahkar olduqlarına görə ölmədilər, Həvvanın irsi ölüm cəzasına görə öldülər.[2]

Bəzi alimlərin fikrincə isə, Allah-təala İbrahim, İshaq, Yaqubu mühakimə etsə, onlar əməllərinə görə Yaradanın danlağı qarşısında özlərini müdafiə edə bilməzlər.[3]

Onlar öz sözlərinə Əhdi-ətiqdəki bəzi cümlələri dəlil gətirirlər: "Doğrudan da, yer üzündə elə saleh adam yoxdur ki, Yalnız yaxşılıq edib heç bir günah etməsin."[4]

İslamda peyğəmbərlik və vəhy

## vi. A. İslamda vəhy

İslam dininə görə, bütün varlıqlar Allahla rabitədə bir növ şüura malikdir. Buna görə də, onların hamısı bir növ ilham və vəhydən bəhrələnə bilər.[5] Ümumiyyətlə, "vəyh" kəliməsi Qurani-kərimdə müxtəlif mövzularda işlədilmişdir:

- Lüğəvi yəni; işarə mənasında: Sonra (Zəkəriyya) mehrabdan (məbəddən) öz camaatının qabağına çıxıb (əli ilə) onlara belə işarə etdi: Səhər-axşam (Allahı) təqdis edib şəninə təriflər deyin! (Və ya namaz qılın!) Məryəm\11

1. Çıxış, 16:10 -un şərhində Məxilta, 48 A
2. Şabat, 55 B
3. Əraxin, 17 A
4. Vaiz 7:20; Sanhedrin 101 A
5. Quranın mövzularla təfsiri, Cavadi Amuli, c. 3, səh. 54

Həzrət Əli (ə) Nəhcül-bəlağədə buyurur: "Allah-təala peyğəmbərləri ən üstün xislətləri ilə seçdi və onları yaxşı bellərdən pak-pakizə bətnlərə köçürdü. Onlardan biri dünyadan getdikdə başqa birisi ondan sonra Allahın dinini yaymaq üçün ayağa qalxıb, *ilahi hökmlərin təbliği ilə məşğul olmuşdur*. Böyük Allah peyğəmbərləri seçdi, onlardan vəhy və risalətin təbliği üçün əhd-peyman aldı *ki, Haqq-təala tərəfindən onlara çatdırılanların hamısını yerinə yetirəcəklər və xalqı Allahı tanımağa dəvət edərək, bu yolda heç nədən çəkinməyəcəklər*. Çünki, insanların çoxu ilahi əhd-peymana vəfa etmədilər. Onun haqqını bilmədilər *və Onu vahid saymadılar* və Ona bənzərlər, şəriklər qoşdular. Şeytanlar onları ilahi mərifətdən daşındırdılar, *aldatdılar.*

Beləliklə, Allah-təala onların arasından Öz peyğəmbərlərini seçərək onlarda fitri olan Tanrının əhd-peymanını tələb etmək və unudulmuş neməti xatırlatmaları, təbliğ yolu ilə onlarla söhbət etmələri, *dəlillərlə danışmaları,* gizlənmiş ağılları üzə çıxararaq işə salmaları və Allahın qüdrət nişanələrini onlara göstərmələri üçün onları bir-birinin ardınca göndərdi. *Peyğəmbərlər* elə elçilər idilər ki, dostlarının azlığı və onlara qarşı çıxanların çoxluğu onları çəkindirmədi."

Yəhudilik və xristianlığın heç birində islam dinində olduğu kimi, vəhy və peyğəmbərlik sistemi münəzzəm və müəyyən hədəfə uyğun olaraq tənzimlənməmişdir. Yəhudilikdə peyğəmbərlik ilk növbədə "Allahın seçilmiş xalqı" olan yəhudilərə xas olduğu üçün ümumbəşəri dəyərə və faydaya malik deyil. Peyğəmbərlərin yalnız yəhudilərin rifahı və paklığı üçün gəldiyinə etiqad bəslənir. Bir halda ki, islam dininə görə peyğəmbərlər insanları doğru yola yönəltmək üçün göndərilmişdir. Əlbəttə, bəzi peyğəmbərlərin öz xalqına, tayfalarına göndərildiyi həqiqəti də mövcuddur. Lakin bu o demək deyildir ki, həmin xalq və tayfa başqalarından üstün olduğu üçün onlara xüsusi peyğəmbər göndərilmişdir. Yaxud bu mənaya deyildir ki, həmin peyğəmbərin ilahi kəlamları yalnız həmin xalqa məxsusdur.

Yəhudidlikdə vəhyin həqiqiliyini və peyğəmbərin sadiqliyini müəyyən edən xüsusi və ideal şərtlər mövcud deyildir.

## vii. Süleyman peyğəmbər (ə)

İncilin zinakar, şərabxor, bütpərst və arvadbaz adlandırdığı Süleyman peyğəmbərə (ə) Quranın baxışı ilə baxaq:

1. Süleyman (ə) Allah yanında uca məqam sahibidir. *(Sad, 40)*
2. Küləklərin, cinlərin, mis mədənlərinin, heyvanların, ümumiyyətlə, hər bir şeyin hökmranlığı onun ixtiyarında idi. *(Ənbiya, 81- 82; Səba, 12-13; Sad, 36-39)*
3. O elə hikmət sahibi idi ki, bütün canlı və cansızları hökmranlıq etməsinə baxmayaraq həmişə məntiqə, ali zəkaya uyğun söz danışandır. Olduqca ədalətli bir insan idi. Hətta «şanapipik»lə danışarkən də, haqq-ədaləti itirmədi. *(Nəml, 20, 44)*
4. Quran nəzərində həzrət Süleyman (ə) elə gözəl bəndə idi ki, həyatı boyu yeganə arzusu ilahi nemətlərinin şükrünü yerinə yetirmək olmuşdur: «(Süleyman) dedi: İlahi, mənə və ata-anama verdiyin nemətə görə şükür edə şükür deyə, və sənin razılığını qazanmaq üçün saleh bir iş görüm deyə, ilham ver mənə! Rəhmətinlə saleh, pak əməlli bəndələrin sırasına sal məni!» *(Nəml, 19)*
5. O elə təmiz qəlbli Allah bəndəsi idi ki, qarışqaya da belə bilərəkdən zülm etməyə izn vermirdi. *(Nəml, 17-19)*
6. Süleyman (ə) hər vaxt dünya işlərilə məşğul olduqda öz-özünə söylərdi: «Heyf ki, yaxşı işlərə əlaqəm məni özümə məşğul etdi.» *(Sad, 32)*

## viii. Harun

İslam dininə istinadən, Harun (ə) Musa (ə)-ın canişini sayılır. Onun imamət məqamına da sahib olduğu iddia olunur. Elə bu səbəbdən də İncildə qeyd olunan «buzov» əhvalatı tamamilə fərqli şəkildə Quranda zikr olunur. Qurani-kərim Samiri adlı birisinin «buzov bütü» düzəltdiyini, Harunun (ə) isə onun əleyhinə səylərini tamam-kamal açıqlayır. Harun (ə) Samiriyə mane olmağa çalışsa da, bəni-İsrail tayfası onun sözlərini qəbul etmir. *(Taha, 85, 98, 150-151)*

Gördüyünüz kimi, İslam dininin ən müqəddəs mənbəyi və ilahi kitabı olan Qurani-kərim peyğəmbərləri necə də ən gözəl xüsisiyyətlər ilə təsvir etmiş və onları çirkin əməllərdən uzaq saymışdır. Əhli-beytin kəlamlarında da, elə bu şəkildə peyğəmbərlərə dəyər verilmişdir.

«Davudun vaxtında əri cəbhədə ölən qadınları almağı nəhs bildiklərinə görə, heç kim onlarla evlənmirdi. Oriya döyüşdə şəhid oldu. Davud (ə) Allahın əmrilə onun arvadını aldı. (Ki, xalq arasına olan bu xurafi əqidə öz təsirini itirərək, qüvvədən düşsün.) Camaata da, belə iş qəribə gəldiyinə görə, bir sıra səfeh, şüursuz əfsanələr qurdular.»

Məsələlərin ciddiliyini və əhəmiyyətini nəzərə alaraq Qurani-kərimin Həzrət Davuda (ə) olan baxışıyla tanış olaq:

1. «O, şəriət və müqəddəs kitaba malik olan peyğəmbər idi.» *(Nisa, 163; İsra, 35)*
2. «Allah ona hökumət və hikmət bağışlamışdır. İstədiyi hər bir şeyi Davuda (ə) öyrətmişdir.»
3. «Allah ona hünər və sənət öyrətmiş, kəramət bağışlamışdır.» *(Ənbiya, 80; Səba, 10)*
4. «Ona pak-saleh övlad vermişdir.» *(Süleyman, ;Sad, 30)*
5. «Davud (ə) qüdrət, qüvvət və nemət sahibi olmasına baxmayaraq, həmişə Allahı yad edərdi. Bir an belə Allahdan qafil olmazdı.» *(Sad, 17)*
6. «Biz dağları Davuda ram etdik ki, axşam-səhər onunla birgə Allahı təsdiq edib, Tanrının şəninə tariflər deyərlər. Biz quşları da toplu halında ona ram etmişdik. Və hamısı Davuda tabe idilər. Biz onun hökumətini möhkəmləndirdik. Ona hikmət, düzgün hökm vermək qüdrəti öyrətdik.» *(Sad surəsi)*

### ix. 5- Əyyub peyğəmbər (ə)

Qurani-kərim Əyyubun (ə) ilahi imtahanlardan üzü ağ çıxdığını söyləyir və buyurur: «Onun səbrini gördük. Nə gözəl bəndə idi. Şübhəsiz daim Allaha doğru üz tutan adam idi.» *(Sad, 44)*

İmam Sadiq (ə) buyurur: «Şeytan Allaha Əyyubun ona verdiyi nemət xətrinə sadiq olduğunu dedi və Allahdan onu imtahan etməsini dilədi. Allah (ki, bilirdi Əyyub mömin bir bəndədir ki, lakin şeytana sübut olması üçün) peyğəmbərin var-dövlətini əlindən alıb, onu çox məhdud və az zaman sürən ağır xəstəliyə düçar etdi. Arvadı ona vəfalı olaraq, çətin halında tərk etmədi. Bəni-israil rəhbərləri Əyyuba dedilər: «Sən günahkarsan, elə bu səbəbdən də, belə bəlaya dücar olmusan.» Amma o, dözümlü olaraq, imtahandan üzü ağ çıxdı.» (ixtisarla)

## x. Davud peyğəmbər (ə)

Bütün İslam mənbələri İncildə Davuda nisbət verilmiş əməlin əksinə çıxaraq, ciddi surətdə bu işi böhtan sayaraq pisləmişlər:

Həzrəti Əli (ə) buyurur: «Hər kimi yanıma gətirsələr ki, desin: «Davud (ə) Oriyanın arvadı Varsiviya ilə qeyri-qanuni cinsi əlaqədə olub, ona iki cəza müəyyən edərəm. Biri peyğəmbəri təhqir etdiyi üçün (80 şallaq zərbəsi), digəri isə İslam üçün! (Yəni İslam qanununda belə belə böhtan söyləməyə 80 şallaq zərbəsi düşür.)»[1]

İmam Rza (ə)-dan bu barədə sual olunduqda çox narahat olaraq buyurur: «Sübhənallah! Çox qəribədir. Belə çirkin əməli Allah peyğəmbərinə necə nisbət verirlər?! O necə peyğəmbərdir ki, öz namazını bir göyərçindən ötrü tərk edir. Bu, bir günah!

Namazı buraxandan sonra, xırda uşaqlar tək göyərçinin ardınca dama çıxır?

Sonra damın üstündən gözəl bir qadını görür... Göyərçini tərk edərək ona vurulur? Bu ikinci günah!

İyrənc iş görür (namusa toxunur), bir halda ki, o qadının ərli olduğunu bilir! (Bu üçüncü günah!)

Kələk qurur, qadının ərini öldürtdürür. (Dördüncü günah - müəllif)

Bu ilahi fərmanlarından üz döndərməkdir! Bu çirkin işdir! Bu zinadır... Günahsız şəxsi öldürtməkdir! Ərli arvada toxunmaqdır! Görəsən bütün bu günahlarla, o necə Allah peyğəmbəri oldu?!»

İmam Sadiqin (ə) bu barədə olan etirazına diqqət edin:

Camaatın hamısının razılığını ələ gətirmək olmur. Onların ağzını bağlamaq mümkün deyil! Görmədinmi, necə də bu nalayiq işi Həzrət Davuda (ə) nisbət verdilər?

Guya o, quşun ardınca sarayın damına çıxdı? Gözü Oriyanın arvadına düşdü? Ona toxundu? Ərini ön cəbhəyə göndərdi ki, öldürsünlər? Sonra isə onun arvadı ilə evləndi?

İmam Rza (ə) isə məsələni olduqca gözəl formada aydınlaşdırır:

---

1. «Məcməül-bəyan», Sad surəsinin 21-25-ci ayələrinin təfsiri və həmçinin Fəxrrazinin təfsiri, eyni surə və ayələr.

12. «Həzrət İbrahim (ə) bütpərəstlərlə elmi mübarizədə güclü dəlillərə və Allah tərəfindən bəxş olunmuş əsaslı məntiqə malik idi.» *(Ənam, 83)*
13. İbrahim (ə) Allahın itaətkar və daim Onun «əmrlərinə təslim olan» nəcib bəndəsi idi: «O, təkallahlı və müsəlman idi.» *(Ali-İmran, 67-68)*
14. O, ölümün gözünə dik baxan, şücaətli və qorxmaz idi. Buna sübut, onun oda atılması və cəsarətlə bütləri sındıraraq, məhv etməsi idi. (Ənbiya və Saffat) İbrahim (ə) peyğəmbərin bütləri sındırdığı üçün oda atılması və Kəbəni tikməsinə İncildə işarə belə olunmayıbdır.

## xi. Yaqub peyğəmbər (ə)

Quranda Yaqub peyğəmbərin (ə) Allahla güləşməsindən, nə də qardaşı Evasa qarşı işlətdiyi hiyləgərlikdən söhbət açılmışdır. Qurani-kərimə görə, peyğəmbərliyə layiq görülən Yaqubun (ə) Tanrı qarşısında üsyan etməsi və ya hiyləgərlik, fırıldaqçılıqla onun xeyir-duasını oğurlaması mümkün deyil. Çünki Tanrı elçisinə yaraşmayan bir hərəkətdir.

Müsəlmanların ilahi kitabına istinad edərək arxayınlıqla demək olar ki, Yaqub (ə), Yusifi (ə) quyuya atan oğlanlarına, onun ölüm xəbərini gətirdikdə nəinki inanmadı, hətta onların bu çirkin hiyləsindən müdriklik və uzaqgörənliklə agah oldu. Doğrudur, o qəlbində (daxilində) qəmlənərək ağladı, gözləri tutuldu, lakin bu sakit və adi surətdə hicran, ayrılıqlar oğul-ata məhəbbətinin nişanəsidir. *(Yusif, 84)*

Yaqub peyğəmbər və Quranın təbirincə desək, bu imtahanda «gözəl səbir və dözüm» nümayiş etdirdi. Quranda Yaqub barəsində zikr olunan ayələrdə belə nəticəyə gəlmək olar:

1. Allahın sevimli peyğəmbəri olan İbrahim (ə) kimi əzəmətli peyğəmbərlə birgə adı çəkilən Yaqub (ə) öz övladlarını həmişə yalnız Uca Xaliqə pərəstiş etməyə çağırırdı. *(Bəqərə, 132)*
2. O, elm sahibi idi və bu elmi ona Allah özü bəxş etmişdi. *(Yusif, 68)*
3. O pərhizkar və imanlı bəndə idi. *(Ali-İmran, 93)*
4. Yaqub (ə) oğlunun ölüm xəbərin eşitdikdə dedi: «Mən bu işə (müsibətə) gözəl şəkildə səbirli və dözümlü olacağam. »» *(Yusif, 18)*
5. Qurana görə, hətta Yaqub ikinci sevimli oğlundan məhrum olduqda belə, yenə dedi: «Mən yenə də gözəl şəkildə səbirli və dözümlü olacağam.» *(Yusif, 83)*

## xii. İbrahim peyğəmbər (ə)

İbrahim peyğəmbərin adı Quranda 25 surədə 69 dəfə çəkilir.

Həzrət İbrahimin (ə) namussuzluq etdiyini söyləyən İncilin tam əksinə olaraq Qurani-kərim onu belə mədh edir:

1. O, həyatının əvvəlindən rəşadətli, cəsur, dünyagörüşlü və Allahpərəst bir şəxs idi: «Biz Musadan öncə İbrahimi irşad etdik, onun mərifətinə və ləyaqətinə kamilən agah idik.» *(Ənbiya, 51)*
2. O, dünyada seçilmiş və Axirətdə də saleh insanlardandır: «Biz onu dünyada seçdik və Axirətdə də salehlərdəndir.» *(Bəqərə, 130)*
3. O əvvəlcədən təkallahlı olmuş və heç vaxt müşriklərlə həməqidə olmamışdır. *(Ənam, 79)*
4. İbrahim (ə) o qədər ilahi, mənəvi kamilliyə çatmışdı ki, göylərin və yerin «gizli və uca səltənətini»[1] müşahidə edirdi, çox düzgün və yetkin imana sahib idi: «Beləcə İbrahimə göylərin və yerin «mələkutu»nu göstərdik ki, yəqin əhli olsun.» *(Ənam, 75)*
5. İstər rəftarında və istərsə də danışdığı sözlərdə doğru, layiq bir peyğəmbər idi: «Quranda İbrahimi yad et ki, o çox doğrucul və Allah tərəfindən göndərilən peyğəmbər idi.» *(Məryəm, 41)*
6. «O Allahın mömin və xeyirxah bəndəsi idi.» *(Saffat, 109-111)*
7. Pak, təmiz qəlbli idi: «O vaxt ki, İbrahim pak qəlblə Allah tərəfindən xalqı doğru yola yönəltmək üçün gəldi.» *(Saffat, 84)*
8. «İbadətində və xeyirxahlıqda qüvvət sahibi və bəsirətli insanlardan idi ki, baxışında xəta, səhv yoxdur. O, məxsus ixlasa malik Allah bəndəsi, həmişə Axirəti yad edən bir şəxs idi. O, seçilmişlərdən və yaxşı əməl sahiblərindən idi.» *(Sad, 45-47)*
9. O, «peyğəmbərlik» məqamından əlavə «imamlıq» rütbəsinə də layiq görülmüşdü: «Allah (İbrahimə): «Səni insanlara imam təyin edirəm.» *(Bəqərə, 124)*
10. O, Qurana istinadən «Ulul-Əzm» -əzəmətli beş peyğəmbərdən biridir ki, ibarətdir: «İbrahim (ə) Nuh (ə), Musa (ə), İsa (ə) və Məhəmməd (s).» *(Əhzab, 7; Şura, 13; Ə`la, 18-19)*
11. «İbrahim (ə) Allah tərəfindən verilmiş yazıya (sühufa) malikdir.» *(Ə`la, 19)*

---

1. Dini istilahda bu «mələkut» adlanır.

- Allah-təala kamilliyin özü və həqiqətidir. Ən ali varlıq olan Bənzərsiz Yaradanla (birbaşa və ya vasitəli) əlaqə saxlayan, onun əmrlərini eşidən, xalqa çatdırmağa məsul olan şəxs, özü də bu yüksək məqama ləyaqətli olmalıdır. Allahla söhbətə hər insan layiq görülə bilməz! Yalnız buna çıxarı olan, pak dəyərli insanlar belə dərəcəyə yetişə bilər.

Əhdi-ətiqin günahkar, bütpərəst, zinakar və sair kimi pis əməllər nisbət verdiyi peyğəmbərlərin Qurani-kərimdə təsviri:

### xiii. Lut peyğəmbər (ə)

Biz Qurana baxdıqda müxtəlif surələrdə Lut peyğəmbərin (ə) adının 27 dəfə çəkildiyinin şahid oluruq. Onları oxuduqda Quranın Luta (ə) münasibəti barədə belə nəticə almaq olar:

1. Lut inamlı və etibarlı peyğəmbər idi. *(Şüəra, 162)*
2. Xalqı daim paklığa doğru çağırardı. *(Şüəra, 163)*
3. Lut və ardıcılları pakizə adamlar idi. *(Nəml, 56; Əraf, 82)*
4. Lut qeyrətli və qonaqpərvər idi. *(Hicr, 68)*

Quran Həzrət Lutun (ə), çox çirkin işlə-homoseksualizmlə məşğul olan tayfasına qarşı etdiyi təblağatından söz açır. İlahi peyğəmbərlərə xas olan cəsarətlə, onları bu iyrənc işdən uzaqlaşdırmaq üçün çalışdığını söyləyir. Amma həddini aşmış pozğun insanlar Lutu və onun tərəfdarlarını şəhərdən qovmaqla hədələyirlər.

Müsəlmanların müqəddəs kitabı, Həzrət Lutun (ə) tayfasının öz qonaqlarına (iki cavan cildinə girmiş mələklərə) qarşı da pis niyyətdə, zorakılıq qəsdində olduğunu gördükdə böyük mərdliklə qızlarını onlara arvadlığa təklif etməsini yazır. Belə ki, bu azğın tayfanı ram edib yola gətirmək istəyən Lut (ə) bütün vasitələrə əl atsa da, rədd cavabı alır. Sanki qorxunun nə olduğunu bilmək istəyən insanlar, «Allahdan bizə əzab istə» deyə onu ələ salırdılar. Lutun (ə) qonaqları ilə cinsi əlaqə istəyindən vaz keçə bilməyən ədəbsiz insanlar, onun hər bir təklifini qulaq ardına vururdular. Nəhayət, Lut onlara deyir: «Sizin aranızda başa düşən bir nəfər yoxdurmu?» Və Allah Luta oranı tərk etməyi əmr edir. Lut öz ailəsi və ardıcılları ilə oranı tərk etdikdən sonra Tanrı o tayfanı yerlə-yeksan edir. Qurani-kərim İncilin Luta (ə) nisbət verdiyi əməl barəsində heç bir məlumat vermir. Çünki müsəlmanların bu səmavi kitabı peyğəmbərləri belə şərəfsiz əməllərdən uzaq və pak sayır.

> 6. 44-cü fəs., 19-32-ci cüm: «Məndən sonra göndəriləcək peyğəmbər elm və məsləhət ruhu ilə zinət verilib. Hikmət və bacarıq ruhu ilə bəzədilib. Qorxu və məhəbbət ruhu ilə ali düşüncə və humanist ideyalarla dolu, məhəbbət və rəhmət peyğəmbəridir. Ədalət və pərhizkarlıq, lütf və səbr ruhu ki, adi insanlardan qat-qat çoxdur, ona əta edilmişdir. Necə də xoşbəxtdir onun dövründə yaşayıb ona iman gətirənlər! Siz də şahid olun ki, mən onun haqq niyyətini görüb ehtiramla onun qarşısında baş əydim. Bütün peyğəmbərlər də onun haqqında eşidərkən belə edib. Mən onun gəlişini əvvəlcədən bilib təsəlli tapdım və dedim: «Ey Məhəmməd, mən fəxr edərəm ki, sənin xidmətində olum.»

Bundan əlavə Barnaba incili 22-ci fəs., 20-ci cüm., 94-cü fəs., 16-19-cu cüm., 55-ci fəs., 22-ci cüm., 43-cü fəs., 13-15-ci cüm., 39-cu fəs., 14-16-cı cümlələrdə də Məhəmməd peyğəmbərin (s) barəsində çoxlu məlumatlar vardır ki, onları burada yazmaq imkan xaricindədir.

## Qurani-kərimdə peyğəmbərlərin təsviri

Qurani-kərimin simasında İslamın peyğəmbərlərə olan münasibəti birmənalıdır. Ən başlıcası budur ki, Quran peyğəmbərləri hər günah və çirkin əməldən uzaq, pak sayır. Qurana görə peyğəmbər heç vaxt günah etməz və ümumiyyətlə, peyğəmbər seçilmiş şəxs günahkar olmamalıdır. Bunun da bir neçə səbəbi vardır:

- Allahın əmrlərini xalqa yetirən hər peyğəmbər, əgər özü onlara əməl etməzsə, xalqı doğruluğa, paklığa çağıraraq özü isə bunun əksinə əməl edərsə, camaat arasında onun etibarı itər. Və həmçinin söylədiyi əmrlər də etibarsız sayılır. Nəticədə xalq dindən uzaqlaşar, peyğəmbərə inanmaz. Bu da hikmətli və müdrik Yaradanın insanları doğru yola yönəltmək hədəfinə uyğun olaraq atıla biləsi düzgün addım deyildir. Çünki Allahın məqsədilə tənasüb daşımır.
- Peyğəmbər günahkar və xətakar bir şəxs olarsa, dini dəyişə bilər. İlahi buyruqlarını olduğu kimi insanlara çatdırmaq əvəzinə, öz şeytani istəyinə və şəxsi mənafeyinə uyğun olaraq açıqlayar. Allah isə belə adamı peyğəmbər seçməz!
- Peyğəmbər əslində insanlar üçün ən gözəl nümunədir. Xalq təkcə onun söylədikləri ilə deyil, həqiqətdə peyğəmbərin əməli və rəftarı ilə islah olunur, Allaha doğru yönəlir.

İsanın şagirdləri soruşdular: «Ey müqəddəs müəllim! Söylədiyin şəxs kimdir?!»

Həzrət İsa (ə) buyurdu: «O, Allahın pak peyğəmbəri Məhəmmədir (s)! O gəldikdə, uzun müddət yağışa həsrət qalmış torpağın güclü yağışın köməyilə bar verdiyi kimi, yer üzü mənəvi bərəkətlə dolacaqdır. O öz saleh əməllərilə insanları düzlüyə doğru yönəldəcəkdir...»

2. 2-ci fəs., 13-17-ci cüm.: «Mən bilirəm ki, məni düşmənlərimə satan adam özü mənim yerimə dara çəkiləcəkdir. Çünki Allah məni səmavi səltənətə aparacaq, düşmənlərimsə elə xəyal edəcəklər ki, məni öldürmüşlər... Amma Tanrının sevimli elçisi Məhəmməd (s) gələrək bu cəfəngiyatlara son qoyacaq.»
3. 220-ci fəs., 19-20-ci cüm.: «Mən İsa Məryəm (ə) oğlu günahsızam. Lakin bəzi adamlar mənim haqqımda söyləyəcəklər ki, «o, Allahdır», «o, Allahın həqiqi oğludur.» halbuki, mən heç vaxt belə söyləmərəm.

Bədxah əməlli insanlar (mənim həqiqi təlimlərimin məhv olduğunu görüb) sevinərlər. Elə güman edərlər ki, məni çarmıxa çəkdilər. Onlar daim istehza edərlər. Tanrı bu sözləri bəyənməyəcək və Onun iradəsi istəməyəcək ki, şeytanlar qiyamət günü mənə gülüb ələ salsınlar.

Elə bu səbəbdən də, bu gülüşlər və ələsalmalar tanrı elçisi (s), Məhəmməd gələnə qədər qalacaq. O, yer üzünə gəldikdə hər bir imanlı şəxs bunun yanlış və yalan olduğunu anlayacaq. Çünki o, «şeytanın ölü qardaşlarının» ört-basdır etdiklərinin üstünü açaraq faş edəcək. Bu şübhə, beləliklə, pak-qəlblilərin ürəyindən silinəcəkdir.»

4. 36-cı fəs., 6-8-ci cüm.: «Artıq bütün peyğəmbərlər gəlib, Allahın sonuncu elçisindən başqa. O məndən sonra gələcəkdir. Mən onun üçün şərait hazırlamağa gəldim. Ondan sonra heç peyğəmbər gəlməyəcək, amma yalançı peyğəmbərlər tapılacaq.»

«Soruşuldu: «O kimdir?»

İsa (ə) buyurdu: «Onun adı Məhəmməddir!»

5. 69-cu cüm. fəsil, 158-159-cu cüm.: «Allah yer üzünə rəhm edəcək və öz peyğəmbəri Məhəmmədi (s) onlara yollayacaq... O, cənubdan gələcək. Bütlərin və bütpərəstlərin kökünü kəsəcək. Bəşərə hakim kəsilmiş şeytanı məyus edəcək. Ona iman gətirənlər nə xoşbəxtdirlər!»

Pavel həvarilərin işləri, 15-ci fəs., 36-39-cu cümlələrdə Barnaba ilə olan mübahisənin, Markı özü ilə təbliğ aparmaq barəsində olduğunu yazsa da, Barnaba öz incilində bunun səbəbini üç şeydə görür: 1-Pavelin «sünnəti» ləğv etməsini.

İsanı «Allahın oğlu» bilməsini. 3-Qadağan olunmuş ətləri halal bilməsini. O həmçinin «üç üqnum əqidəsinin» əleyhinə də çıxaraq, onu rədd edir. Bu əqidənin hələ İsanın (ə) dövründəki bütpərəstlərə aid olduğunu vurğulayaraq Məsihin (ə) onları lənətlədiyini söyləyirdi. *(Barnaba incili, 22-ci fəs., 1-5-ci cüm.; 2-ci fəs., 10-11-ci cüm.)*

İndi isə Barnaba incili haqqında: Barnaba incili 325-ci ilə kimi İskəndəriyyə kilsələrində istifadə edilirdi. Və hamı onu müqəddəs kitab kimi qəbul edib, göstərişlərilə oturub-dururdu. Amma 325-ci ilə Nikeyya şurasında Pavelin «üçlük» əqidəsi rəsmən qəbul olunduqdan sonra isə, bu əqidənin əleyhinə aşkar dəlillərlə dolu olan məhkum olunmuş 300-ə qədər incilin arasında Barnaba incili də yer aldı. Digər incillər kimi onu oxumaq da haram sayılaraq ona etiqad bəsləyənlər təqib olundu. Dasasyus (366-cı ildə) Gelasyus (395 m i), İnusənt (465 m i), Hermisdas (514) və sair «papalar» müxtəlif illərdə onu oxuyanları cəzalandırmaq əmrini vermişdi. Elə bu səbəbdən də itirildi. Bu kitab, 475-ci ildə Barnabanın qəbri kəşf olunarkən tapıldı.

Amma bu barədə heç bir əlavə məlumat verilmədən, yoxa çıxarıldı. Bu vəziyyət XVII əsrə qədər davam etdi. Amma onun yunan və latın dillərində olan nüsxələri 1645-ci ildə tapılaraq yenidən çap edildi. Amma onun bütün nüsxələri kiminsə tərəfindən elə satışa çıxarılan gün alınaraq məhv edildi. Fələstində tapılmış digər nüsxələrlə birgə təkmilləşdirilmiş Barnaba incili, nəhayət, ki, müxtəlif illərdə yenidən çap üzü gördü: 1859, 1865, 1900 və s.

Qədim nüsxələrdən sayılan İtalyan və İspan dilində olan incillər indi də dünya alimlərinin diqqət mərkəzindədir.

Barnaba incili, Məhəmməd (s) peyğəmbərin gəlişi haqqında, İsanın (ə) söylədiklərini olduğu kimi nəql edir. Onun gələcəyi barəsində əvvəlcədən ətraflı şəkildə xəbər verdiyini söyləyir. Biz onlardan bir neçəsini sizə təqdim edirik:

1. Barnaba incili, 163-cü fəsil, 1-11-ci cümlələr: «Bir şəxs gələcəkdir ki, millətlər onu gözləyirlər. Nə xoşbəxtdir o kəslər ki, onun müqəddəs kəlamlarını dinləyəcəklər. Allah-təala onun həqiqi tərəfdarlarına öz rəhmət sayəsini salacaqdır. Necə ki bu xurma ağacı bizi öz kölgəsi altına alıb və bizi qızmar günəşin odlu şüalarından qoruyur. Allahın rəhməti də ona həqiqi iman gətirənləri şeytanın fitnəsindən qoruyacaqdır.»

«Başqa bir «təsəlliverici» ibarəsindən məlum olur ki, məqsəd «müqəddəs ruh» deyildir. Çünki məsihilərin özlərinə də gün kimi aydındır ki, müqəddəs ruhun «başqası» olmur. Burada söhbət göndəriləcək «peyğəmbərdən» gedir.

6. Yəhya incili, 12-ci fəs., 7-15-ci cümlələrdə deyilir: «Bununla mən sizə həqiqət söləyirəm. Mənim getməyim sizin üçün xeyirlidir. Çünki mən getməsəm, «təsəlliverici sizin yanınaza gəlməz.»

Yuxarıdakı cümlələrdən belə başa düşülür ki, gələcək «təsəlliverici» İsadan (ə) daha əhəmiyyətli və xeyirlidir. Halbuki, xristianların əqidəsinə görə «müqəddəs ruh» heç vaxt İsadan (ə) üstün və xeyirli ola bilməz. Deməli, söhbət daha xeyirli və kamil şəriət gətirəcək peyğəmbərdən gedir ki, o, İsadan (ə) sonra gələn yeganə peyğəmbər - Məhəmmədə (s) işarədir.

## Barnaba incili

Barnaba İsaya (ə) ilk iman gətirənlərdən idi və onun «həvarisi» sayılırdı. Çox güman ki, Luka 6/16 da indiyədək kimliyi açıqlanmayan 11-ci həvari (Yəhuda) Barnaba idi. Və onu ikinci ləqəbilə yazmışlar. Həvarilərin işləri, 4-cü fəs., 36-cı cümlədə belə yazılır: «Kiprdə anadan olmuş Levili Yusif də (ki, həvarilər ona Barnaba ləqəbini verdilər, bu da «Təsəlli oğlu» deməkdir)...»

O, Markın qohumu idi. *(Koloslulara, 4-cü fəs., 10-cu cüm.)*

Barnaba, Pavelin təbirincə «Müqəddəs ruh və imanla dolu, yaxşı bir adam idi.» O, İsanın (ə) sevimlisi idi. Elə buna görə də hamının yanında, xüsusilə də, həvarilərin yanında çox böyük hörmət, nüfuz sahibi idi. Hətta Paveli həvarilər öz yanlarına qəbul etməyib qovanda, o məhz Barnabaya pənah gətirdi. Və həvarilər Barnabanın xətrinə Paveli özlərinə yaxın buraxdılar. *(Həvarilərin işləri, 9-cu fəs., 2 6-27-ci cüm.)*

O, Yerusəlimdəki cəmiyyətin aparıcı qüvvələrindən biri olaraq Antakiyaya və digər bölgələrə İsanın (ə) dinini təbliğ etməyə gedir və çox böyük naliyyətlər əldə edirdi.

Əlbəttə, demək olar ki, Pavellə kəskin mübahisəsindən sonra onun adı, «naməlum əllər» tərəfindən incil və risalələrdən silindi. Və bu mübahisədən sonrakı məlumatlarda məsihiyyət dininin yaranışı və təbliğində bənzərsiz zəhməti olmuş Barnaba barəsində heç bir məlumat verilmir.

Diqqət etmək lazımdır ki, əsl həqiqətdə bu söz «farqalit» deyil, «feriklit»dir.[1] Və «həmd olunmuş, təriflənmiş» mənasınadır ki, ərəbcə «Əhməd, Məhəmməd» adlanır.

2. Yəhya incili digər incillərin tam əksinə olaraq ibrani dilində deyil, yunan dilində yazılmışdır. Yəni İsanın (ə) ana dilində deyil, əcnəbi dilində yazılmışdır. Onu da xatırlatmaq lazımdır ki, əvvəlki fəsillərdə deyildiyi kimi, bu incili İsanın (ə) həvarisi adlanan Yəhya yox, başqaları yazaraq ona nisbət vermişdir. Bildiyiniz kimi, Yəhya incilini yazan yəhudilər o dövrdə məşhur olan Filonun[2] fəlsəfi məktəbinin tam təsiri altında onu qələmə almışlar. Elə bu səbəbdəndir ki, Yəhya incilində bütün incillərdən fərqli, onlarda olmayan fəlsəfi mətləbləri qələmə alınmışdır. Bu incili yunanca yazan yəhudilər ya naşılıq, savadsızlıq və ya da qəsdən «feriklit» kəlməsinin yerinə əslində heç bir məna daşımayan «farqalit» kəlməsini yazmış, və «qərəzli əllər» onu tərcümə edərkən «həmd olunmuş» əvəzinə «təsəlliverici» kimi tanıtmışlar.

3. İncilin qədim siryani nüsxəsində «Periclyte» kəlməsində («həmd olunmuş») yazılmışdır. Onun əski arami nüsxəsində də, «mihəmdə» və «həmidə», yəni «Əhməd» və «Məhəmməd» yazılmışdır.[3]

4. İncildə gəlişindən xəbər verilmiş «təsəlliverici»nin nişanələrindən aydın olur ki, o müstəqil bir şəxsdir. Lakin incillərdən oxuduğumuz kimi, məlumdur ki, «müqəddəs ruh» müstəqil şəxsiyyət deyil, bəlkə həvarilərə ilham verən, təlim verən, elm bəxş edən ilahi iradəsi və ruhudur. *(Korinflilərə, 1-ci məktub, 2-ci fəs., 11-14-cü cüm.)* Deməli, sözü gedən «təsəlliverici»dən məqsəd müqəddəs ruh deyildir.

5. Bəşarət verilmiş cümlələrdə deyilir: «Daim sizinlə bərabər olmaq üçün sizə başqa bir «təsəlliverici» versin.» *(Yəhya, 14-cü fəs., 15-ci cüm.)*

---

1. Piriclyte
2. Philon
3. Professor Əbdül-Əhəd Dadud, «Məhəmməd Bibliyada», səh. 239.

Lakin maraqlıdır ki, Həzrət İsa (ə) burada da öz şagirdlərinə təhrifə yol verməməyə, özünün göylər səltənətinə gedişindən sonra bu əhəmiyyətli xəbəri yaddan çıxarmamağa əmr edir. Xəbərin unudula biləcəyindən ehtiyat edən İsa (ə) peyğəmbər həvarilərinə «xəbər»in gələcək nəsillərə öyrədilməsi üçün, (bir növ şahidlik etməyi) çalışmağı tapşırır. Onun ilahi peyğəmbər olacağını, İsanı (ə) təsdiq edəcəyini də «gələcək peyğəmbərin» nişanəsi kimi qeyd edir.

«Amma mən gedərəmsə, onu sizə göndərərəm.» (həmin yer, 9-cu cüm.) «Mən getməsəm, o sizin yanınıza gəlməz.»

İncillərdən məlum olduğu kimi, «müqəddəs ruh» daim İsanın (ə) yanında və həvarilərlə birgə idi. O heç vaxt onlardan ayrı düşməmişdi. Onun həvarilərlə əlaqə saxlamasının İsanın getməyilə heç bir rabitəsi yoxdur. Deməli, «müqəddəs ruhun göndərilməsi» mənasızdır. Göndəriləcək şəxs «peyğəmbər» dir, nəinki «müqəddəs ruh».

### «Təsəlliverici» barəsində tədqiq (İslam baxımından)

Əvvəldə işarə edildiyi kimi, islam alimləri «təsəlliverici»dən məqsəd Ruhul-qüds (müqəddəs ruh)un olmadığını və Məhəmməd peyğəmbərin (s) olduğuna etiqad bəsləyirlər. Bu barədə olan çoxsaylı dəlil-sübutların bir neçəsinə işarə edirik:

1. «Təsəlliverici» kəlməsi yunan sözü kimi qələmə verilən «Farqalit»dən[1] tərcümə olunmuşdur. Əslində isə «Farqalit» «şəfaət edən, təsəlli verən» mənasında deyildir. Həqiqətdə «Farqalit» sözü heç yunan dilində də gözə çarpmır. Yunan dilindən azca məlumatı olan hər kəs bilir ki, «təsəlliverici» yunanca «Farqalit» yox, «farakailok»[2] adlanır. Belə ki, Ermiya nəbinin kitabında ibranicə «minaxim» – «təsəlliverici» sözünün yunanca tərcüməsi «frakailon»dur, «farqalit» deyilir. Bundan əlavə yunanca «sunegorus» və «meditea» kimi «təsəlliverici, şəfaət edən» mənalı sözlər də vardır. Deməli, «Farqalit» kimi yeni kəlmə yaratmağa heç bir ehtiyac yox idi. Yunanca heç bir mənası olmayan, kimin quraşdıraraq incilə artırdığı bəlli olmayan «farqalit» kəlməsinin «təsəlliverici» kimi tərcümə olunması çox təccüb doğurur.

---

1. Paraclete
2. Parakalon

**Şərh:**

«Başqa bir «təsəlliverici» ifadəsindən məlum olur ki, söhbət «göndəriləcək peyğəmbər»dən gedir. İsadan (ə) sonra isə Məhəmməddən (s) qeyri «başqa peyğəmbər» gəlməmişdir.

«Daim sizinlə bərabər olmaq üçün» ifadəsi isə, onun gətirəcəyi şəriət və kitabın, dinin əbədi olduğuna işarədir.

«Bu həqiqət ruhudur: onun dünya qəbul edə bilməz. Çünki onu görmür və tanımır. Siz isə onu tanıyırsınız. O, sizin yanınızda durur və sizin yanınızda olacaqdır.»

Burada qeyd olunan «həqiqət ruhunun», Ruhul-qüds olmaması barəsində gələn bölmədə olduqca ətraflı şəkildə bəhs olunacaqdır.

«Siz onu tanıyırsınız» və sairdən məqsəd isə Məhəmmədin (s) barəsində, xüsusilə də incildə verilmiş xəbərdir. İsa (ə) hətta öz qeybi elmilə bu xəbərin, incil təhrif olunduqdan sonra da tam silinməyəcəyini, sonrakı nəsillərə yetişəcəyini də vurğulayır. Elə bu səbəbdən də Quran buyurur: «Kitab verdiyimiz kimsələr (Əhli-kitab) oğullarını tanıdıqları kimi tanıdırlar, Məhəmməd (s) peyğəmbərə İman gətirməyənlər isə özlərinə ziyan vururlar.» *(Ən`am, 20)*

«Amma mənim adımla göndəriləcək təsəlliverici sizə hər şeyi öyrədəcək və sizə söylədiyim hər şeyi xatırladacaqdır... Bunu sizə baş verməzdən əvvəl söylədiyim ki, baş verəndə iman edəsiniz.»

**Şərh:**

«Mənim adımla göndəriləcək» - yəni İsanı (ə) təsdiq edəcək bir peyğəmbər. Necə ki Məhəmməd onu təsdiq etdi. «Hər şeyi sizə xatırladacaq» - Allahın Rəsulu (s) öz gəlişi ilə hər şeyi, bütün həqiqətləri, o cümlədən də öz gəlişi barədə incildə xəbər verilməsini xatırlatdı.

Sonuncu cümlədə İsanın (ə) təkidlə xəbərdarlığına fikir verin. O sanki bu sözlərin unudulmasından, təhrifə uğramasından qorxur, və bu barədə narahatdır.

Gəlin Yəhya incilinin 15-ci fəs., 26-cı cümləsinə diqqət edək:

«Atadan sizə göndərəcəyim «təsəlliverici» gəldiyi zaman mənim üçün şahidlik edəcək. Siz də (ona) şahidlik edərsiniz, çünki başlanğıcdan mənimləsiniz.»

Əziz oxucu, bu cümlənin Məhəmmədə (s) aid olması heç bir şəkk-şübhə doğurmur. Onun İsa (ə) barəsində söylədiklərini Qurana müraciət edən hər kəs aydın təsdiqləyər.

**Şərh:**

İslam peyğəmbəri (s) də öz gəlişi və səmavi kitabı ilə insanlara ört-basdır edilmiş həqiqətləri açıqladı. Qurani-kərim kimi kamil və daim doğru yolu açıqlayan ilahi kitab gətirdi. Necə ki, çoxsaylı Quran ayələrinə diqqət etdikdə oxuyuruq: «Doğru yol göstərir, rəhmət verir yaxşılara bu kitab!» (Loğman, 1.«Hər şeyi bəyan edən bu kitaba and olsun!» (Duxan, 2) «Şübhə yoxdur ki, bu kitab haqdan gəlib, təqva sahiblərinə doğru yolu göstərir.» (Bəqərə, 2)

«Ona görə ki, öz adından söyləməyəcəkdir. Amma (ilahi vəhydən) hər nə eşidərsə söyləyəcəkdir və gələcəyi sizə bildirəcəkdir.»

Bəli, azca fikirləşsək görərik ki, Qurandakı bütün sözlər birbaşa Allah adından söylənilir və bu kitabın heç bir yerində ayələrin Məhəmmədin (s) öz adından söylədiyinə rast gələ bilməzsiniz. Necə ki, Quranda buyurulur: «Məhəmməd heç vaxt «həvayi-nəfs» (öz-özündən, boş-boşuna» öz mənafeyi üçün) üzündən söz deməz. Onun dedikləri nazil olunmuş vəhydən başqa bir şey deyildir. Dediklərini ona çox güclü (mələk) olan Cəbrayıl öyrətmişdir.» *(Nəcm, 3-5)*

Həzrət Məhəmmədin (s) gələcəkdən verdiyi xəbərlər də göz önündədir. «Rum» surəsinə müraciət edən hər kəs bunun şahidi ola bilər.

«O məni izzətləndirəcəkdir, çünki mənim özümdən götürəcək və sizə bildirəcəkdir.»

**Şərh:**

Əvvəldə qeyd etdiyimiz kimi, İslam peyğəmbəri (s) İsanı (ə) həqiqətən də, izzətləndirdi. Onu təsdiq edərək mədh etdi. (Bu barədə İsa (ə) islam nəzərində» bölməsinə müraciət edin.) Ona atılan böhtan və iftiraları rədd etdi. Və özündən yeni bir din gətirmədiyini, Quranın isə İncil və Tövratda yazıların kamil bir forması olduğunu söylədi. Belə ki, Quran həqiqi tövrat və incili təsdiqləyir, onlardakı məlumatların təkamül və yekun zirvəsidir. Qurani-kərim buyurur: «Uydurma bir hədis deyildir bu Quran! Əvvəldə göndərilmiş kitabların təsdiqləyicisidir. Hər şeyin açıqlamasıdır. Doğru yolu göstərəndir. Rəhmət verəndir insanlara.» *(Yusuf, 111)*

Eləcə də Yəhya incili, 14-cü fəs., 15-17-ci və 26-29-cu cümlələr də Məhəmmədin (s) gəlişindən xəbər verir:

«Mən də, Atadan xahiş edəcəyəm ki, O daim sizinlə bərabər olmaq üçün sizə başqa bir «təsəlliverici» versin»

İnsanları bir olan Allaha ibadət etməyə dəvət etmişdir. Onu şirkdən münəzzəh saymışdır. «Üç üqnum əqidəsi»nin cəfəngiyat olduğunu dəfələrlə israr etmiş, «İsanın (ə) Allah oğlu olmadığını» bəyan etmişdir.

1. «Hökm barəsində olan səhv» həm də xristianların «şərtinin ləğv olunmuş», «məhkum olunmuş» hesab etmələri ilə yanlış addım atdıqlarına işarədir.

Yəni yuxarıdakı cümlələrdə «hökm» dən məqsəd «ilahi hökmlər-qanunlar», başqa sözlə desək, «şəriət» də ola bilər. Fəda inancına əsaslanaraq şəriətin ləğv olunduğunu düşünənləri məhz Məhəmməd (s) öz atəşin şəriəti ilə rədd etmiş, «həqiqi incil və tövratın» şifahi hökmlərinə əməl edənləri alqışlamışdır. Necə ki Qurani-kərimdə oxuyuruq: «İncil əhli Allahın onda nazil etdiyi (ehkam) ilə hökm etsin. Allahın nazil etdiyi ilə hökm etməyənlər, əlbəttə, günahkarlardır.» *(Maidə, 47)*

Digər ayələrdə indiki incil və tövratın tərhif olunduğunu dolayısı ilə də olsa bəyan edən Quran, həqiqətdə keçmiş dövrlərdəki incil və tövratın həqiqi hökmlərinə əməl edən insanların doğru yolda olduqlarına işarə edərək, xüsusi bir incəliklə şəriətin zərurətinə haqq qazandırır.

2. «Dünyanın başçısı»ndan məqsəd «şeytan» olduğunu bir fərziyyə kimi qəbul etsək, Məhəmmədin (s) gəlişi ilə şeytanın məhkum olmasını başa düşmək çətin deyildir. O öz peyğəmbərliyi ilə şeytanı məğlub edərək onun bütün hiylələrini, iftiralarını ifşa etdi. Və cahan həqiqəti anlamaqda acizlik çəkmədi.

3. Bəzi islam alimlərinin nəzərincə,[1] hətta cümlədəki «məhkum» sözü, «məmur» kəlməsinin təhrif olunmuş versiyasıdır. «Dünyanın başçısı» ndan məqsəd isə Məhəmməd (s) peyğəmbərdir. O, Tanrının sonuncu, kamil dinini gətirərək bütün dünyanı Allaha və islama doğru dəvət etməyə məmur oldu.

«Sizə söyləyəcəyim daha çox sözlərim var, amma indi bunlar sizdə sığmaz. O, yəni həqiqət ruhu gəldikdə, sizə hər həqiqətə yol göstərəcəkdir.»

---

1. Məhəmməd Sadiqi, «Bibliya bəşarətləri», səh. 226-227.

1. Tanrı elçisi Məhəmməd (s), İsaya (ə) nisbət verilmiş ilahi peyğəmbərlərə xas olmayan çirkin əməlləri (İsanın (ə) özünü «Allah» və ya «Allahın oğlu» adlandıraraq xalqı şirkə, çoxallahlılığa sürükləməsinin) cəfəngiyat olduğunu bəyan etmiş. Bu böyük günahın İsadan (ə) uzaq olduğunu, heç bir vaxt belə iddialar etmədiyini, yalnız insanları vahid Allaha sitayiş etməyə doğru çağırdığını söylədi.

«Salehlik barəsində (səhvləri ifşa edəcəkdir), çünki Atamın yanına gedirəm və artıq məni görməyəcəksiniz.»

**Şərh:**

1. Məsihilərin etiqadlı olduqları «fəda» inancı «saleh əməllərin vacibliyi ilə daban-dabana ziddir.

Saleh əməllərə və şəriətə məhəl qoymayan, yalnız «İsanın (ə) çarmıxa çəkilməsinə» olan inamla kifayətlənərək, əbədi behişt əhli olacaqlarını güman edən bəzi məsihilərin səhvdə olduqları şübhə doğurmur.

Məhəmməd peyğəmbər (s) də bu əqidənin yanlış olmasını söyləyərək, onların səhvini ifşa etdi.

2. Eyni zamanda İsanı (ə) və Məryəmi (ə) Allahın saleh bəndələri adlandıraraq, hər iftiradan təmizlədi.

«Və hökm barəsində (səhvləri ifşa edəcəkdir), çünki bu «dünyanın başçısı» məhkum olunmuşdur.»[1]

**Şərh:**

4. «Dünyanın başçısı» Allahdır. Xristianlar öz şirklə dolu, bütpərəst ideyalarına uyğun olan əqidələri ilə Onu məhkum etmişlər. «Üç üqnum əqidəsi», «Fəda» və s kimi müşrik əqidələrinə görə həqiqətdə onu məhdud etmiş, kiçiltmiş və təhqir etmişlər.

Məhəmməd peyğəmbər (s) bütün bunları rədd edərək, mifik əfsanə və uydurma kimi dəyərləndirmişdir. O, tövhidi bütün İslam təlimlərinin ruhu və əsası saymışdır.

---

1. Xristian alimlərinə görə, «dünyanın başçısın»dan məqsəd «şeytan»dır.

Amma mənim adımla göndəriləcək «təsəlliverici» söylədiyim hər şeyi sizə xatırladacaqdır... Bunu sizə baş verməzdən əvvəl söylədim ki, baş verəndə iman edəsiniz.»

1. Yəhya incili, 15-ci fəs., 26-27-ci cüm.: «Atamın sizə göndərəcəyi «təsəlliverici», gəldiyi zaman mənim üçün şəhadət[1] edəcəkdir. Siz şəhadət edərsiniz, çünki başlanğıcdan mənimləsiniz.»

Məşhur islam alimlərinin fikrincə, Yəhya incilinin 16-cı fəs., 7-15-ci cümlələrində qeyd olunan «təsəlliverici» Məhəmməd (s) peyğəmbərə aiddir. Çünki «təsəlliverici» kəlməsi əslində «həmd olunmuş» – «təriflənmiş»[2] kəlməsinin yerinə «səhvən» soxuşdurulmuşdur. Bu kəlmə əslində, «həmd olunmuş» -Əhməd mənasınadır, lakin sonradan təhrifə uğrayaraq «təsəlliverici Ruhul-qüds» şəklinə salınmışdır. Bu söz əski mətnlərdə «həmdolunmuş» kimi yazılmışdır. Amma cümlələrə diqqətlə nəzər yetirdikdə görərik ki, bu «təsəlliverici» heç də, Ruhul-qüds deyil və ola da bilməz. (Bu barədə bir az sona məlumat veriləcək.)

Ümumiyyətlə, 16-cı fəsildəki 7-15-ci və 14-15-ci fəsillərdəki cümlələri də nəzərə almaqla, onların birbaşa Məhəmməd peyğəmbərə (s) aid olduğu gün kimi aydındır.

«O gəldiyi zaman dünyanın günah, salehlik və hökm barəsində səhvlərini ifşa edəcəkdir. Çünki günah barəsində mənə iman etmirlər.»

**Şərh:**

2. İsadan (ə) sonra, əvvəldə işarə etdiyimiz kimi, bəzi şəxslərin xüsusi canfəşanlığı nəticəsində Məsih dinində «şəriət» ləğv olundu. İsanın (ə) bəşərin «günahı» nı yumaq üçün dünyaya gəlib dara çəkildiyini zənn edən bütpərəst yunan fəlsəfi əqidələrinin təsiri altına düşən şəxslər belə etdilər. Bu isə Məsihi təlimlərinin tam ziddinə idi.

Amma Məhəmməd peyğəmbər (s) onların bu sözlərini İsaya (ə) atılan böhtan adlandıraraq Qurani-kərimdə aşkarcasına rədd etdi.

3. Məhəmməd peyğəmbər (s) gəlişi ilə «atasız» doğulmuş İsaya (ə) və onun anası müqəddəs Məryəmə (ə) Yəhudilər tərəfindən atılan böhtanları, onlara nisbət verilmiş pis əməlləri, günahları rədd edərək Məryəmi (ə) pak və iffətli qadın adlandırdı, onları izzətləndirdi.

---

1. Şahidlik
2. Ərəbcə «Əhməd», «Məhəmməd»

Habakkuk nəbi, 3-cü fəs., 3-6-cı cüm.: «Tanrı Tiymandan gəldi. Müqəddəs şəxs isə Faran dağından gələcək. Dünyanın sonunadək onun əzəməti göyləri bürüyəcək və yerlər ona həmd-səna oxuyacaq...»

Bəzi islam alimləri belə qənaətdədirlər ki, hər iki cümlələrdə Faran dağından aləmə saçılan nur Həzrət Məhəmməddir (s).

Tanrının Sinadan çıxması Musa (ə)ya aiddir ki, orada Allahla danışdı və ona peyğəmbərlik verildi.

Sairdən nur saçması, həmçinin, Tiymandan gəlməsi isə İsaya (ə) aid olunur.

Faran dağından gələn, şəriət gətirən «müqəddəs şəxs» isə Məhəmməd (s) dir.

Çünki Faran bütün ərəb tarixçilərinin və çoxsaylı İncil tədqiqatçı şərhçilərinin əqidəsinə əsasən, Ərəbistan yarımadasında yerləşən, Məkkə vadisi yaxınlığındakı «Həra» dağına deyilir. Və Məhəmməd peyğəmbər (s)də, məhz elə burada peyğəmbərlik verilmişdir və o, dünyaya nur saçan«atəşin şəriətini» gətirdi.

1. Yəhya incili 16-cı fəs., 7-15-ci cüm.: «İsa dedi: Bununla mən sizə həqiqəti söyləyirəm: Mənim getməyim sizin üçün xeyirlidir. Çünki mən getməsəm «təsəlliverici» sizin yanınıza gəlməz... O gəldiyi zaman dünyanın günah, salehlik və hökm barəsində səhvlərini ifşa edəcəkdir. Çünki günah barəsində mənə iman etmirlər. Salehlik barəsində, çünki atamın yanına gedirəm. Və artıq məni görməyəcəksiniz. Və hökm barəsində çünki bu dünyanın rəisi məhkum olunmuşdur. Sizə söyləyəcəyim daha çox sözlərim var: amma indi bunlar sizdə sığmaz. O, yəni «həqiqət ruhu» gəldikdə sizə hər həqiqətə yol göstərəcək. Ona görə ki, öz adından söyləməyəcəkdir; amma hər nə «eşidirsə» söyləyəcək və gələcəyi sizə bildirəcəkdir. O məni izzətləndirəcəkdir, çünki mənim özümdən götürəcək və sizə bildirəcəkdir.»

2. Yəhya incili, 14-cü fəs., 15-17, 26, 29-cu cüm.: «Əgər məni sevirsinizsə əmrlərimi yerinə yetirin. Mən də Atadan xahiş edəcəyəm ki, O daim sizinlə bərabər olmaq üçün sizə başqa bir «təsəlliverici» versin. Bu «həqiqət ruhudur», onu dünya qəbul edə bilmir, çünki onu görmür və tanımır. Siz isə onu tanyırsınız, çünki o sizin yanınızda durur və sizin yanınızda olacaqdır...

Qurani-kərimdə buyurulur: «Məhəmməd boş-boşuna söz deməz. Onun dedikləri nazil olunmuş vəhydən başqa bir şey deyil. Dediklərini çox güclü (mələk) olan Cəbrayıl öyrətmişdir ona.» (Nəcm, 3-5)

Hamıya məlumdur ki, İncildə ilahi vəhydən əsər-əlamət belə yoxdur. Hətta buradakı hikmətli sözlər də, birbaşa İsaya (ə) nisbət verilibdir. Amma Qurandakı ayələr, Tövratda işarə olunduğu kimi «Allahın adı ilə başlayaraq, birbaşa Allaha nisbət verilir. Üçüncü nişanə də, məhz buna işarə edir. Lakin xristianlar öz dini çıxışlarını tək Allahın adı ilə yox, «Ata Oğul və Ruhul-qüds»ün adı ilə başlayırlar.

1. Tövratda və həmçinin Osiya nəbinin kitabında, 9-cu fəsil və 6-7-ci cüm.-də əsla savad olmadan ilahi ruhu ilə rabitəli, səmavi vəhyə malik bir peyğəmbərin gələcəyindən xəbər verilir. Xatırladır; onun kəlamları o qədər ali və həqiqətlə dolu olacaqdır ki, müxalifləri bu ecazkar kəlamın qarşısında heç bir dəlil-sübutla çıxış edə bilməyəcəklərini gördükdə, onu «dəli» adlandıracaqlar.

Heç bir savadı olmayan, Allahın ona bəxş etdiyi təkallahlığa, sülhə, paklığa, insaniyyətə doğru çağıran, ilahi kəlamlarını söyləyən, xalq arasında «əmin» kimi tanınan Məhəmmədi də, pak mənəviyyatdan uzaq olan müşrik və bütpərəstlər «dəli» adlandırdı. Onların cahiliyyəti o həddə yetmişdi ki, «bu dəli bizə 360 Allahı kənara qoyaraq, bir Allaha sitayiş etməyi tövsiyə edir?!» deyə təəccüblənirdilər.

Qurani-kərim bu barədə buyurur: «Zikri (Quranı) eşidən zaman, peyğəmbərə dəli deyirlər. Bir halda ki, Quran aləmlər üçün zikrdən başqa bir şey deyildir.» *(Qələm, 51)*

Beləliklə, islam alimləri öz müqəddəs kitabları olan Qurandan ilham alaraq, İncildə və müqəddəs peyğəmbərlərin yazılarında olan savadsız peyğəmbərin» məhz Məhəmməd (s) olduğuna təkidlidirlər. Bu barədə Quranda oxuyuruq: «Allahın göndərdiyi «savadsız peyğəmbərdən» ki, onun adı və nişanələri tövrat və incildə yazılmışdır...» *(Ə`raf, 157)*

2. Tövrat, Təsniyə 33-cü fəs., 1-3-cü cüm.: «Tanrı Sina dağından çıxdı, Sairdən onların üzünə nur saçdı və sonra Faran dağından parladı. Minlərlə mömin və müqəddəs insanlar irəli gəldi və sağ əlindən onlara «atəşin şəriət» yetirdi.»

- Birinci nişanə: «İsmayıl və İshaq bir atanın oğullarıdır.[1] Yəhudilər-İshaqın övladları, ərəblər isə İsmayılın övladlarıdır. Məhəmməd peyğəmbər (s) də İsmayılın nəslindəndir. Deməli, yəhudilərin qardaşı övladlarından sayılır.»[2]
- «Məhəmməd peyğəmbər (s) Yaqubun qardaşı Evesin[3] övladlarındandır ki, İsmayıl peyğəmbərin qızı ilə evlənmişdir.»[4]
- İkinci nişanə: Məhəmmədin (s) Musaya (ə) oxşarlığı.[5]
- Onlar ata-analı və adi doğuluşla dünyaya gəlmişlər. Amma İsa (ə) atasız və möcüzəli doğuluşla dünyaya gəlmişdir.
- Nəhayət, Musa (ə) və Məhəmmədi (s) xalq qəbul etmiş, onları rəhbər seçmişdir. Lakin İsanı (ə) qəbul etməmişlər.
- Onlar hakim olmuş, amma İsanın (ə) hakimliyi və səltənəti bu aləmdə deyil, səmavi səltənətdir.
- Onlar evli olmuş, lakin İsa (ə) ömür boyu subay olmuşdur. Deməli, Musaya (ə) oxşar peyğəmbər Məhəmməddir (s), nəinki İsa (ə).

Üçüncü nişanə: «Sözlərini o mənim adımdan söyləyəcək. Mən nə desəm, o da onu deyəcəkdir.»

Məhəmmədə peyğəmbərlik verilərkən o heç bir təhsil görməmiş, hətta oxumağı-yazmağı da bacarmayan bir şəxs idi. Elə bu səbəbdən də Həra dağında Cəbrayıl adlı mələk vəhyi ona gətirərək, «oxu» dedikdə o «mən oxuya bilmirəm» cavabını verdi.

Cəbrayılın iki dəfə «oxu» deyə təkidindən sonra da o eyni cavabı eşitdi: «Mən oxumağı bacarmıram.» Bunun ardınca Allah-təala sonsuz qüdrətilə öz kəlamlarını Məhəmmədin (s) qəlbinə qoyaraq, Ələq surəsinin, 1-5-ci ayələrini onun dili ilə söylətdi: «Oxu! Allahın adı ilə oxu! Rəbbindir ən böyük kərəm sahibi. Yazmağı öyrətmiş...» Və 23 il müddətində beləcə Tanrı öz kəlamlarını onun qəlbində yerləşdirərək, onun dili ilə ifadə etdi.

---

1. Əhməd Didad, «Bibliya Məhəmməd (s) haqqda nə deyir?», səh. 12
2. Varlıq, 25-ci fəs., 17-18-ci cüm.
3. Təsniyə, 28-ci fəs., 8-10-cu cüm.
4. Məhəmməd Sadiqi, «Əhdi-ətiqin bəşarətləri», səh. 218-219.
5. Əhməd Didada məxsusdur.

Məhəmməd peyğəmbər (s) barəsində İncildə xəbər verilməsi və əhli-kitabın bu barədə geniş anlayışa malik olması, Quranda o qədər aydın və dəqiqdir ki, Ali-İmran surəsinin 70-ci ayəsində buyurulur: «Ey əhli-kitab! Şahid olduğunuz halda nə üçün Allahın ayələrinə qarşı küfr edirsiniz?» Gördüyünüz kimi, Quran onların hətta şahidlik etmək əvəzinə, inkar etmələrinə təəccüblənir. Ənam surəsinin 20-ci ayəsində oxuyuruq: «Əhli-kitab, oğullarını tanıdıqları kimi tanıyırlar (Məhəmməd (s) peyğəmbəri. İman gətirməyənlər isə özlərinə ziyan vururlar.»

Yuxarıdakı ayənin, necə də şiddətlə əhli-kitabı məhkum etməsindən anlayarıq ki, Quran tam əminliklə Məhəmməd (s) barəsində İncildə xəbərlərin olmasına etiqadlıdır. Elə bu səbəbdən də, İslam alimləri bu barədə tam əmindirlər. Necə ki, Əraf surəsinin 157-ci ayəsində belə deyilir: «Allahın göndərdiyi «savadsız peyğəmbər»dən ki, onun adı və nişanələri onların yanında tövrat və incildə yazılmışdır...»

Beləliklə, biz daha ətraflı tanışlıq üçün islam alimlərinin İncildə istinad etdiyi cümlələrə diqqət yetirməyi lazım görürük. İncildə istinad olunan cümlələr çoxdur, lakin onların əsas və məşhurlarına müraciət edərək heç bir münasibət göstərmədən sizə çatdırmağı lazım bildik. Məsələyə tam münasibət isə «araşdırma» bölməsində diqqətinizə təqdim olunacaqdır.

2. Tövrat, Təsniyə, 18-ci fəs., 17-22-ci cüm.: Bəni-İsrailə de: Mən (Allah) sonda onlar üçün öz qardaşı övladlarından sənə oxşar sənə (Musaya) oxşar peyğəmbər göndərəcəyəm. Onun ağzına-dodaqlarına öz sözlərimi qoyacağam. (Öz sözlərimi onun dili ilə ifadə edəcəyəm.) Mən hər nə söyləsəm, hər nə desəm o da, onu deyəcəkdir. Onu mənim adımdan söyləyəcəkdir. Onun mənim adımdan söyləyəcəyi sözləri eşitməyərək qəbul etməyən kəsləri, Mən (Allah) taparam! (Cəzalandıraram.)

Çoxsaylı İslam alim və tədqiqatçılarının fikrinə əsasən, bu cümlələrdə işarə olunan «gələcək peyğəmbər» Həzrət Məhəmməddir. Çünki yuxarıda işarə olunan gələcək peyğəmbərin nişanələrinin hamısını məhz onda tapmaq olur. Bu nişanələr aşağıdakılardan ibarətdir:

- Yəhudilərin öz qardaşı övladlarından olmalıdır.
- Musaya (ə) oxşar olmalıdır.
- Allah hər nə söyləsə, onu deməli, sözləri yalnız Allahın adı ilə söyləməlidir.

### *xiv. - İslam baxışında*

İslam dininə əsasən, «peyğəmbərlik» iddiasında olan şəxsin, doğrudan da, peyğəmbər olub-olmadığını anlamaq üçün çoxsaylı yollar vardır. Onların biri də özünü «tanrı elçisi» adlandıran şəxsin barəsində, keçmiş ilahi peyğəmbərlərin verdiyi xəbərdir. Yəni əgər İsa (ə) Məhəmmədin (s) barəsində əvvəlcədən xəbər verirsə, onu adını və ya nişanələrini söyləyirsə, bu, Məhəmmədin (s)həqiqətən peyğəmbər olduğuna bir dəlil-sübut sayılır. Çünki hər xəta-səhvdən uzaq olan peyğəmbər İlahinin onlara bəxş etdiyi qeyb-elmi vasitəsilə, birbaşa Allahın məmuriyyətinə əsasən bu xəbərləri söyləyirlər. Əlbəttə belə xəbərlər daha çox şəriət sahibi və gəlişi olduqca lazım olan, yüksək əhəmiyyət daşıyan peyğəmbərlər barəsində verilir.

İmam Əli (ə) buyurur: «Uca Tanrı yaratdıqlarına daim ya şəriət sahibi bir peyğəmbər göndərmiş, yaxud kitab endirmiş ya da gərəkli bir höccət tanıtmışdır... Bəzi peyğəmbərlər gəlib keçmiş və özündən sonra gələcək peyğəmbərlərin adlarını bildirmişlər. Gələn peyğəmbərlərin bəzilərini ondan əvvəlkilər tanıtmış, xəbər vermişdir.»[1]

Beləliklə Tanrının sonuncu ilahi dini olan İslamı və kamil kitabı oan Quranı gətirmiş axırıncı peyğəmbər Həzrət Məhəmmədin (s) gəlişi barəsində də İncildə əvvəlcədən xəbər verilmişdir. Bütün islam alimləri və eləcədə bu dinin ana mənbəyi olan Qurani-kərimə görə, Həzrət Məhəmməd (s) barəsində istər Qədim-əhddə və istərsə də Yeni-əhddə çoxsaylı işarələr, hətta, birbaşa xəbərlər də vardır. Qurani-kərimə əsasən, tövrat və incildə ört-basdır edilmiş çoxsaylı həqiqətləri aşkara çıxarmaq üçün gəlmişdir: «Ey əhli kitab! Tövrat və incildə gizlətdiyiniz bir çox həqiqətləri bəyan etmək üçün Məhəmməd peyğəmbər, sizin üçün gəlmişdir.» *(Maidə, 15)*

Səff surəsi, 6-cı ayədə buyurulur: «Məryəm (ə) oğlu İsanın Bəni-İsrailə söylədiklərini xatırla ki, buyurmuşdur: «Ey İsrail övladları, həqiqətən də, Mən Allahın sizə göndərdiyi elçiyəm. Əlimdə olan tövratı təsdiqləyir və məndən sonra gələcək adı Əhməd (Məhəmməd) olan peyğəmbəri sizə müjdə verirəm.»

---

1. Nəhcül-bəlağə, xütbə 5.

Bu xəbərlərdən bəzisi indi də, məsihilərin və yəhudilərin müqəddəs kitablarında (Bibliyada) mövcuddur. Qurani-Kərim buyurur: «Onlar ki, Tövrat və İncildə (barəsində) nişanələri yazılmış «dərs oxumayan Peyğəmbərə» tabe olurlar, səadətə çatan insanlardır.» (Əraf, 157)

Tarix kitablarında bu barədə belə yazılmışdır: «İslam Peyğəmbəri (s) peyğəmbərliyə yetişməzdən əvvəl, yəhudilərdən ibarət böyük bir dəstə Mədinə şəhərinə gəldilər. Onlar səbirsizliklə Məhəmməd adlı bir peyğəmbərin olacağını və onun dəvətini gözləyirdilər. Çünki öz müqəddəs kitablarında Məhəmmədin (s) məhz bu yerlərdə olacağını oxumuşdular. Lakin Məhəmməd Peyğəmbərin (s) dəvətindən sonra onlardan bir dəstə iman gətirdi, digərləri isə öz dinini şəxsi mənafelərinə qurban verərək, onunla müxalifətə çıxdılar.»

Bizim etiqadımız budur ki, peyğəmbərlərə nazil olan ilahi dinləri (məxsusən İslam dini) yalnız insanların şəxsi yaşayışlarında və həyatlarının islahında deyil, bütün ictimai məsələlərin həllinə yol açmışdır. Hətta ilahi dinlər insanların gündəlik həyatlarında lazım olan elmi bəhslərə də, toxunmuş, onları bu sahədən təmin etmişdir. Onların bəzisinə Qurani-Kərim işarə etmişdir. İlahi Peyğəmbərlərin ən mühüm hədəflərindən biri də, cəmiyyətdə ədalətin bərqərar olunması məsələsi olmuşdur. Qurani-Kərim buyurur: «Biz öz peyğəmbərimizi aydın dəlillərlə göndərdik. Və onlara kitab və tərəzi (ədalətli qanunlar, haqqı - nahaqdan ayırmaq vasitəsi) da, göndərdik ki, insanlar ədalətlə iş görsünlər.» (Hədid, 25)

## Bibliya Həzrət Məhəmməd (s) barəsində nə yazır?

### *xv. - Xristianlıq baxışında*

Xristian alimlərinin nəzərincə, İncildə Məhəmməd (s) peyğəmbərin gəlişi barəsində heç bir məlumat verilməmişdir. Qədim-Əhddə isə, İsanın (ə) gəlişi barədə əvvəlcədən müjdə vermiş və insanları ona iman gətirməyə həvəsləndirmiş cümlələr mövcuddur. Misal olaraq, onlar Təsniyə 18/14-19; İsayya nəbi 7/14-16-nın İsanın (ə) zühuru barəsində verilmiş müjdələr olduğunu iddia edirlər.

Xristian alimləri müsəlmanların göz önünə çəkdiyi İncildəki Məhəmməd (s) barəsində verilmiş müjdələrin əsassız olduğunu söyləyir, xüsusilə Yəhya incilindəki xəbərlərin yalnız «Müqəddəs Ruha» aid olduğuna etiqadlıdırlar.

d) İsa (ə) anadangəlmə korun gözünü açdıqda, fəriseylər inanmadılar və dedilər.[1] «Adi günahkar adam belə əlamətləri necə göstərə bilər? Bilirik ki, Allah günah işlədənləri eşitmir, fəqət kim Allaha ibadət edib, Onun iradəsini yerinə yetirirsə, Allah onu eşidər».[2] Yuxarıdakı cümlələrdən belə nəticə alırıq: 1-Allah günahkara möcüzə qüdrəti verməz. 2-Allah günahkarı eşitməz. Deməli, ilahi peyğəmbərlər də, günah əhli ola bilməz.

e) Yəhyanın 1-ci məktubunda yazılıb: «Qardaşlar, qoy sizi heç kim aldatmasın. Saleh iş görən Məsih, saleh olduğu kimi salehdir. Günah işlədən isə iblisdəndir.»[3]

Peyğəmbərlər İblisdən yox, Allah tərəfindən göndərilmişlər. Və günahlardan məsum olmalıdırlar. Məsum olmayan şəxs peyğəmbər deyildir.

Bütün bu söylədiklərimizlə birlikdə onu da qeyd etmək lazımdır təəssüf ki, xristian alimləri peyğəmbərlərin günahsız və məsum olmalarını lazım bilmirlər. Tövratın və Yeni-əhdin tam ziddiyyətli şəkildə yazdığı təzadlı sözləri müşahidə edən xristianlar Qədim-əhdin yazılarını təsdiq etmək məcburiyyətində qaldıqları üçün bu qənaətə gəlmişlər.[4] Xristianlar yalnız İsanın (ə) məsum olması qənaətindədirlər. Lakin bu ona görədir ki, İsa onların etiqadına əsasən, insan şəklinə düşmüş Oğul Allahdır.

İslam dininə görə, Pavel İsanın (ə) «gedişin»dən 10 il sonra məsihi olub, həvarilərin arasına daxil olmuş, bəzi təməlli təlimatlarını dəyişdirilməsində rol oynamışdır. Belə ki, islami mənbələrə əsasən xristian aləmində yaranmış bəzi əqidələrin banisi Paveldir. Belə ki, bu əqidələr Həzrət İsanın (ə) yazanında mövcud deyildi.[5]

## xvi. Keçmiş peyğəmbərlərin gələcəkdən verdiyi xəbərlər

Bir çox peyğəmbərlər özlərindən sonra gələcək peyğəmbərlərin barəsində xəbər vermiş və onların nişanələrini bəyan etmişlər. Həzrət Musa (ə) və Həzrəti İsa (ə) da, Məhəmməd Peyğəmbərin (s) gələcəyi barəsində xəbərlər vermiş və onun nişanələrini, bəyan etmişlər.

---

1. Onlar İsanın (ə) Allah tərəfindən göndərilən peyğəmbər olduğundan xəbərsiz idilər.
2. Yəhya, 9-cu fəs. 16-31-ci cüm
3. Yəhyanın 1-ci məktubu, 3-cü fəs. 7-8-ci cüm
4. «Ənisül-əlam», c. 1, səh. 131-356
5. Məhəmməd Sadiq Fəxrül-islam, «Ənisül-Ə`lam fi nüsrətil-İslam», c. 1, səh. 123; «Biharul-ənvar», c. 8, səh. 310; «Biharül-Ənvar», c. 13, səh. 212

İsa (ə) peyğəmbər burada şagirdlərinə olduqca ağıllı və məntiqə uyğun bir həqiqəti açıqlayır. O, bəyan edir ki, ali mənəvi saflığı olmayan, günahlardan pak olmayan şəxs, başqalarını düzlüyə yönəldə bilməz. Çirkin işlərlə məşğul olan təbliğatçı dindar, xalqı kamilliyə doğru ucalda bilməz. Şagirdləri camaatın kiçik bir hissəsinə təbliğ etmək üçün hazırlaşan zaman Həzrət Məsih onlara belə söyləyərsə, böyük xalq kütlələrinə ilahi dinini təbliğ etməyə məmur olan peyğəmbərlərin məsuliyyəti daha da böyükdür. Onların ruhani saflığa malik olması və günahlardan pak olması olduqca zəruridir. Amma biz, Tövratdakı peyğəmbərlərə diqqət yetirdikdə, bunun əksini görürük. Onlara hətta ən çirkin işlərdən - kafirlik, şirk, cinsi pozğunluq və s. çəkinmirlər. Əlbəttə, bu təhrif olunmuş Tövratın uydurduğu böhtanlardan başqa bir şey deyildir. İlahi peyğəmbərlərin belə iyrənc hərəkətlər etməsi qeyri-mümkündür.

Diqqət edin. Görün İsa (ə) bu barədə necə hökm edir: «Yalançı peyğəmbərlərdən qorunun! Onlar yanınıza qoyun cildində gələrlər, amma daxildə vəhşi qurddurlar. Onları bəhrələrindən (əməllərindən) tanıyacaqsınız. İnsanlar tikanlardan üzüm, yaxud qanqaldan əncir yığarlarmı?» Beləliklə, hər yaxşı ağac xeyirli meyvə verər, pis ağac isə çürük meyvə verər. Yaxşı ağac çürük meyvə verə bilməz. Xeyirli meyvə verməyən hər ağac kəsilər və oda atılar. Siz onları bəhrələrindən tanıyacaqsınız.»[1]

b) Luka incilində İsa (ə) belə söyləyir: «Kor koru yedəkləyə bilərmi? İkisi də quyuya düşməzmi?»[2] İlahi peyğəmbərlər də beləcə. Onlar əgər pak və günahsız insanlar olmasalar, başqalarını necə paklığa doğru çəkə bilərlər? Günahdan gözləri «kor» olmuş, həqiqəti görə bilməyən şəxslər necə digərlərini haqqa yönəldə bilərlər? Deməli, peyğəmbərlərin məsum olmağı olduqca zəruridir.

c) Yəhya incili, 8 fəsil, 34-cü cümlədə oxuyuruq: «İsa (ə): Sizə doğrusunu deyirəm: «Günah işlədən hər kəs, günahın köləsidir, onun quludur!»

Peyğəmbərlər də əgər günah əhli olsalar, iblisin qulu, köləsidirlər. Bir halda ki, onlar Allahın milyonların içindən seçdiyi bəndələridir, deməli Allahın qulu olmalıdır, nəinki şeytanın!

---

1. Matta, 7-ci fəs. 15-20-ci cüm
2. Luka, 6-cı fəs. 39-cu cüm

Bunun da səbəbini belə açıqlayırlar ki, «İncil» Allah tərəfindən kəlmə-kəlmə nazil olmuş kəlam deyil.[1] Bu kitabda yalnız İsanın həyatı və buyurduqları təlim-tərbiyələr o həzrətin həvariləri (yaxınları) tərəfindən yazılmışdır. Əgər İncili insanlar yazıblarsa, necə vəhy dərəcəsində mötəbər ola bilər? sualının cavabında məsihi filosofu Tomas Mişel belə yazır:

«Məsihilərin etiqadına görə Uca Tanrı müqəddəs incili bəşərin əlilə təlif etmişdir. Başqa sözlə desək, Allah-taala müqəddəs kitabı Ruhul-Qüds vasitəsilə təlif edib və bu işdə bəşər müəlliflərindən kömək almışdır. Və Ruhul-Qüdsün bəşərə köməyi onların qəlblərini ovsunlamaq olmuşdur. Belə ki, onlar yalnız Tanrı iradə etdiyi mətləbləri yaza bilmişlər. Deməli, incilin müəllifi həm Allahdır, həm bəşər.»[2]

Məsihilərin bəziləri, hətta, müqəddəs kitabda olan cümlələri (kəlmələri) eyni Ruhul-Qüdsün ilhamları bilsələr də, katoliklərin nəzərincə bu kitabda olan bütün cümlələr bəşərin öz ibarələridir. Sadəcə olaraq cümlələrin məfhumları Ruhul-Qüds vasitəsilə təsdiq olunmuşdur.

Xatırladıq ki, qeyd etdiyimiz vəhyin mənaları, məsihilərin arasında olan məşhur bir nəzərdir ki, bu nəzərin əsası Pavelin və Yuhənnanın yazılarına qayıdır.

## Məsumluq

### Yeni əhddə peyğəmbərlərin məsumluğu

Yeni əhddə, peyğəmbərlərin pak və günahsız olması haqda bir sıra cümlələr mövcuddur. Yəni dolayası yolla olsa da, bu kitabda peyğəmbərlərin məsum, günahsız insanlar olmasının lüzumunu qeyd edilərək, onların günahdan və çirkin işlərdən pak olmaları vacib sayılır. Gəlin birlikdə «Yeni-Əhd»ə diqqət yetirək:

a) «İsa (ə) şagirdlərinə dedi:» Siz yer kürəsinin duzusunuz; hər şey iyləndikdə duzla təmizlənər, amma duz iylənsə, nə ilə duzlanar? Artıq çölə atılıb, insanların ayaqları altında əzilməkdən başqa bir şeyə yaramaz... Siz dünyanın nurusuz. Qoy sizin nurunuz insanların qarşısında elə parlasın ki, xeyirxah işlərinizi görsünlər və göylərdəki Atanıza (Allaha) həmd etsinlər.»[3]

---

1. Barbur Ayen, Elm və din, səh. 145
2. Məsihi əqidəsi, səh. 26
3. Matta, 5-ci fəs. 13-16-cı cüm

1. Müqəddəs incilin, həvarilərin Ruhul-Qüdsün vasitəsilə təsdiqlənməsi. Katolik kilsəsinə görə, Papanın bəyanatları da Ruhul-Qüds tərəfindən təsdiqlənmiş vəhydir.[1]

Məsihi alimlərinin nəzərincə üçüncü hissə vəhyin əsl həqiqi mənası, birinci, ikinci və dördüncü qisim isə vəhyin məcazi mənasıdır. Xristianlığa görə, həqiqi vəhy İsada tamamlanmışdır. Məsihilərin əqidəsinə görə İsa, cisim və insan şəklinə düşmüş Allahdır. O, insanların arasında mücəssəm olmaqla onları həqiqətə tərəf (Ata Allaha) yönəldir. Onlar bunun səbəbini belə açıqlayırlar: «(Ata) Allah-taala əlçatmaz bir qüdrət olduğu üçün çarəsiz qalıb öz əziz oğlu İsanı bəşər şəklinə salıb və bu vasitə ilə insanları özünə tərəf cəlb edir»[2]

Ümumiyyətlə, xristian dinində insanlar Allahı (İsanı) görür və onu həyatda özlərinə nümunə seçirlər. Həmçinin insanlar Allaha iman gətirməklə onun məcazi oğulları sayılırlar.[3]

İndiki məsihiyyətdə deyilir: Allahın oğlu İsadan qabaq başqa peyğəmbərlər tərəfindən bəyan olunmuş hökmlər yalnız bəndələr və qullara şamil edilir. Lakin sonra Allahın oğlu İsanın insanların arasında təcəssüm tapması və sonda səlbə çəkilməsilə, artıq ona iman gətirənlərin hamısı Allahın oğulları sayıldılar. Deməli, məsihiyyət dinidə Allahla insanlar arasında olan əlaqə «Ata və oğul» rabitəsi əsasında qurulmuşdur. Baxmayaraq ki, bu rabitə İsadan başqalarında məcazi məna kimi işlənir. Pavel bu barədə yazır: «Allahın oğluna (İsaya) iman gətirənlərin hamısı onun oğulları sayılırlar. Beləliklə, siz xristianlar, tanrı bəndəsi və qulu yox, əksinə, onun oğulları sayılırsınız. Artıq ondan qorxmağınız lazım deyil.»[4]

Çox az saylı bir qrup vəyhi Allahın yazılı şəkildə bəyan etdiyinə işarələr etsə də,[5] lakin böyük əksəriyyət, «vəhy» kəlməsinin mötəbər saydıqları bu ilahi kitaba deyilməsini məcazi və qeyri-həqiqi məna bilirlər.

---

1. Corc Brentel, "Katolik məzhəbi", səh. 118
2. SSS, R. 19
3. Məsihi əqidəsinə görə Allahın həqiqi oğlu yalnız İsadır ki, o da Allahın bir hissəsi sayılır. Ona iman gətirənlər isə Allahın məcazi oğulları sayılırlar.
4. Rumlulara, 8-ci fəs. 14-17-ci cüm.
5. Can Hik, Din fəlsəfəsi, səh. 37-38

1- Peyğəmbərlərin ən əhəmiyyətli vəzifəsi Allahın göndərəcəyi Xilaskarı (İsanın gəlişini və ona iman gətirməyin zəruriliyini) insanlara xəbər vermək idi.[1]

## «Vəhy» nədir?

İslam, Yəhudi və Xristian dinlərinin əqidəsinə əsasən, Allah-taalanın insanları yaratmaqdan məqsədi onların kamilliyə çatması və ilahi-əxlaqi dəyərlərə yetişmələri olmuşdur. Və buna görə də Allah-taala bəndələrilə öz arasında müxtəlif vasitələrlə əlaqə saxlamışdır. Bu mənəvi əlaqə və rabitələrin hamısının kökü «vəhy» deyilən ilham qüvvəsinə qayıdır. Başqa dillə desək, tanrının insanların haqqa yönəlmələri və vicdanlarının oyanması üçün onlara mənəvi qüvvələr ilə ilham etməsinə «vəhy» deyilir.[2] Bu tərif ümumi şəkildə məsihiyyət və islam baxımından düzgün sayıla bilər. Lakin vəhyin həyatda formalaşması və xaricdə baş vermiş həqiqətinə gəldikdə, bu dinlərin arasında olan aşkar ixtilafları araşdırma bölümündə nəzərinizə çatdıracağıq.

## Xristianlıqda «vəhy»

Vəhy xristianların məşhur əqidəsinə əsasən üç hissəyə bölünür:

2. Katoliklərin fikrincə, insan və təbiət, ümumiyyətlə yaranmışlar bir növ Allahı tanıdan vəhydir.[3]
3. Allahın səsini eşitmək, yaxud mələklərin xəbər gətirməsi, bəzən də xəyallar və röyalar görməklə vəhy almaq. Vəhyin bu növü Əhdi-ətiqdə olduğu üçün xristian dinində təsdiq edilmişdir.
4. Allahın (İsanın) insanların arasında təcəssüm tapması (maddiləşməsi) ilahi vəhyidir. Onlar düşünürlər ki, ilahi vəhyi ən ali şəkildə Oğul Allah olan İsada təcəlla etmişdir. Onun həyatı, sözləri, hərəkətləri və fədakarlığı Tanrının insanlara xəbəridir.[4] "Kəlam bəşər olub, lütf və həqiqətlə dolu olaraq aramızda ssakin oldu. Biz də, Onun izzətini, Atanın vahid Oğlunun izzətini gördük." (Yəhya, 1:14)

---

1. "İman Yolu", Yusif Miller, səh 49
2. «Vəhy» lüğətdə «işarə», «ilham», «sirr» və «yazmaq» mənasınadır
3. Corc Brentel, "Katolik məzhəbi", səh. 26-27
4. Yəhya, 7:16

Belə ki, İbrahimin qoca vaxtında, arvadı Saradan İshaq adında oğlu olmuşdur. İbrahim Allaha həddindən artıq iman etdiyinə görə oğlu İshaqı Ona qurban verməyə hazır idi. Lakin Allah İshaqın əvəzinə qurbanlıq üçün qoç verdi (Yaradılış 22:1-19). Sonra Allah İbrahimə vəd etdi ki, İshaqın nəsli dünyaya nicat və xoşbəxtlik gətirəcəkdir. Bu vəd İsa Məsihdə yerinə yetirildi. Bu haqda, nicat və qurtuluş bəhsində söhbət açacağıq.

1- Çoxsaylı xristian qrupları inanırlar ki, Məsihdən sonra Yəhya, Peter, Pavel kimi həvarilər gəldilər. Onlar da, Allahın kəlamını insanlara deyir və onları İsa Məsihə itaət etməyə öyrədirdilər. Onlar da Allahın peyğəmbərləri olmuşlar. Geniş mənada isə Allahın Kəlamını yayan başqa hər kəs peyğəmbər adlandırıla bilər.[1]
2- Bəzi qrupların fikrincə, İlyas və Vəftizçi Yəhya kimi bəzi peyğəmbərlər kitab yazmamışlar. Musa, Davud, Yeşaya, Yəhya, Pavel kimi peyğəmbərlər isə gələcək nəsillər üçün Allahın Sözlərini yazmışlar.[2]
3- Allah peyğəmbərləri 2000 il ərzində göndərmişdir. Peyğəmbərlər əsasən İsrail xalqından seçilmişlər. Allah onu xüsusi xalq olaraq seçmişdir ki, həqiqətini dünyanın bütün xalqlarına bu xalq vasitəsilə bildirsin.[3]
4- Peyğəmbərlər cəmiyyətin bütün təbəqələrinə mənsub olduqlarından onların bəziləri varlı, bəziləri isə yoxsul olmuşlar. Onların arasında alim, savadsız, qoca, cavan və s. olmuşdur.
5- Allahın Sözləri peyğəmbərlərə müxtəlif üsullarla gəlib çatmışdı. Bəziləri Allahın səsini eşitmiş, bəziləri mələklərdən xəbər tutmuş, bəziləri xəyallar və röyalar görmüş, bəzilərinə isə bunu ağıl və ürəkləri ilə Ruhül-qüds tərəfindən demişdir. Onlar da insanlara deyirdilər: "Rəbb belə buyurur."
6- Bəzi xristian qrupları etiqad bəsləyir ki, bir sıra peyğəmbərlərə möcüzə yaratmaq gücü verilmişdir. Bu da onların sözlərinin həqiqiliyini sübut edir. Bunlar Musa, Elişa, Peter kimi peyğəmbərlərdir. Vəftizçi Yəhya kimi peyğəmbərlər isə heç bir möcüzə göstərməmişlər.

---

1. "İman Yolu", Yusif Miller, səh 46
2. "İman Yolu", Yusif Miller, səh 47
3. "İman Yolu", Yusif Miller, səh 48

Amma unutmamalıyıq ki, xristianlar "peyğəmbərlik" dedikdə, özlərinə xas məna və məfhumu nəzərdə almışlar. Buna görə də, yəhudilərlə bəzi əsaslı fərqlərə malikdirlər. Ümumiyyətlə, xristianların peyğəmbərlik haqqındakı fikirləri aşağıdakılardan ibarətdir:

1- Məsihilərin etiqadına əsasən, Allah kəlamını insanlara demək və onları doğru yola yönəltmək üçün peyğəmbərlər göndərmişdir. Amma bunun səbəbini yəhudilərdən tam fərqli izah edirlər. Onların əqidəsinə əssasən, insanlar "günah" səbəbi ilə Allahın səsini eşitmək istəməmiş, demək olar ki, "mənəvi karlıq"larına görə bunu bacarmamışlar. Peyğəmbərlərin göndərilmə zərurəti məhz buna görə yaranmışdır. Gələn bəhslərimizdə "günah" və "mənəvi karlıq" haqqında ətraflı məlumat veriləcəkdir.

2- Xristianlıqda "peyğəmbərlik" məfhumu geniş mənada qəbul edilir. Buna görə də, peyğəmbərlər fərqli xüsusiyyətlərə malik olan şəxslər deyildir. Xristianlığa görə, Allah bəzi insanlarla danışmış və onlardan kəlamlarını başqa insanlara çatdırmasını tələb etmişdir. Beləliklə, onlar Allahın peyğəmbərləri olmuşlar. Bunların arasında əvvəllər olduqca çirkin və pis işlərlə məşğul olmuş insanlar, hətta günahsız insanları qətlə yetirən şəxslər də yer alır. Bəzən də peyğəmbərlər bu günahlara peyğəmbərlik dövründə də əl atır, amma tövbə edirlər. Tövbə etmiş kişi və qadın peyğəmbərlər iman etdikləri üçün qurtulduqlarına görə Allah tərəfindən bağışlamışdır. Bir sözlə, peyğəmbərlər heç də günahsız olmamışlar.

3- Çoxsaylı məsihi qruplarının fikrincə, qadınlar da peyğəmbər ola bilər. Buna nümunə olaraq, bir çox qrupların Musanın bacısı Məryəmi peyğəmbər saydıqlarını qeyd etmək mümkündür.[1]

4- Bir çox xristianların əqidəsinə əsasən, Allahın dostu və iman gətirənlərin atası sayılan İbrahimi Allah bir çox xalqların atası seçmişdir. Bütün peyğəmbərlər İbrahimin və onun oğlu İshaqın nəslindəndir.[2]

---

1. "İman Yolu", Yusif Miller, səh. 44
2. "İman Yolu", Yusif Miller, səh 45

Yuxu görmək bir nemətdir ki, ondan məhrum olmaq, Allah tərəfindən cəzalandırmaq kimi təqdim edilir. Qədim əhddə yalançı peyğəmbərlər yuxu görməkdən məhrum edilməklə təhdid edilir.[1] "Buna görə sizə görüntüsüz gecə gələcək, Qaranlıqda falçılıq edə bilməyəcəksiniz. Həmçinin, Əhdi-ətiqdə Misirin Fironunun yuxusu və Yusif peyğəmbərin yuxu yozma əhvalatı da nəql edilir."[2]

Həmçinin, Əhdi-ətiqdə padşahlar pis əməllərinə görə Allah tərəfindən yuxuda ikən danlanır. Buna nümunə olaraq, Əhdi-ətiqdə Allahın Avimalekin yuxusuna gələrək, İbrahimin həyat yoldaşını mənimsədiyi üçün onu təhdid etməsini qeyd edə bilərik.[3]

## Vəhyin və peyğəmbərliyin sonu

Yəhudi alimlərinin fikrincə, Həzrət Musa (ə) gətirdiyi vəhylərdən əlavə, bütün peyğəmbərlərin söylədiklərini də bəyan etmişdir. Bununla da, insanlara kamil və hərtərəfli bir din bəxş etmişdir. Buna görə də, dörd il miladdan öncə hüdudlarında, ilahi vəhy və Ruhul-qüdsün enişi İsrail övladlarından kəsildi. Amma Məsih (Maşih) gəldikdən sonra, yenidən bərpa ediləcəkdir. Bununla belə, sonuncu yəhudi peyğəmbərin ölümündən sonra da, bəzən ilahi-səmavi səslər Allahın fərmanlarını xalqa çatdırır.[4] Həzrət Musadan (ə) sonra İsrail övladları arasında mövcud olan 48 kişi peyğəmbər və 7 qadın peyğəmbər Tövrata heç bir şey artırmayıb və bu 55 peyğəmbər sadəcə olaraq Tövratı təbliğ etməklə məşğul olmuşlar.[5]

## Xristianlıqda peyğəmbərlik

Biz xristianlığın peyğəmbərlər haqqındakı fikirlərini Bibliyadan öyrənirik. Orada xristianların etiqadına əsasən, Allah tərəfindən seçilmiş və Onun müjdəçiləri olan adamların tərcümeyi-halları, yazıları və sözləri mövcuddur. Peyğəmbərlərin dəqiq sayı məlum deyildir. Bibliyada adı çəkilən bir sıra peyğəmbərlər bunlardır: Həzrət İbrahim (ə), Həzrət Musa (ə), Musanın qardaşı Harun, Musanın bacısı Məryəm, Natan, Şəmuel, Davud, İlyas, İshaq, Elişa, Yeşaya, Yeremya, Yəhya, Yoel, Daniel və İsa Məsihin gəlişindən əvvəl gəlmiş Vəftizçi Yəhya...

---

1. Mikeya, 3:6
2. Varlıq, 41:1-39
3. Yaradılış 20:3-4
4. Təlmud, Tusiftasuta, 13:3
5. Əmir Firuddin Qorqani, "Təlmuddan seçmələr", səh. 141

## 2- Allahın peyğəmbərə toxunması ilə vəhyini çatdırması

Əhdi-ətiqə görə, Allah-təala əlini peyğəmbərinin ağzına qoymaqla kəlamını onun dililə cari edir. "Rəbb əlini uzadıb ağzıma toxundu və mənə dedi: «Bax sözlərimi sənin dilinə qoydum. Bu gün əni millətlər və ölkələr üzərinə təyin etdim."[1]

### A) Pərdə arxasından (görünməyərək) alınan vəhy

Bu vəhydən məqsəd, Allahın peyğəmbərinə görünməyərək, bir əşyada səs yaradaraq danışmasıdır. "Rəbb sizinlə bu alovun içərisindən danışdı. Siz Onun danışıq səsini eşitdiniz, lakin bir surət görmədiniz. Yalnız bir səs var idi."[2]

### B) Mələk vasitəsilə vəhy almaq

Başqa səmavi kitablar kimi Əhdi-ətiqdə də, mələk vasitəsilə vəhy almaq haqqında söhbət açılıb. Həmin kitabda camaatın arasında olanda Asəf nəslindən olan Yaxazielinona mələk vasitəsilə Allahın onlara hücum gətirən böyük qoşundan qorxmamağı və ruhdan düşməməyi əmr etdiyini söyləyir.[3]

### C) Yuxuda vəhy

Əhdi-ətiqdə peyğəmbərlərin yuxuda vəhy alması haqda çoxsaylı məlumatlar verilmişdir. Belə ki, Allah Harunla Məryəmi çağıraraq deyir: «İndi sözlərimi dinləyin Əgər aranızda bir peyğəmbər varsa, Mən Rəbb görüntüdə ona Özümü bildirərəm, yuxuda onunla danışaram."[4]

## Yəhudilikdə vəhyin yuxu ilə rabitəsi

Bütün ilahi dinlərdə yuxuya diqqət edilir. Lakin yəhudi dinində yuxu görmək xüsusi əhəmiyyət daşıyır. Yuxarıda qeyd etdiyimiz kimi bəzən peyğəmbərlik məqamı yuxuda verilir. Təlmuda görə, ümumiyyətlə yuxuya peyğəmbərlik məqamından pay düşür.[5]

Yaxud, "Rəbbin Ruhu mənim vasitəmlə söylədi, Onun sözü dilimin ucundadır"[6] kimi cümlələr də elə bu mənaya işarədir.

---

1. Yeremya, 1:9-10
2. Qanunun təkrarı, 4 :12
3. Salnamələr (2), 20:14-15
4. Saylar, 12:5-6
5. Təlmud, 291; Bərəxud, 57
6. Şamuel (2), 23:2

Başqa bir bölümdə Allahın Yeremyanın sözlərinə qulaq asmağın və onunla vəhy yolu ilə bağladığı əhdə sadiq qalmağın zəruriliyinə təkid edir. Onun Allahın sözlərini söylədiyini deyir.[1] Yəni Yeremya birbaşa Allahın kəlamını eynilə xalqa çatdırır.

Əhdi-ətiqdə Allah Həzrət Musaya əmr edir ki, ilahi kəlamını (vəhyi) yazsın. Həmin vəhylə də, Allah Musa və bütün İsraillə əhd kəsir.[2] Əlbəttə, bəzən Allahın söylədiyi vəhy, hazır yazı şəklində də peyğəmbərlərə təqdim edilib: "Rəbb sizinlə bu alovun içərisindən danışdı. Siz Onun danışıq səsini eşitdiniz, lakin bir surət görmədiniz. Yalnız bir səs var idi. O sizə əhdini, yəni əməl etmənizi buyurduğu on əmri elan etdi. Bunları iki daş lövhə üzərinə yazdı."[3]

## Əhdi-ətiqdə vəhyin alınma növləri

Əhdi-ətiq peyğəmbərlərin vəhyi bir neçə formada aldıqlarını söyləyir:

A) *Vasitə olmadan, birbaşa Allahdan vəhy almaq.* Tövrata görə Allah başqa peyğəmbərlərdən fərqli olaraq yalnız Musa ilə onun gözünə görünərək birbaşa danışır. "Qulum Musa isə elə deyil, O bütün evimdə sadiqdir. Mən onunla müəmmalarla deyil, Üzbəüz açıq danışaram və O, Rəbbin surətini görür."[4]

Əhdi-ətiqdə birbaşa Allahdan vəhy qəbul etmək də iki şəkildə qeyd olunur:

## 1- Xəbər vermək

Əhdi-ətiqdə Allahın Şamueli onun gözünə görünmədən çağıraraq, ona gələcəkdən xəbərlər verməsi də mövcuddur: "Rəbb gəlib orada durdu və əvvəlki kimi «Şamuel! Şamuel!» deyə çağırdı. Şamuel dedi: «Danış, ya Rəbb, qulun Səni eşidir». Rəbb dedi: «Bax İsraildə elə bir iş görəcəyəm ki, eşidənin qulaqları cingildəyəcək."[5]

---

1. Yeremya 11:2-3
2. Çıxış, 34:27
3. Qanunun təkrarı 4:13
4. Saylar 12:6
5. Şamuel (1), 3:10-11

Əhdi-ətiqə görə, bəzən ana bətnindəki uşağa peyğəmbərlik əta edilir. "Mənə Rəbbin bu sözü nazil oldu: Mən sənə ananın bətnində Surət verməzdən əvvəl səni tanıdım, Doğulmazdan əvvəl səni təqdis edib Millətlərə peyğəmbər etdim."[1]

Əhti-ətiqdə vəhydən söhbət açıldıqda həmişə peyğəmbərlərə verilən vəhylər nəzərdə tutulmur. Bələm Bauraya (Bilam) vəhyin və Allahın ruhunun nazil olmasının yazılması da buna sübutdur. "Bilam gözlərini qaldırdı və İsraili qəbilələrinə görə yerləşmiş görəndə onun üzərinə Allahın Ruhu endi. O, gələcəkdən xəbər verib dedi: Budur, Beor oğlu Bilamın kəlamı, Uzaq görən adamın kəlamı, Allahın sözlərini eşidən, Külli-İxtiyarın görüntüsünü görən, Gözləri açıq, yerə sərilən adamın kəlamı."[2]

Müqəddəs Kitabın İnseklopediyasında isə bəzən "vəhy" ilham mənasına işlədilir.[3]

## Əhdi-ətiqdə vəhyin təhlili

Əhdi-ətiqdə peyğəmbərlərə verilən ilahi vəhy "sözlə bəyan"dan ibarətdir.

- "Allah dedi": Mən enərək orada səninlə danışacağam." [4]
- "Allahın kəlamı nazil oldu": "Rəbb Musanın baxmağa gəldiyini görəndə Allah kolun ortasından onu çağırıb dedi: "Musa, Musa!" O da "mən buradayam"- dedi."[5]

Həmçinin, Əhdi-ətiqdə nəbinin Allahla birbaşa danışıqları da qeyd olunub.[6]

Ümumiyyətlə, Əhdi-ətiqdə "nəbi" (peyğəmbər) kəlməsindən məqsəd, "Allahın vəhyini söyləyən ağız" deməkdir. Bu kitabda Allah Bəni-İsrailə sonda onlar üçün öz qardaşı övladlarından Musaya oxşar peyğəmbər göndərəcəyini buyurur. Allah həmin peyğəmbərin ağzına-dodaqlarına öz sözlərini qoyacağını, Allah hər nə söyləsə, hər nə buyursa, peyğəmbərin də, onu deyəcəyinə təkid edir.[7]

---

1. Yermiya, 1:4-5
2. Saylar, 24:2 -5
3. Ceyms Hakes, Müqəddəs Kitabın İnseklopediyası, səh. 905
4. Saylar, 11:17
5. Çıxış, 3:4-5
6. Şamuel (1), 2:23
7. Təsniyə, 18-ci fəs. 17-22-ci cüm

## ƏHDİ-ƏTİQDƏ VƏHY

Yəhudilərin əksəriyyəti, ümumiyyətlə, təkcə Tövratı deyil, Əhdi-ətiqi bütünlüklə vəhy məhsulu və Allahın kəlamı kimi təqdim edir. "Bu xəbərdarlıq İsrail barədə nazil olan Rəbbin sözüdür."[1]

Əhdi-ətiqdə ilham və vəhyin nazil olması əksər hallarda Allahın ruhunun insan bədəninə nazil olması və oturması" kimi qeyd edilir. "Rəbbin Ruhu üzərimə endi və mənə dedi: «Söylə ki, Rəbb belə deyir:…" [2] "Ordular Rəbbinin Öz Ruhu ilə əvvəlki peyğəmbərlər vasitəsilə göndərdiyi qanunu və nəsihətləri eşitməmək üçün ürəklərini almaz kimi sərtləşdirdilər. Buna görə də Ordular Rəbbi onlara çox qəzəbləndi." [3]
Allahın ruhu da hər kimin üzərinə nazil olarsa, o, dəyişər və nəbi (peyğəmbər) olar. Belə ki, Şaul Davudu gətirmək üçün oraya adamlar göndərdiyi zaman, onlar Şamuelin başçılığı altında peyğəmbərlər dəstəsinin peyğəmbərlik etdiyini gördülər. Onda bu adamların da üstünə Allahın Ruhu enir və onlar da peyğəmbərlik etməyə başlayırlar. Bunu Şaula xəbər verdikləri vaxt, o başqa adamlar göndərir və onlar da peyğəmbərlik edirlər. *Şaul üçüncü dəfə yenə adamlar göndərir, onlar da peyğəmbərlik edirlər*. Bütün bunların hamısı, Allahın ruhunun onların üzərinə enməsilə baş verir. [4]

Əhdi-ətiqə görə, bəzən Allahın ruhu (vəhy və peyğəmbərlik) bir şəxsdən alınaraq, başqasına əta edilir. Bu kitabda nəql edilir ki, Kenaana, oğlu Sidqiya yaxınlaşdığı zaman, Mikeyanın yanağına vurub Allahın Ruhunun (vəhyinin) peyğəmbərlik etməsi üçün ona keçdiyini söyləyir.[5]

Bəzən ilahi vəhy peyğəmbərlik üçün hazırlaşdırmaq qəsdilə yeniyetməyə də verilir. Yeremya peyğəmbərə vəhy nazil olduğu zaman, o, Allah cavan olduğunu, danışıq qabiliyyətinə malik olmadığını deyir. Cavabında isə, ilahi yardımı ilə peyğəmbərlik vəzifəsinə başlamağına əmr edilir.[6]

---

1. Zəkəriyya, 12:1; 9:1
2. Hezegel, 11:5
3. Zəkəriyya, 7:12 Nehemya, 9:206; Mikeya, 3:8; Yoel, 2:28
4. Şamuel, 19:20-24
5. Padşahlar (1) 22:24
6. Yermiya, 1:6-7

Bundan xəbər tutan Davud onun əri Oriyanı[1] bilərəkdən qaynar döyüş bölgəsinə göndərərək ona tələ qurdurur və öldürtdürür. Sonra isə onun arvadı ilə rahat həyat sürməyə başlayır. Allah bu iyrənc əmələ görə Davuda qəzəblənir. Onu bəlaya düçar edir Səhvini anlayan Davud tövbə edir. Allah onu bağışlayır...

## Əyyub peyğəmbər (ə)

Varlıq, 3-cü fəsildə Allah tərəfindən xəstəliyə düçar olmuş Əyyubun imtahandan və ilahi sınaqdan üzü ağ çıxmadığı, dözümsüzlük edərək Allaha qarşı çıxması və şikayətlənməsi qeyd olunur. (Bir halda ki, başqa cümlələrdə onun dözümlü və səbirli olduğu üçün təriflənməsinin şahidi oluruq.)

## Süleyman peyğəmbər (ə)

Bibliyaya əsasən, Davud peyğəmbərdən (ə) sonra onun Varsiviyadan olan oğlu Süleyman (ə) padşah olur. O, əzab-əziyyətin, çətinliyin nə olduğunu bilmir. Belə ki, bu dövrdə kef-damaq, naz-nemət içərisində yaşayan bəni-İsrail tayfası, ən gözəl qəsrlər tikir, hətta behiştdən də kömək alırlar. Amma Süleyman peyğəmbər bu nemətlərə naşükürlük edərək Allaha itaətsizlik edib, onun qadağan etdiyi dul qadınlarla evlənir. O, Moavlılar, Ammonlular, Edomlular, Sidonlular və Xetlilərdən çoxlu yadelli qadın seçir.

Bu azmış kimi, müxtəlif bütlərə sitayiş edən dul arvadlar, Süleymanın qəlbini ələ alaraq, onu bütpərəst edirlər. Nəticədə, Süleyman Sidonluların ilahəsi Aştoretə və Ammonluların iyrənc bütü Milkoma xidmət edir.

Süleyman Rəbbin gözündə pis olan işlər edir və atası Davuddan fərqli olaraq Rəbbə tamamilə xidmət etmir. Süleyman Yerusəlimin şərqindəki dağda Moavın iyrənc bütü Kemoş üçün və Ammon övladlarının iyrənc bütü Molek üçün səcdəgah düzəldir. O öz allahlarına buxur yandıran və qurbanlar gətirən bütün yadelli arvadları üçün belə edir. Allah-təala guya Süleymanın gözünə iki dəfə görünərək, bütpərəstlikdən əl çəkməyi əmr edir. Ancaq Allahın əmrinə məhəl qoymayan Süleyman bütlərə ibadət etməklə kifayətlənməyib qurbangah da tikdirir. Buna görə də, Allah qəzəblənərək onun ölkəsində iğtişaş salır. Süleymanı isə cinlərin başçısı tərəfindən uzaq bir guşəyə atır. Cin Süleymanın cildinə girərək ölkəni idarə etməyə başlayır. Süleyman (ə) tövbə edir Allah onu atası Davud peyğəmbərin (ə) hörmətinə əfv edir.[2]

---

1. Bibliyanın yazdığına görə, Oriya Davudun ən cəsur, sədaqətli, inamlı əsgəri sayılırdı.
2. Padşahlar (1), 11-ci fəs, 1-40-cı cüm.

Bir gün onun böyük qızı bacısına dedi: «Bizim atamız yaşlıdır və bizim başqa qadınlar kimi kişimiz yoxdur. Gəl atamıza şərab içirək və onunla cinsi əlaqədə olaq ki, nəsli kəsilməsin.» Həmin gecə Lut şərab içərək böyük qızı ilə əlaqə olur. Lut bu əhvalatdan xəbərsiz qalır... İkinci gecə kiçik qız da bu işi təkrar etdir... Beləliklə, Lutun nəsli yox olmayıb, davam tapır. Maraqlıdır ki, onun öz qızlarından iki oğlu oldu və onlar da peyğəmbər idilər və onların nəslindən çoxlu peyğəmbərlər gəldi.

## İbrahim peyğəmbər (ə)

Bibliyaya görə, guya İbrahim peyğəmbər (ə) öz canının qorxusundan və həmçinin tamahkarlığı ucbatından arvadı Saranı bacısı kimi təqdim edərək, onu Firona ərə verir. Əvəzində isə, çoxlu mal-dövlət sahibi olur. Amma zalım, qəddar və pozğun bir padşah olan Firon, Saranın İbrahimin (ə) arvadı olduğunu bildikdə onu İbrahimə (ə) qaytarır və bu işi tutduğuna peşman olur. (Varlıq, 12-ci fəsil, 11-20-ci cümlələr)

## Yaqub peyğəmbər (ə)

Varlıq, 14-cü fəsil, 37-50-ci cümlələrə əsasən, Yaqub (ə) oğlu Yusifin ölüm xəbərini eşidən kimi, paltarlarını cırıb fəryad edərək, günlərini vay-şivənlə keçirib ağlayırdı. Onu oğlu, qızı və hətta bütün tayfası ovutmağa çalışır. Lakin o nəinki ovunmaq bilmir, «belə ağlaya-ağlaya qəbirə gedəcəyini söyləyir.» Peyğəmbərlik vəzifəsini buraxaraq, insanlardan uzaqlaşıb vay-şivənlə yaşayır...

Həmçinin Yaqub, aldatma və hiyləgərliklə qardaşı Evasın haqqını tapdalayaraq onun üçün nəzərdə tutulmuş «xeyir-duanı» atasından oğurlayır. Və bu yolla peyğəmbərliyə yetişir (Varlıq, 30-cu fəsil, 25-43-cü cümlələr və 27-ci fəsil, 1-46-cı cümlələr)

## Davud peyğəmbər (ə)

Bibliya Davudu (ə) «zülmkar», «qatil» adlandırır. Şamuel 2-kitab, 2-ci fəsil, 2-28-ci cümlələrə görə, bir gün Davud öz otağında namaz qılarkən bir göyərçin görür. Göyərçinə vurulan Davud, ibadətini buraxaraq onun ardınca qaçır və onunla birgə evin damına çıxır. Elə oradaca gözü əsgərlərdən birinin evində çimən Varsiva adlı arvadına düşür. Bir könüldən min könülə ona vurulan Davud guya onu zorlayaraq qeyri-qanuni cinsi əlaqədə olur. Zaman keçir, Varsiviya Davuddan hamilə olur.

Tövratda tapşırılır ki, əgər aranızdan bir peyğəmbər yaxud bir röya görən çıxıb sizə bir əlamət ya da möcüzə olacağını söyləyərsə, sonra tanımadığınız yad allahların ardınca gedək və onlara sitayiş edək- deyərsə, bəhs etdiyi əlamət və ya möcüzə həyata keçsə də, belə peyğəmbərin yaxud röya görənin sözlərinə qulaq asmayın. Tövrata görə, bu, bir ilahi sınaq və imtahandır. Allahı görmək istəyir ki, insanlar Allahı bütün qəlbləri, bütün varlığı ilə sevirmi?[1]

Amma eyni halda qeyd olunur ki, yalançı peyğəmbərləri tanımanın bir yolu da, onların möcüzələrinin və qeybi xəbərlərinin boşa çıxmasıdır. "Əgər bir peyğəmbər Rəbbin adından danışanda dediyi söz həyata keçməzsə yaxud düz çıxmazsa, bilin ki, onu Rəbb söyləməmişdir. O peyğəmbərin dediklərinin səlahiyyəti yoxdur. Ondan qorxmayın."[2]

Həmçinin, Əhdi-ətiq iddia edir ki, Allah-təala yalançı peyğəmbərlərin möcüzəsini boşa çıxardır və onları ifşa edir. "Yalançı peyğəmbərlərin möcüzələrini boşa çıxaran, Falçıları ifşa edən Allah."[3]

## 2- Əhdi-ətiqin təsvir etdiyi peyğəmbərlər məsum deyildir.

Ümumiyyətlə, Əhdi-ətiq müqəddəs peyğəmbərlərə çox ziddiyyətli münasibət bəsləyir. Sanki müntəzəm olaraq onları bir növ məsuliyyətsiz, dargöz, kobud, pisliyə və pozğunluğa meylli insanlar kimi tanıtmaq istəyir. Peyğəmbərlik heysiyyətinə və şərəfinə layiq olmayan, ən pis işləri, böyük günahları onlara nisbət verir. Qəribədir ki, eyni halda bu peyğəmbərləri Allah elçisi, müqəddəs insan, Allahın dostu sayır. Belə məqamlardan bəzilərini aşağıda qeyd etməyi lazım bilirik:

## Lut peyğəmbər (ə)

Bibliya Lut peyğəmbərin öz qızları ilə cinsi əlaqədə olduğunu və onun nəslinin beləcə davam taparaq yaşadığını iddia edir. Varlıq, 19 fəsil, 30-38-ci cümlələrdə söylənilir: «Lut öz şəhərindən çıxdıqdan sonra, Allah onun qövmünə, o şəhərin sakinlərinə bəla göndərdi. Lut şəhərdən kənarda öz iki qızı ilə mağarada yaşamağa başladı.

1. Qanunun təkrarı, 13:1-5
2. Qanunun təkrarı, 18:22
3. Yeşaya, 44:25

İsrailin Allahı olan Ordular Rəbbi belə deyir: “Aranızdakı peyğəmbərləriniz və falçılarınız sizi aldatmasın, gördüyünüz yuxulara əhəmiyyət verməyin. Çünki onlar Mənim adımla sizə yalandan peyğəmbərlik edir. Onları Mən göndərmədim” Rəbb belə bəyan edir." [1]

Bəs həqiqi peyğəmbərləri yalançı kahin-peyğəmbərlərdən fərqləndirən şərtlər nədir?

## Peyğəmbərliyin şərtləri

Əhdi-ətiqə görə, Allah-təala istədiyinə qeyd-şərtsiz peyğəmbərlik məqamı bəxş edir.[2] Yəhudilərin təsdiq və etibarını qazanmış Təlmud kitabında isə, peyğəmbərliyin Allahın istədiyi bəndəsinə bəxş etdiyi hədiyyə olmasından əlavə, bu ali məqama sahib olmaq üçün bir sıra xüsusiyyətlərə malik olmağın zəruriliyinə diqqət çəkir. Vəhyə sahib olan şəxs, bacarıqlı, fürsəti dəyərləndirmək qabiliyyətinə sahib, pak, pərhizkar, saleh əməlli, təvazökar, dözümlü və imanlı olmalıdır. Əxlaqi xüsusiyyətlərdən başqa, cəsur, ağıllı, alim, varlı-sərvətli və uzun boylu olması da lazımdır. Əlbəttə, qeyd edilir ki, əxlaqi azğınlıqlar, vəhy və peyğəmbərliyin geri alınmasına səbəb olur. Məsələn; peyğəmbər əsəbləşsə, təkəbbürlü olsa, peyğəmbərlik məqamı ondan geri alınır.[3]

Yəhudi filosofu İbn Məymun təkidlə söyləyir ki, peyğəmbərlik məqamı, buna hazır olmayan şəxsə verilmir.[4]

Burada bir neçə məsələyə diqqət etmək lazımdır:

## 1- Həqiqi peyğəmbərləri tanımanın yeganə yolu

Əhdi-ətiqin təsvir etdiyi həqiqi peyğəmbərləri demək olar ki, onların möcüzələri ilə tanımaq mümkün deyil. Həqiqi peyğəmbərləri yalançı kahin-peyğəmbərlərdən fərqləndirən yeganə xüsusiyyət isə onların bir olan Allaha (Yəhvəyə) sarı dəvət etməsidir.

Axav bütün İsrail övladlarını və peyğəmbərləri Karmel dağına çağandan sonra, İlyas Baal "peyğəmbərlərinin" (kahinlərinin) hamısını Qişon vadisində qətlə yetirir. Onlardan bir nəfər də qaçıb qurtara bilmir.[1]

---

1. Yeremya, 29:8-9
2. Qanunun Təkrarı 18:18
3. Əmir Firuddin Qorqani, "Təlmuddan seçmələr", səh. 138-139; Təlmud, Mişnasuta, 9:15
4. Dr. İsrail, "Musa ibn Məymun və əhvalihi", səh. 92-94

Yalançı nəbilər haqqında isə yenə Əhdi-ətiqdə oxuyuruq: "Rəbb mənə dedi: Peyğəmbərlər Mənim adımla yalançı peyğəmbərlik edir. Onları Mən göndərməmişəm, onlara əmr edib söz deməmişəm. Sizə peyğəmbərlik etdikləri şeylər yalan bir görüntü, falçılıq, boş bir şey, öz ürəklərinin uydurmasıdır."[2]

Əlbəttə, diqqət etmək lazımdır ki, Əhdi-ətiqdə yalançı kahinlər peyğəmbər adlandığı kimi, həqiqi peyğəmbərlər də, qeybdən xəbər verdikləri üçün kahin-görücü adlandırılmışdır. Bunun üçün də, Müqəddəs kitabı oxuduğumuz zaman bu qarışıqlığı nəzərdə almalıyıq. "Əvvəllər İsraildə Allahın iradəsini öyrənmək üçün gedəndə adamlar belə deyərdilər: «Gəl görücünün yanına gedək». O vaxt peyğəmbərləri görücü adlandırırdılar." [3]

Yalançı peyğəmbərlər və kahinlər müxtəlif zikrlər oxuyub, çalıb oynayıb özlərindən gedir və qəşş edir, sonra isə gələcəkdən xəbər verirdilər. Maraqlıdır ki, bunlar Əhdi-ətiqdə sərt tənqid edilir. Amma elə həmin kitabda yazılanlara görə, bəzi peyğəmbərlər də, vəhy aldıqları zaman çalıb oynayır və zikrlər söyləyib özlərindən gedirdilər. Şaul Filişt keşik dəstəsinin olduğu yerə Giveat-Elohimə çatdığı zaman, şəhərə daxil olduqda, səcdəgahdan enən bir peyğəmbər dəstəsinə rast gəlir. Onların qarşılarında çəng, dəf, ney, lira çalınır və onlar peyğəmbərlik edir. Onda Rəbbin Ruhu Şaulun üzərinə qüvvə ilə enir və o da, onlarla birgə peyğəmbərlik edir. Dönüb tamam başqa bir adam, yəni; peyğəmbər olur.[4]

Əhdi-ətiqdə Allah daim yalançı peyğəmbərlərdən uzaq durmağı və onlara aldanmamağı tapşırır.

---

1. Padşahlar (1), 18:18-20 və 40
2. Yeremya 14:14
3. Şamuel (1) 9:9
4. Şamuel, 10:5-11; 19:20-24

# İBRAHİMİ DİNLƏRDƏ PEYĞƏMBƏRLİK VƏ VƏHY

**Müəllif:** Dr. Əfzələddin Rahimov (Azərbaycan)[1]

Bu məqalədə, İbrahimi dinlərdə; yəni yəhudilik, məsihilik və islamda Pryğəmbərlik haqda olan fikirlər sizlər üçün açıqlanacaq və sonda müqayisə olacaq:

## YƏHUDİLİKDƏ PEYĞƏMBƏRLİK

Yəhudi dininə müraciət etdikdə, başqa dinlərlə fərqli bəzi cəhətlərin şahidi oluruq. Bu dində, Allah-təala öz xüsusi qövmünə, İsrail övladlarına nəzarət edir, onu himayə altına alır, bu tayfanı doğruluğa dəvət etmək, xilas etmək və yaxud cəzalandırmaq üçün natiqlərini və peyğəmbərlərini göndərir. Bu, yəhudi dinində peyğəmbərlərin göndərrilməsinin fəlsəfəsidir.

Qeyd etdiyimiz natiqlər, peyğəmbərlər və nəbilərin bütün sözlədikləri Allahın (Yəhvənin) sözüdür. Onların əmrləri və fərmanları Allahın əmr və fərmanı sayılır. Buna görə də, Əhdi-ətiqdə nəbilərin tarixi və sözləri və onlar haqqında hər nə varsa, deməli bir mənalı olaraq Allahın bəndələrinə söylədiyi şəhri-haldır.

### Əhdi-ətiqdə "nəbi" kəlməsi haqda

Əhdi-ətiqdə "nəbi" kəlməsi müxtəlif məqamlarda fərqli mənalarda işlədilir. Əhdi-ətiqin "nəbi" adlandırdığı bəzi şəxslər sadəcə kahinlərdir. Əlbəttə, onların arasında müşrik kahinlər, yalançı nəbilər, təbliğatçı nəbilər və Yəhvənin həqiqi nəbiləri də mövcuddur.

Belə ki, Əhdi-ətiq İsrailin padşahı İzabelin 450 müşrik peyğəmbər-kahini olduğunu söyləyir. "İsrail padşahı dörd yüzə qədər peyğəmbəri topladı və onlara dedi: "Vuruşmaq üçün Ramot-Gileada gedim ya getməyim?"2

İlyas peyğəmbər bu 450 müşrik peyğəmbər-kahini birdəfəlik öldürtdü. O üzünü padşaha tutaraq deyir ki, İsraili mən yox, sən və atanın evi dərdə saldınız. Siz Rəbbin əmrlərindən dönüb Baal bütlərinə xidmət etdiniz. İndi bütün İsraililləri, İzevelin süfrəsində yemək yeyən dörd yüz əlli Baal peyğəmbərini və dörd yüz Aşera peyğəmbərini Karmel dağına, yanıma çağır.

---

1. elmi-işçi, Əl-Mustafa BeynəlxalqVirtual Universitet, Qum, İran, rahimli80@mail.ru

2. Padşahlar (1), 22:6

## Baş radaktorun ön sözü

Tədqiqat, elm sahəsində həyat şərbəti rolunu oynayır. Onun inkişafı elmin sərhədlərinin genişlənməsi və çiçəklənməsi deməkdir. Tədqiqat və araşdırma sahəsinə diqqətsizlik etmək, elmi inkişafın zəifləməsi və sonda tamamilə məhvinə gətirib çıxarır. Bu da, cəhlin yaranmasına şərait yaradır. Belə ki, müasir dünyada sağlam tədqiqatın olmamasının məhsulu olan “modern cəhalətin” şahidi oluruq.

Elmi sahələrin günbəgün inkişafı, daha çox elmi sahələrə daxil olmağın zərurətini çatdırır. Bu gün, islam elmlərinin müxtəlif sahələri beynəlxalq aurada araşdırılmalı və düzgün təqdim edilməlidir.

“**PURE LİFE**” jurnalı əl-Mustafa Virtual Universitetinin tələbələrinə öz elmi-tədqiqat əsərlərini buraya təqdim etmək üçün şərait yaradaraq, tələbə əsərlərinin elmi səthini inkişaf etdirməyə və islami-humanitar sahələrdə fəaliyyət göstərən araşdırmaçıların əlaqələrinin möhkəmlənməsinə xidmət edir.

“**PURE LİFE**” jurnalı hər fəsldə, bir neçə dildə, elektron versiyada elmi məqalələrlə nəşr edilir. Bu nömrəmizdə, xüsusi buraxılışımız: “Quran və Müqəddəs kitab” mözusundadır. Jurnalda Azərbaycan və fars dillərində altı üstün elmi məqalə mövcuddur.

“**PURE LİFE**” jurnalı Əl-Mustafa nəşriyyat şurasının, həmçinin, İran İslam Respublikası İslam Mədəniyyəti və İncəsənəti Nazirliyinin fərmanına əsasən, bu jurnal, əl-Mustafa Beynəlxalq Virtual Universitetinin ilk elmi-tədqiqat gurnalı olaraq, dəyərli alimlərin və tələbələrin elmi əsərlərini qəbul edir.

## Müdirin ön sözü

“**PURE LİFE**” jurnalı bəşərin həmişəyaşar mənəvi həyatına açılan bir qapıdır. Əl-Mustafa Beynəlxalq Virtual Universiteti yer üzündə ilahi maarifi yaymağı öz ülvi vəzifəsi sayır. Allah-təalanın lütfü ilə sahib olduğu elmi dəyərlər ilə yeni bir mənəvi həyatın təməlini qoymağa çalışır. Dünya və axirət səadətini təmin etmək yolunda addımlayır.

“**PURE LİFE**” jurnalı universitetin tələbələri üçün də, elmi-mədəni fəaliyyətlərini virtual fəzada daha da inkişaf etdirmək və elmi dillə ilahi maarifi bəşərin həyatının müxtəlif sahələrində nəşr etmək yolunda gözəl bir fürsətdir. Ümidvarıq ki, elm nurunun axtarışında olan hər bir şəxsin əməyilə, bu elm və mərifət pəncərəsi daha da faydalı olsun.

# Mündəricat

## (Fars bölümü)


Təsisçi sözü ........................................................................................................ 7

Baş redaktor sözü .................................................................................................. 8

Zati tövhid haqda Quran və Müqəddəs kitabda araşdırma ................................ 11
Azadə Kəbiri, Məhəmmədəli Rzayi İsfəhani

Quran və Müqəddəs kitabda hekayələrin qarşılıqlı tədqiqi ............................... 51
Fruğ Fəhim, Seyid Məhəmməd Təbatəbai

Quran və Müqəddəs kitabda peyğəmbərlik haqda müqayisəli araşdırma …...... 71
Əşrəf Sadat Nui Bağban, Mehdi Sazəndegi

Quran və Müqəddəs kitabda “xilaskar” məfhumu barəsində tədqiq ................. 97
Nəfisə Muradi, Məhəmmədəli Qəyyumi


## (Azəri bölümü)


Təsisçi sözü ...................................................................................................... 142

Baş redaktor sözü ............................................................................................. 143

İBRAHİMİ DİNLƏRDƏ PEYĞƏMBƏRLİK VƏ VƏHY ............................. 145
Əfzələddin Rəhimov

İBRAHİMİ DİNLƏRDƏ ALLAH ................................................................. 197
Tofiq Əsədov


## Qısa xülasələr


Məqalələrin qısa xülasəsi .................................................................... 130

## Məqalə və təqdim şəkli:

1. Məqalə aşağıdakı bölümlərə malik olmalıdır:

Ünvan, xülasə, açar kəlmələr, müqəddimə yaxud mövzuya giriş, məqalənin əsas mətni, nəticə, istifadə olunmu mənbələr.

2. Məqalələr əvvəllər çap olunmamış olmalı və müəllif məqaləni başqa nəşriyyəyə verməyə öhdədar olmamalıdır.
3. Elmi və hüquqi cəhətdən məqalənin doğruluğu üçün , müəllif məsuliyət daşıyır.
4. Məqalələrin qəbul edilib-edilməməsi jurnalın öhdəsindədir. Nəşriyyat 30 gün ərzində məqalənin müəllifinə bu haqda məlumt verməlidir.
5. Elmi dəyərləndirmədən sonra məqalənin jurnalda çal olunması üçün son təsdiq, təhrir heyətini öhdəsindədir.
6. Məqalənin həcmi ən az 8 səhifə və ən çox 25səhifə, hər səhifədə 250 kəlmə olmalıdır.
7. Jurnalın məqalələrindən istifadə, jurnala istinad verilmək şərtilə manesizdir.
8. Məqalənin fars, ərəb, ingilis dilində olan xülasəsi ən çox 250 kəlmə olmalıdır.
9. Məqalənin (farsca) yazılış qələmi font 14 və B Lotis xəttilə ilə olmalıdır.
10. Ərəb dilində olan məqalələrin qələmi font 15 və Arabic Typesetting xəttilə olmalıdır. Ordu dilində font 14 və Alvi Nastaleeq xəttilə olmalıdır. İngilis və Azərbaycan dilindəki məqalələr font 13 və Times New Roman xəttilə yazılmalıdır.
11. İstifadə olunmuş mənbələr əlifba sıraası ilə və aşağıdakı şəkildə olmalıdır:

İstifadə edilmiş kitab: Müəllifin familyası, adı, nəşr ili, kitabın ünvanı (bold şəklində), tərcüməçinin və yaxud düzəliş edən şəxsin adı, çap növbəsi, məkan, nəşriyyat.

İstifdə edilmiş məqalə: Müəllifin familyası, adı, nəşr ili, məqalnin ünvanı, tərcüməçinin adı, nəşriyyat (bold şəklində), çap dövrəsi, çap nömrəsi, məqalənin səhifələrinin sayı, nəşr ili.

12. Mətndə istiadə edilmiş mənbələrin haşiyədə qeyd olunma tərzi: Müəllifin adı, nəşr ili, səhifə. Misal: (Təbatəbai, 1991:76)
13. Hər səhifədəki haşiyənin mənbəyinin qeyd forması: Xarici dildə olan kəlmələr, islah edilmiş mənbələrin şərhi və sair aşağıda haşiyədə gətirilməlidir.
14. Məqaləni yazan şəxs və şəxslər, məqalələrini Universitetin Elm-tədqiqat Departamentinin elektron-poçtuna göndərməlidirlər: *research@almustafaou.com*

Bununla birgə, ad, familya, elmi rütbə, ünvan, tel. nömrəsi və elektron-poçtunuzu (email) göndərin.

Jurnal bir neçə dildə birgə fəaliyyət göstərdiyi üçün, dəyərli tədqiqatçılar öz əsərlərini Azərbaycan, fars, ərəb, ingilis, ordu və sair dillərdə təqdim edə bilərlər.

15. Məqalə çap edildikdən sonra, jurnalın nəşriyyatı onun bir nüxəsini müəllifin elektron-poçtuna göndərəcəkdir.

**Qanuni göstəriş:**
Əl-Mustafa nəşriyyat şurasının iyirmi ikinci iclası (2014.3.10),
İran İslam Respublikası İslam Mədəniyyəti və İncəsənəti
Nazirliyinin (2015.3.2) 74327 nömrəli fərmanına əsasən,
bu jurnal elm-tədqiqat gurnalı kimi təyin edildi.

*http://journals.miu.ac.ir/*

**Bismillahir–rəhmanir-rəhim**

Müxtəlif dillərdə fəaliyyət göstərən elmi-tədqiqat jurnalı

# PURE LİFE

## Xüsusi buraxılış: “Quran və Müqəddəs kitab”

ikinci nəşr ili, ikinci nömrə, 2015 İyun, 1436 h. q. Mübarək Ramazan ayı, 1394 Tir

**Təməl imtiyaz sahibi**: Əl-Mustafa Beynəlxalq Universiteti

Əl-Mustafa BeynəlxalqVirtual Universiteti, Elm-tədqiqat Departamenti

**Müdir**: Möhsün Qənbəri

**Baş radaktor**: Abidin Siahət İsfəndiyari

**Elmi yönətici**: Tofiq Əsədov

**İcraçı**: Əbülfəzl Mandeqar Qələndəri

**Təhrir heyəti**:

| | |
|---|---|
| Möhsün Qənbəri | Əl-Mustafa Beynəlxalq Virtual Universitetinin rektoru-Qum |
| Abidin Siahət İsfəndiyari | Əl-Mustafa BeynəlxalqVirtual Universiteti, Elm-tədqiqat Departamentinin sədri-Qum |
| Tofiq Əsədov | Əl-Mustafa Beynəlxalq Virtual Universitetinin ustadı-Azərbaycan respublikası |
| Seyid Məhəmmədəli On Nəqəvi | Əl-Mustafa Beynəlxalq Virtual Universitetinin ustadı-Hindistan |
| Yıldız Kadri | Əl-Mustafa Beynəlxalq Virtual Universitetinin ustadı-Türkiyə |
| Yəhya Əbdülhəsən Duxi | Alul-beyt Universitetinin ustadı-İraq |
| Qulam Cabir Məhəmmədi | İmam Xomeyni Universitetinin ustadı-Pakistan |

**Elm-təhsil mütəxəssisləri**: Mahmud Nəzəri, Müctəba Qasimi

**Texniki və sistematik yardım**: Əhməd Hüseyn Fərcamfər

**Adres**: Qum, Cənub Sahil xiyabanı, Müsəlladan öncə, 4 və 6 -cı küçələrin arası

**Post**: 3713913554 **Tel. və Fax**: 32613875-32114171

**Səhifə sayı**: 246

**Nəşr**: Elektron versiya

Web: http://journals.miu.ac.ir/content.php?pagename=journal&publication_id=117&journal_id=7&page=2

Email: research@almustafaou.com

# Revelation and Nubuwwah in the Quran and the Testaments

**Author**: Dr. Afzalodin Rahimov[1]

**Reccive**: 2015/1/21 **Accept**: 2015/6/27

## Abstract

This article tries to study and compare revelation and prophecy issues in Qur'an and the Testaments perspective. Among all books based on revelation and prophecy issues, Quran, due to its unassailable authenticity, has its own place. in this respect it is not comparable with the Bible, but despite this, there are a series of common points between Quran and the Bible. in this paper along with notes explaining their differences, share the common issues expressed, and in the end, the assessment is done.

**Keywords:** Revelation, Nubuwwah, Quran, Testaments, Bible

1. Professor of Almustafa Open University, rahimli80@mail.ru

# God in the Quran and the Testaments

**Author**: Dr. Tofiq Asadov[1]

**Reccive**: 2015/3/13 **Accept**: 2015/6/27

## Abstract

The most important issues considered in the Qur'an and the Testaments, God's existence and recognizing Dimension Tawhid that some important indicators, are fundamentally very different. God introduces the Quran, unlike the Testaments, the perfect Glory, and has absolute perfection, but however in some Testaments passages about God's divine attributes can also be seen. In fact, looking at the Testaments as God is faced with a stark contrast. So, this article reviews and evaluates the common points and differences in the Quran and the Bible about God.

**Keywords:** God, Tawhid, Quran, Testaments, Bible

---

1. Professor of Almustafa Open University, tofiq.asadov@inbox.ru

# Conceptual Description of “Savior” in the Quran and the Testaments

**Authors**: Nafiseh Moradi (Iran)[1], Dr. Mohammad Ali Qayyumi (Iran)[2]

**Reccive**: 2013/9/21 **Accept**: 2014/3/19

## Abstract

Relation and need of creatures to Imamate is like the relation of all the creatures on the earth to the creation of Hazrat Adam (AS) and his descendants. For this reason, forming a society where no kind of “injustice” can be found and a tyrant is not ruling over people’s fate has been a main challenge for human being from the past till now. So the issue of Mehdism has been raised in the divine books. In the Testaments, being optimistic for a bright and luminous world in which human being has reached to all his desires and has been cleaned from the sin and has been freed of all the materialistic attachments and its ugly displays and has strong belief on a savior which will fulfill all of his desires and needs, can be seen clearly. Judaism and Christianity are waiting for the appearance of such a promised savior who will hold the real justice all over the world. However, the real savior is God which is capable and bewared of everything. In this paper, an attempt has been made to explain briefly this issue that how the savior of humanity has been described in the main religions.

**Keywords:** Savior, Gospel, Quran, the Resurrection (of Mahdi)

---

1. Confirming Student Almustafa Open University, qhadr97@gmail.com
2. Professor of Almustafa Open University, sazmahdi@gmail.com

# A comparative Study of Prophet in the Holy Quran and the Testaments

**Authors**: Ashraf Sadat Noei Baghban (Iran)[1], Hojjatul Islam Mahdi Sazindagi (Iran)[2]

**Reccive**: 2013/9/21 **Accept**: 2014/3/19

## Abstract

In this paper, citing from the Holy Quran, the Testaments and also referring to available sources especially Commentaries *(Tafasir)*, the common and special basis about prophecy and revelation have been determined and considered. In this comparison between the Holy Quran and the Testaments, we reached this conclusion that the holy prophets were mediums to reveal the words of God to this world, but in the old testament, this word (prophet) was also applied to other people and in the new testament, the word prophet applies to the messengers and apostles of Jesus and those who used to receive the God's message and deliver it to the people. Another point is that the selection of prophet by the God's providence and will is a common point between the Holy Quran and the Old Testament. The Holy Quran emphasizes on the eternity of prophecy for a prophet but the Old Testament doesn't accept this issue. Difference between prophets with respect to their degree of grace and perfection is one of the commonalities of the holy Quran and the Testaments. The Holy Quran and the Testaments mention the necessity for people to obey the prophets. Teachings of the prophets are also a common point between the Holy Quran and the Testaments, and likewise monotheism, resurrection and eternal life are also the common points between the Holy Quran and the New Testament. Muslim scholars and the clerics of the Old Testament have common belief in the meaning of miracle. Knowing God as the origin of all the miracles, the Holy Quran and the Testaments refer some of miracles to the prophets provided that this is by the permission of God. The Holy Quran and the Testaments accept the infallibility of prophets in reception and propagation of the revelation. The practical and doctrinal infallibility of prophets are special to the Holy Quran. The Holy Quran and the Testaments describe Hazrat Musa (AS) as "Kalim-ul-Allah" (the one who speaks to God). He is a prophet who is privileged and prominent because of the abundance in miracles. From the perspective of the Holy Quran and the Old Testament, revelation is a type of ultra-human awareness and a sacred-heavenly teaching and an occult knowledge and is not a result of internal unveiling or enlightenment of the prophet. Unveiling specific to God in Jesus (AS) is not accepted by the Holy Quran and the Old Testament. The last thing is that the common point of all the divine religions is salvation and liberation of the human being and this job is done through revelation. The Old Testament and the holy Quran insist that the revealed rules and divine laws result in salvation and liberation.

**Keywords:** Quran, Prophet, Gospel, Torah, Bible

---

1. Confirming Student Almustafa Open University, hozeh_noei@yahoo.com
2. Professor of Almustafa Open University, sazmahdi@gmail.com

# A comparative study of Stories in the Quran and the Testaments

**Authors**: Faroogh Fahim (Iran)[1], Dr. Syed Muhammad Tabatabai (Iran)[2]

**Reccive**: 2013/9/21 **Accept**: 2014/3/19

**Abstract**

The religion of Islam and the monotheistic religions of Judaism and Christianity, each of them have a sacred book which is the basis of faith of the followers of these religions. Words are the messengers of meanings and they like the holy prophets are dependent on their environment, traditions, customs and their fields of duty in this messaging. Collection of words and phrases that chase a specific purpose and illustrate some particular events in the past or explain an occasion are called a story or storytelling. Storytelling and its creation have roots in innovation, thriving and genesis of human being, his primary community and very initial traditions. The art of storytelling has also been recognized by Islam and is significantly exercised nearly in all divine books especially the Holy Quran. So, Quranic tales have abundant commonalities with the Old Testament, especially in the stories of Prophets, but the pattern of narration of Holy Quran is different from the Bible.

**Keywords:** Stories, Quran, Testaments, Religions

1. Confirming Student Almustafa Open University, f.fahim20@yahoo.com

2. Professor of Almustafa Open University, Taba1352@yahoo.com

# A Study of Unity of Divine Essence in the Quran and the Testaments

**Authors**: Azadeh Kabiri (Iran)[1], Dr. Muhammad Ali Rezai Esfahani (Iran)[2]

**Reccive**: 2013/9/21 **Accept**: 2014/3/19

## Abstract

A number of Prophets had been raised from the generation of Hazrat Ibrahim (AS) whose followers have founded three main and alive religions (Judaism, Christianity and Islam) of the present time. The common thing between these three religions is their monotheism. Followers of these religions worship the God of Ibrahim (AS) and believe Him as a creator of them and the whole world. However, when we refer to the sacred texts of Jews and Christians, we see that the concept which is given by Torah and Gospel about God is completely different from that given by the Holy Quran and it is sometimes polytheistic. Now this question arises that what the cause of this inconsistency is. In this paper, by the help of library method and analytical–descriptive approach, principles of faith of monotheistic religions on the basis of unity of divine essence have been studied and an attempt to revise the unity of divine essence in the Holy Quran, unity of divine essence in the Testaments and the Holy Quran approach to the Testaments regarding unity of divine essence has been made. The result of this research showed that Torah and Gospel are acceptable by the Holy Quran but whatever is present nowadays with their name have been distorted and principles of faith contrary to monotheism have been added to them which have been criticized and rejected by the Holy Quran.

**Keywords:** Unity of Divine Essence, Quran, Testaments, Torah, Gospel

---

1. Confirming Student Almustafa Open University, A-kabiri@whc.ir
2. Professor of Almustafa Open University, rezaee@quransc.com

## Table of Contents

### Researches (Farsi Section)

**A Study of Unity of Divine Essence in the Quran and the Testaments/**
Azadeh Kabiri & Muhammad Ali Rezai Esfahani …....................…………….. 11
**A comparative study of Stories in the Quran and the Testaments/**
Faroogh Fahim & Syed Muhammad Tabatabai ……….................….…….….. 51
**A comparative Study of Prophet in the Holy Quran and the Testaments/**
Ashraf Sadat Noei Baghban & Mahdi Sazandagi ……...................................… 71
**Conceptual Description of "Savior" in the Quran and the Testaments/**
Nafiseh Moradi & Mohammad Ali Qayyumi ……......………….................... 97

### Researches (Azari Section)

**Revelation and Nubuwwah in the Quran and the Testaments/**
Afzalodin Rahimov ……………...........................................................… 145

**God in the Quran and the Testaments/**
Tofiq Asadov …………..............................................…………..…... 197

### Abstracts

**Abstract (IWL)**……………………….........……………………..... 130

## A word from Managing Editor

Research is the artery of life in the realm of insight and science. Its dynamism leads to generation and expansion of knowledge borders and discarding this area, makes knowledge resting and lifeless; and the first achievement of this resting is ignorance. In these very days, we are witnessing the modern ignorance, which roots in absence of sound and lucid research in different areas.

Today research is considered to be a gate for expanding the borders of knowledge, and plays an eminent role in human activities. Exploring Humanities and Islamic areas can enable people to understand the human issues and difficulties to offer solutions for them.

The growing development in different areas of knowledge demands discussions in more scientific areas. Explaining a huge range of Islamic Science areas in global scope is a necessity today.

“**Pure Life**” student journal, with the aim of creating a situation for presenting articles of Al-Mustafa Open University students, is trying to improve the level of student researches in Islamic Science and also grounding an area for expanding the relationships among researchers in Humanities and Islamic Science areas.

“**Pure Life**” is published, every season, in a form of a multilingual, electronic and promotive student journal. This very volume, trying to discuss “**Quran and the Testaments**”, represents the six best articles in Farsi and Azari-Turkish.

Thanks to Al-Mustafa Journals Commission and Ministry of Culture and Islamic Guidance in Islamic Republic of Iran, “**Pure Life**” journal, as the first scientific journal in Al-Mustafa Open University is ready to publish the students‟ journal.

## A Word from Chief Editor

"PURE LIFE" will be a window towards man's eternal life. Al Mustafa Virtual University considers its mission to introduce the divine teachings to ground dwelled man, so that he could be able to establish a fresh living by using the knowledge bestowed upon him by Almighty God in such a manner that it brings him worldly peace and eternal prosperity.

"PURE LIFE" is an opportunity for the students and graduates of the university to spread out their scientific and cognitive knowledge on the vast arena of cyberspace and also, with the use of scholarly dialect, reflect religious cognition into various aspects of human life. Hope that through efforts of knowledge seekers, this window may become more magnificent.

## Guide for Article Writers

1- Articles must include following sections:
title, abstract and keywords, prelude or introduction of the subject, main body of the article, conclusion, references
2- Only those articles will be considered which had not been published before and their corresponding authors have not been obliged to publish them elsewhere.
3- Responsibility of scientific and legal authenticity of the articles will rest upon the corresponding author.
4- The right to accept or reject an article is reserved for the journal. However, the secretariat of the journal is bound to report the final situation of sent articles to their corresponding authors within one month (30 days).
5- Final approval for an article to be published in the journal will be made by the editorial board after the recommendation of referees.
6- Size of an article must be eight pages at least and 25 pages at most where each page contains 250 words.
7- Quotation and adaptation from articles of the journal, with reference to the source, are allowed.
8- Persian, English and Arabic abstracts of an article should be 300 words at most.
9- To type a Persian article, “B Mitra” font with the size of 14pt should be used.
   - ✓ To type an article in Arabic, “Arabic Typesetting” font with the size of 14pt and in English, “Times New Roman” font with the size of 14pt should be used.
10- References should be arranged alphabetically and should be listed as under:
   - ✓ In Case of Book: Surname, Name, (Year of Publication), Title of Book (with “Bold” font style), Name of Translator or Editor (if applicable), Volume, Edition, Place of Publication: Name of Publisher.
   - ✓ In Case of Article: Surname, Name, Title of Article, Translator (if applicable), Name of Publication (with “Bold” font style), Periodicity, Edition, Total Number of Article Pages: (Year of Publication).
11- Endorsement of references related to sources in the text should be made in form of (Name of Author, Year of Publication: Page Number) e.g., (Tabatabai, *1376*: 89).
12- Explanation references of each page, like Latin form of alphabets, Description of terms, etc, should be given in footnote of the same page.
13- Author or Authors of an article must endorse their name, surname, academic level, address, cell number and their email along with their articles sent to the University’s Secretariat of Research and Production on: (research@almustafaou.com).
   - ✓ As the journal is multilingual, venerable scholars can submit their articles in four languages: Persian, Arabic, English and Urdu.
14- After the article is published, the secretariat of journal is bound to email the electronic edition of the journal to the given email address of the author(s).

On the basis of the act approved in the Twenty second meeting of Al-Mustafa publications Council (on 10/03/2014) and 74327 E-Rasaneh's, in Ministry of Culture & Islamic Guidance, License no. (on 02/03/2015), this special edition has been designated as at the level of academic- specialized journals with student pivoted approach.

This journal is in the electronic form which after being published will be uploaded to the following address:
(and can be downloaded completely)

*http://journals.miu.ac.ir/*

**In The Name of God**


Academic – Specialized Multilingual Journal

# PURE LIFE

**Special Issue "Quran and the Testaments"**

Vol.2, No.2, Ramadan Mubarak 1436 (Tir 1394/ July. 2015)

**Concessionaire**: (Al-Mustafa International University)

Al-Mustafa Open University, Secretariat of Research and Production

**Chief Editor**: Mohsen Qanbari

**Managing Editor**: Abedin Siahat Isfandiari

**Academic Secretary**: Tofiq Asadov

**Executive Manager**: Abolfazl Mandegar Qalandari



**Editorial Board**:

| | |
|---|---|
| Mohsen Qanbari | Chancellor, Al Mustafa Open University (Qom) |
| Abedin Siahat Isfandiari | Research and Production Secretary, Al Mustafa Open University (Qom) |
| Tofiq Asadov | Professor at Al-Mustafa Open University (Azerbaijan) |
| Syed Mohammad Ali Aon Naqavi | Professor at Al-Mustafa Open University (India) |
| Kadri Yildiz | Professor at Al-Mustafa Open University (Turkey) |
| Yahya Abdul Hasan Dookhi | Professor at Ahlbyt University (Iraq) |
| Ghulam Jabir Muhammadi | Professor at Imam Khomeini Specialized University (Pakistan) |



**Scientific- Training Experts**: Mahmoud Nazari, Mojtaba Ghasemi

**Technical Affairs**: Ahmad Hossein Farjamfard

**Publisher**: Al-Mustafa Open University

**Address**: Qom, Southern *Sahili* Road, Before *Musallah*, between lanes 4 and 6

**Post Box**: 3713913554 **Telephone and Fax**: 32613875 - 32114171

**Number of Pages**: 246

**Circulation**: Electronic Printing

Web: http://journals.miu.ac.ir/content.php?pagename=journal&publication_id=117&journal_id=7

Email: research@almustafaou.com